Xalqın qəzeti!

# Xalq qəzeti

№ 22 (30716) 1 fevral 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycanda dövlət nəqliyyat siyasətinin növbəti hədəfləri

*Yeni proqram bu sahənin problemlərinin həllinə, gələcək inkişafına xidmət edir*



**Prezident İlham Əliyevin 2025-ci il 30 yanvar tarixli sərəncamı ilə təsdiq edilən “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı” ölkə paytaxtının, bütövlükdə, Azərbaycanın sosial-iqtisadi yüksəlişi ilə bağlı önəmli perspektivlərə xidmət edir.**

Strateji hədəfli bu sənəddə əhaliyə keyfiyyətli nəqliyyat xidmətləri göstərilməsi, paytaxtımızın, habelə ətraf yaşayış sahələrinin perspektiv inkişafı nəzərə alınmaqla yol hərəkətinin bütün iştirakçılarının təhlükəsizliyinin reallaşdırılması, ümumi istifadədə olan nəqliyyat xidmətlərinin keyfiyyətinin, dayanıqlılığının və əlçatanlığının artırılması qarşıya mühüm vəzifələr kimi qoyulub. Eyni zamanda, Dövlət Proqramında nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, ümumi istifadədə olan nəqliyyat növləri üzrə vahid ödəniş sisteminin tətbiqi və inteqrasiyası əsas təminedici amillər sırasında müəyyənləşdirilib.

**(ardı 7-ci səhifədə)**

## “Erməni soyqırımı”na niyə ehtiyac yoxdur?

*Torosyanın həyasız hiylləgərliyinin pərdəarxası məqamları*

**Ermənistan parlamentinin hakim “Vətəndaş sazişi” partiyasından olan deputatı Arsen Torosyan bildirib ki, “erməni soyqırımı”nın beynəlxalq miqyasda tanınması və qınanması ölkəsinin xarici siyasət prioriteti ola bilməz. Şübhəsiz, onun bu mövqeyi hay cəmiyyətinin xəstə təfəkkür sahiblərində, o cümlədən, revanşist və şovinistlərdə, habelə onların xaricdəki havadarlarında böyük qəzəb doğurmaqdadır.**



O da şübhəsizdir ki, Torosyan da tezliklə baş nazir Nikol Paşinyan və komandasındakı digər şəxslər kimi xain elan ediləcək. Ancaq mövzumuz təkcə bu barədə deyil. Çünki deputatın açıqladığı başqa məqamlar da var. O məqamlar ki, onlarda son dərəcə ciddi həyasızlıq elementləri duyulmaqdadır.

Məlum olduğu kimi, ötən il Ermənistanın yeni dövlət büdcəsinin müzakirəsi zamanı ölkənin xarici işlər naziri Ararat Mirzoyan Torosyanın “soyqırımı” və beynəlxalq siyasət mövzusunda bildirdiklərini dilə gətirmişdi. Elə təəssürat yaranmışdı ki, rəsmi İrəvan məsələnin qondarma mahiyyətini anladığı üçün ondan uzaq dayanır.

Amma bundan bir neçə gün keçməmiş, Mirzoyanın rəhbərlik etdiyi qurum İrəvanda “Soyqırımı və digər cinayətlərə qarşı erkən xəbərdarlıq və erkən reaksiya üçün beynəlxalq mexanizmlərin effektivliyinin gücləndirilməsi” mövzusundakı iki gün davam etmiş “Soyqırım Cinayətinə Qarşı” V Qlobal Forum keçirmişdi.

**(ardı 9-cu səhifədə)**

## Paris “jandarm diplomatiya”sından əl çəkməlidir

Keçmişinə xəstəcəsinə yapışanların siyasi gələcəyi sual altındadır

**Fransanın özünün zəngin müstəmləkə “ənənələrindən” qürur duyduğu əyyamlar arxada qalıb. Nə yazıqlar ki, Yelisey sarayının indiki sahibləri XXI əsrdə müstəmləkə təfəkküründən qurtula bilmir, bu azmış kimi, riyakar və çirkin siyasətlərinə qarşı çıxanları hədəfə alır, onlara çeşidli təzyiqlər göstərirlər. Emmanuel Makron iqtidarının gözündə Azərbaycanın günahı ondan ibarətdir ki, Bakı müstəmləkə istibdadı altında inləyən, müstəqillik uğrunda mübarizəyə qalxan kiçik ada-dövlətlərin ədalətli mücadiləsinə dəstəyini nümayiş etdirir.**



Keçən əsrin doxsanıncı illərinin əvvəllərində “qırmızı imperiyanın” müstəmləkə zəncirindən qurtulmuş Azərbaycanın bu gün eyni aqibəti yaşayan xalqlarla həmrəy olması nədən kimlərinsə yuxusunu ərşə çəkdirib? Niyə dünyaya azadlıq, demokratiya, insan hüquqları kimi bəşəri dəyərlərdən dərs keçməyə çalışan həmin Avropa gözünün qabağında baş verənlərə göz yumur, qulağını tıxayır? Bu ikili standartın, dini, irqi ayrı-seçkiliyin aradan qaldırılmasına mane olan səbəblər hansılardır? Özünü “Qoca qitə”nin “beyin mərkəzi” adlandıran Fransanın başbilənləri jandarm diplomatiyasından əl çəkməli, Azərbaycana qərəzli ultimatumlar verməkdənsə, bu sualların cavabını axtarıb tapmalıdırlar.

Azərbaycan azadlıq eşqi ilə yaşayan xalqlara dəstəyini beynəlxalq hüquq çərçivəsində və ədalət prinsipini rəhbər tutaraq göstərir. Bu gün Bakı Qoşulmama Hərəkatına üzv dövlətlərin problemlərini bütün dünyanın diqqətinə çatdıran beynəlmiləl tribunaya çevrilib. Neokolonializmlə mübarizə isə gündəmin ən önəmli mövzusu olaraq qalmaqdadır. Bu xüsusda Korsika və Yeni Kaledoniyanın fəallıq göstərməsi tamamilə başadüşüləndir. Son bir həftə ərzində ikinci dəfə Azərbaycandan şikayətçi olan Fransanın xarici işlər naziri Jan Noel Baronun narahatlığını isə başa düşmək çətindir. Əslində, ermənipərəst Parisin bu qədər əndişələnməsinin motivi məlumdur. Müsyö Baro “X”-də paylaşdığı açıqlamasında yazır: “Bakı Təşəbbüs Qrupu növbəti dəfə Yeni Kaledoniyada milli siyasi həyatımızı pozmağa cəhd etdi. Azərbaycanın xaricdəki ərazilərimizdə bu nəticəsiz cəhdləri qəbuledilməzdir və dərhal dayandırılmalıdır”. Bu barədə artıq çox yazılıb. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə fransalı nazirin Azərbaycanın, guya, Fransanın dənizaşırı ərazilərində müdaxilə ilə bağlı Senatda səsləndirdiyi iddialarını yetərincə məntiqli və arqumentli şərh edib. A.Hacızadə şərhində bildirib ki, Senatda müzakirələr növbəti dəfə Azərbaycanın Fransanın dənizaşırı ərazilərinə qondarma müdaxiləsi ilə bağlı iddialar yaymağa cəhd edilib: “Fransanın xarici işlər naziri Jan Noel Baronun Azərbaycanı dənizaşırı ərazilərə müdaxilədə ittiham edən bəyanatı Fransanın Yeni Kaledoniya yerli əhalisinin tələblərinə qarşı hərəkətsizliyini ört-basdır etmək cəhdi olduğunu bir daha diqqətə çatdırırıq. Məhz Fransa hər zaman regional məsələlərə qarışaraq, Azərbaycanın sülh və sabitliyi bərpa etmək istiqamətində apardığı prosesi pozmağa çalışıb”.

**(ardı 4-cü səhifədə)**

## Azərbaycan Respublikasının Konstitusiyası və Suverenliyi

**Qədəm qoyduğumuz 2025-ci il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan 28 dekabr 2024-cü il tarixli sərəncam ilə Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilib. Məhz bu il 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Əsas Qanunu olan ilk Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümüdür.**

**(ardı 5-ci səhifədə)**



## Ballıcanın acı taleyi sona yetir

*Övladlarının dönüşü kəndi xoş günlərinə qaytarır*

**Xocalı rayonunun Ballıca kəndi yanvar ayının son günündə növbəti dəfə bayram əhval-ruhiyyəsinə qərq oldu. Burada daimi məskunlaşmış sakinlər kənd meydanına toplaşaraq sonsuz sevinc və iftixar hissi ilə yeni gələn həmkəndlilərini, qohum-əqrəbalarını qarşıladılar.**

Şanlı qələbələrimizin memarı, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, daha 94 nəfər keçmiş məcburi köçkünün doğma yurd həsrətinə son qoyuldu, daha 22 evin işıqları yandırıldı, ocaqları qalandı. Bundan sonra 31 yanvar tarixi həmin insanların yaddaşında əbədi olaraq Qarabağ nisgilinin bitdiyi gün - doğma yurda qayıdış günü kimi həkk olunacaq.

**(ardı 3-cü səhifədə)**



## Qarabağ xanı ailəsinin qətli xəyanətkar cinayət idi




Səhifə ⇨ 4

## Ukraynada müharibəni qlobal maraqlar mürəkkəbləşdirib



Səhifə ⇨ 11

# Fatih Birolun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycan Respublikasının sədrliyinə və qlobal iqlim dəyişmələri üzrə irəli sürdüyü təşəbbüslərin təşviqinə verdiyi dəstəyə və səmərəli əməkdaşlığa görə Fatih Birol "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 yanvar 2025-ci il**

# 2025-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2025-ci il Gənclər üçün Prezident mükafatları verilsin:

Ağalarov Mircavid Elşad oğlu
Əjdərli Aytac Ceyhun qızı
Əzimov Rüstəm Bakir oğlu
Hacıbəyli Rafael Siyavuş oğlu
İsrafilova Fatimə Seymur qızı
Məhərrəmova Şövkət Fikrət qızı
Məmmədzadə Vüqar Əbdüləli oğlu
Muradova Jalə Tərlan qızı
Nuruzadə Ömər İman oğlu

**birgə fəaliyyətə görə:**

Abdullayev Nihat Rauf oğlu
Əliyeva Ləman Əhəd qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 yanvar 2025-ci il**

# XİN-də diplomatik görüşlər



**Yanvarın 31-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin ölkəmizdəki yeni təyin olunmuş səfiri Birol Akgünlə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə Birol Akgün etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir qardaş Türkiyənin yeni təyin olunmuş səfirini təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı Azərbaycan-Türkiyə müttəfiqliyindən irəli gələn mövzular, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan və Türkiyə dövlətləri və xalqları arasında mövcud tarixi, ənənəvi qardaşlıq və dostluğun müttəfiqliyimizin, o cümlədən regional və beynəlxalq müstəvidə birgə səylərimizin gücləndirilməsində müstəsna əhəmiyyətinin olduğunu diqqətə çatdırıb.

Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətlərini təsbit edən tarixi Şuşa Bəyannaməsinin mövcud qardaşlıq və dostluq əlaqələrimizin təcəssümü olduğu bildirilib. Liderlərimizin təlimatı ilə çoxölçülü müttəfiqlik münasibətlərimizin siyasi, təhlükəsizlik, iqtisadi, ticarət, enerji, nəqliyyat, kommunikasiyalar, mədəni-humanitar və digər aspektləri üzrə əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində fəaliyyətin bundan sonra da davam etdirilməsinin vacibliyi vurğulanıb.

Azərbaycan və Türkiyənin bütün beynəlxalq təşkilatlarda, xüsusilə də birgə ailəmiz hesab olunan Türk Dövlətləri Təşkilatında birgə səylərimizin təqdirəlayiq olduğu, bu il Azərbaycanda keçiriləcək sammitin təşkilatın daha da gücləndirilməsinə xidmət edəcəyinə əminlik qeyd edilib.

Yaxın Şərqdə və Əfqanıstanda sabitliyin təmin edilməsi, Suriyada birgə təşəbbüslərin irəlilədilməsi istiqamətində səylərin əhəmiyyətli olduğu bildirilib.

Birol Akgün Türkiyənin Azərbaycanda səfiri qismində fəaliyyəti zamanı mövcud müttəfiqlik münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Lazar Komanesku ilə görüşüb.**



Görüşdə Azərbaycan-QDİƏT əməkdaşlığı, bu ilin birinci yarısında Azərbaycanın təşkilata sədrliyi, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov QDİƏT-in regional əməkdaşlığın təşviqi və irəlilədilməsi baxımından əhəmiyyətli platformalardan biri olduğunu qeyd edərək, ölkəmizin təşkilat çərçivəsində mövcud əməkdaşlığın daha da gücləndirilməsinin tərəfdarı olduğunu diqqətə çatdırıb.

Azərbaycanın regional iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat, kommunikasiyalar, turizm istiqamətində təşəbbüslərindən bəhs olunub, xüsusilə Xəzər-Qara-Aralıq dənizləri bölgələrini birləşdirən yaşıl enerji dəhlizi layihəsinin, habelə Orta Dəhlizin inkişaf etdirilməsi üzrə səylərin əsas istiqamətlərdən olduğu qeyd edilib.

Ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyindən bəhs edən tərəflər, ötən il Azərbaycanda keçirilən bu mötəbər tədbir çərçivəsində yeni iqlim maliyyəsi hədəfi, karbon bazarları, İtki və Zərər Fondu ilə bağlı bir sıra vacib qərarların qəbulunun əhəmiyyəti, iqlim fəaliyyəti üzrə QDİƏT-də birgə fəaliyyətin vacibliyi vurğulanıb.

*XQ*

# Şimali Kiprin Baş naziri Azərbaycan Prezidentinə təşəkkür edib




**Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi dəstəyə və diqqətə görə bütün Kipr türk xalqı adından Azərbaycan Prezidenti İlham Əliyevə səmimi təşəkkürümü bildirirəm".**

Bunu ŞKTC-in Baş naziri Ünal Üstel yanvarın 31-də Lefkoşada Rauf Denktaş və Fazıl Küçük Beynəlxalq Kipr Araşdırmaları Simpoziumunun açılışında bildirib.

Lefkoşada keçirilən tədbirdə Milli Məclisin deputatlarının da iştirak etdiyi 3 günlük məclisdə Üstel xatırladıb ki, Türkiyə ilə yanaşı, ŞKTC liderlərini xaricdə ilk dəfə Azərbaycanda da dövlət protokoluna uyğun olaraq qarşılayıblar.

ŞKTC hökumətinin başçısı Bakıya səfərləri ilə bağlı fikirlərini bölüşüb və qeyd edib ki, aparılan danışıqlar zamanı təhsil, turizm, ticarət, idman və digər sahələrdə əlaqələrin qurulması mümkün olub: "Biz bundan sonra da addımlar atmağa hazırıq. Gələcəkdə də ölkələrimizin gəncləri arasında əlaqələrin qurulması istiqamətində addımlar atmağa, ŞKTC-in Azərbaycanla münasibətlərini maksimum dərəcədə inkişaf etdirməyə hazırıq".

Hökumət başçısı yarım əsrdir davam edən beynəlxalq təcrid və Kipr türklərinin hüquqlarının pozulması məsələsinə diqqət çəkib: "ŞKTC müstəqil dövlətdir və heç bir qüvvənin nəzarəti altına düşmək niyyətində deyil. Məqsədimiz Türk dünyası ilə birlik və əməkdaşlıqdır".

*XQ*

# Azərbaycanın Baş naziri Avrasiya Hökumətlərarası Şurasının iclasında

**Yanvarın 31-də Almatıda Avrasiya Hökumətlərarası Şurasının iclası keçirilib.**



Nazirlər Kabinetindən bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda qonaq qismində iştirak edib.

İclasda çıxış edən Ə.Əsədov AZAL-a məxsus təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğramasından sonra axtarış-xilasetmə əməliyyatının aparılmasında operativ reaksiyaya, həmçinin fəlakətin səbəblərinin araşdırılmasında göstərdiyi köməyə görə Qazaxıstan hökumətinə minnətdarlığını bildirib.

Baş nazir qeyd edib ki, Azərbaycanın Avrasiya İqtisadi İttifaqının (AİI) üzvü olan tərəfdaşları ilə əlaqələri artıq 30 ildən çoxdur möhkəm dostluq və qarşılıqlı hörmət ənənələri əsasında uğurla inkişaf edir. Vurğulanıb ki, qarşılıqlı səfərlərin və təmasların intensivliyi müxtəlif səviyyələrdə ikitərəfli dialoqun müsbət dinamikasından xəbər verir.

Ə.Əsədov bildirib: "Bu gün qarşılıqlı fəaliyyətimiz müxtəlif sahələrdə çoxsaylı qarşılıqlı faydalı layihələrlə zəngindir. İqtisadi-ticari əməkdaşlığın müsbət dinamikası xüsusi məmnunluq doğurur. Ötən il Azərbaycanın AİI ölkələri ilə ticarət dövriyyəsi 14 faizdən çox artıb".

İnvestisiya əməkdaşlığının yüksələn xətlə inkişaf etdiyi vurğulanıb. "Ölkələrimiz arasında böyük investisiya layihələri paketi həyata keçirilir. Bəzi tərəfdaşlarımızla iqtisadiyyatın müxtəlif sahələrinə qarşılıqlı investisiyaları səfərbər etmək üçün birgə investisiya fondları yaratmışıq. Bu təşəbbüs artıq öz bəhrəsini verməkdədir", - deyə Baş nazir əlavə edib.

Bildirilib ki, Azərbaycan ənənəvi olaraq nəqliyyat-tranzit sektorunda əməkdaşlığa böyük əhəmiyyət verir. "Avropa və Asiyanın qovşağında yerləşən əlverişli coğrafi mövqeyi, eləcə də müasir infrastrukturu sayəsində Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika hablarından birinə çevrilib", - deyə Ə.Əsədov qeyd edib.

Vurğulanıb ki, Azərbaycan ərazisindən yük axını sabit templə artır, ötən il tranzit daşımaların həcmi 8 faiz artıb.

Qeyd olunub ki, yükdaşımalarının artım dinamikasını nəzərə alaraq, Azərbaycan öz ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin imkanlarının genişləndirilməsi istiqamətində fəal addımlar atır.

İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, Azərbaycan ərazisində ölkənin AİI-dəki tərəfdaşlarına onların tranzit ehtiyaclarını ödəmək üçün həvəslə təqdim etdiyi dəmir yolu və avtomobil yolları infrastrukturunun təkmilləşdirilməsi istiqamətində mütəmadi əsasda iş aparılır.

Baş nazir çıxışının sonunda Azərbaycanın AİI üzvü olan tərəfdaşları ilə bütün sahələrdə əməkdaşlığı artırmaq üçün bundan sonra da bütün lazımi səyləri göstərməyə hazır olduğunu bildirib.

*XQ*

# Əli Əsədov beynəlxalq rəqəmsal forumda



**Yanvarın 31-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Almatıya işgüzar səfəri çərçivəsində "Digital Almaty 2025" beynəlxalq rəqəmsal forumunda iştirak edib.**

Tədbirdə çıxış edən Ə.Əsədov rəqəmsal inkişaf və innovasiya məsələlərinin müzakirəsi, rəqəmsal transformasiya çağırışlarına birgə cavab axtarışı üçün səmərəli platforma təklif edən forumun əhəmiyyətini qeyd edib. Bildirilib ki, Azərbaycan dövlət strategiyasının ən mühüm elementi kimi rəqəmsal inkişafa xüsusi əhəmiyyət verir.

Bu il yanvarın 16-da Azərbaycanda bu sahədə görüləcək işlərin strateji prioritetlərini müəyyən edən, ölkənin rəqəmsal transformasiyasının əsas istiqamətinə çevrilən "Rəqəmsal İnkişaf Konsepsiyası" təsdiqlənib.

Ə.Əsədov deyib: "Rəqəmsal inkişaf strategiyasının əsas sahələrindən biri süni intellektdir. Hazırda biz Azərbaycanın Süni İntellekt Strategiyasını hazırlayırıq. Süni intellekt texnologiyalarının tətbiqinin xidmətlərin səmərəliliyini və keyfiyyətini əhəmiyyətli dərəcədə artıra biləcəyi prioritet sektorların müəyyənləşdirilməsinə xüsusi əhəmiyyət veririk. Bunlar, ilk növbədə, səhiyyə, nəqliyyat və təhsildir".

Forum iştirakçılarının diqqətinə çatdırılıb ki, Azərbaycanda müasir, çevik qanunvericiliyin hazırlanmasına və tətbiqinə xüsusi diqqət yetirilir. "Xüsusilə də bir sıra sənədlərin rəqəmsal formatda istifadəsi üçün hüquqi baza yaradılıb. Bu, vətəndaşlarla dövlət qurumları arasında qarşılıqlı fəaliyyəti sadələşdirir, rahat və əlçatan rəqəmsal ekosistemin yaradılmasına töhfə verir", - deyə Baş nazir əlavə edib.

Rəqəmsal transformasiya məqsədlərinə nail olmaq üçün cəmiyyətin bütün təbəqələrinin müasir rəqəmsal xidmətlərə çıxışını təmin edəcək etibarlı infrastrukturun yaradılmasının zəruriliyini vurğulayan Ə.Əsədov yüksəksürətli internetə çıxışı bu infrastrukturun əsas elementlərdən biri kimi dəyərləndirib. Baş nazir bildirib: "İnternet infrastrukturunun inkişafına yönəlmiş mühüm təşəbbüslər arasında "Onlayn Azərbaycan" layihəsini xüsusi qeyd etmək lazımdır. Layihə çərçivəsində bütün yaşayış və kommersiya obyektlərinin 99 faizindən çoxu yüksəksürətli genişzolaqlı internetə qoşulub".

Qeyd olunub ki, dövlət idarəçiliyinin rəqəmsallaşdırılması istiqamətində atılan ən mühüm addımlardan biri "rəqəmsal hökumət" platformasının yaradılması olub. Dövlət qurumları arasında məlumat mübadiləsi prosesini tamamilə rəqəmsallaşdıran "Rəqəmsal körpü" milli məlumat mübadiləsi sistemi də tətbiq edilib. Dövlət idarəçiliyinin səmərəliliyini artırmaq üçün "Hökumət buludu" layihəsinə start verilib. "Bütün bunlar "elektron hökumət"in inkişafı və rəqəmsal transformasiyanın sürətləndirilməsi üçün zəruri olan davamlı, müasir və təhlükəsiz rəqəmsal infrastrukturun yaradılması istiqamətində həyata keçirilən işlərin, sadəcə, kiçik bir hissəsidir", - deyə Baş nazir əlavə edib.

Rəqəmsal transformasiyanın təkcə texnoloji proses deyil, həm də beynəlxalq əməkdaşlığı gücləndirmək üçün bir fürsət olduğunu bildirən Ə.Əsədov Azərbaycanın davamlı rəqəmsal gələcəyin yaradılması istiqamətində birgə fəaliyyəti davam etdirməyə hazır olduğunu vurğulayıb.

*

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov yanvarın 31-də Pakistan İslam Respublikasının özəlləşdirmə, investisiya və kommunikasiya üzrə federal naziri Abdul Alim Xan ilə görüşüb.**

Nazirlər Kabinetindən verilən məlumata görə, görüşdə Azərbaycan–Pakistan dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə dinamik inkişafından məmnunluq ifadə olunub.

Azərbaycan Respublikası Prezidentinin ötən il Pakistana baş tutmuş səfəri nəticəsində dövlətlərarası münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu bildirilib.

Söhbət zamanı Azərbaycan-Pakistan strateji tərəfdaşlıq əlaqələrinin iqtisadiyyat, ticarət, sərmayələr və qarşılıqlı maraq doğuran digər sahələrdə inkişaf perspektivləri müzakirə olunub.

*XQ*

Qayıdışın akkordları

# Ballıcanın acı taleyi sona yetir



(əvvəli 1-ci səhifədə)

Beləliklə də, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində yenidən qurulan Ballıca kəndinə köçən ailələrin sayı 90-a çatdı, 467 nəfər Xocalı sakininin yeni evlərində yeni, xoşbəxt günlərinin təməli atıldı...

Daimi məskunlaşmaq üçün Ballıcaya köçən sakinlərin qarşılanması və açarların təqdimatı mərasimində kənd əhalisi ilə yanaşı, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak etdilər. Mərasimdə çıxış edən Xankəndi şəhərində, Xocalı və Ağdərə rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Telman Kərimli ballıcalıları təbrik etdi, onlara gözaydınlığı verdi.





Bildirdi ki, dövlətimiz bundan sonra da öz yurdlarına qayıtmış sakinlərin yanında olacaq, onların bütün qayğıları, o cümlədən məşğulluq məsələləri daim diqqətdə saxlanılacaq. T.Kərimli, həmçinin diqqətə çatdırdı ki, Xankəndi şəhəri, Xocalı və Ağdərə rayonlarına köç prosesi mərhələli şəkildə davam edirilicək.

Daha sonra evlərin açarları öz sahiblərinə təqdim edildi, rəsmi olaraq məcburi köçkünlük həyatına vida edən ballıcalılar yeni evlərində yerləşməyə başladılar. Sevincləri köç həyəcanına qarışmış sakinlər xoş təəssüratlarını "Xalq qəzeti" ilə bölüşdülər. Şəhid qardaşı, Birinci Qarabağ müharibəsinin iştirakçısı Nofəl Rzayev bildirdi ki, bu gün şəhidlərimizin də ruhlarının şad olduğu gündür:

– Allaha şükürlər olsun, arzularımız gerçək oldu! Bu gün Qarabağımıza sönmüş çıraqlarımızı yenidən yandırmağa qayıtmışıq. Ailəm də, özüm də bu müqəddəs torpaqlara döndüyümüz üçün sonsuz sevinc içindəyik. Allah Vətən uğrunda canlarından keçmiş bütün şəhidlərimizə rəhmət eləsin! Onların ruhları şaddır, şəhid qardaşımın da ruhu hüzura qovuşub. Çünki ordumuz şəhidlərimizin qısasını alıb və biz geri qayıdaraq uğrunda qanlar tökülmüş dədə-baba torpaqlarımıza sahib çıxırıq.

**Sevinc Əhmədova:**

– Vətənimizə qayıtdığımız üçün çox xoşbəxtəm. Arzu edirəm ki, bütün keçmiş məcburi köçkünlərin hamısı tezliklə öz yurdlarına dönsünlər, bizim yaşadığımız sevinci yaşasınlar. Gələndə yolboyu görülən işlərə baxdıqca ürəyim dağa döndü, inandım ki, həmin gün çox yaxındır. Fürsətdən istifadə edib bizə belə tarixi günləri yaşadan möhtərəm Prezidentimizə Allahdan cansağlığı, uzun ömür diləyirəm. O, bizim əbədi Preidentimizdir!

**Habil Əkbərov:**

– Mən Ballıca kəndində doğulmuşam, uşqalığım bu gözəl yerlərdə keçib. Məktəbə də burada getmişəm. 16 yaşımda erməni separatçılarının vəhşiliklərinin qurbanın çevrilərək doğma yurdumdan didərgin düşdüm. Prezidentimizin, rəşadətli ordumuzun sayəsində 32 ildən sonra ilk dəfə doğma kəndimə gələndə sevincdən göz yaşlarımı saxlaya bilmədim, keçmiş günlər yadıma düşdü. Elə bil Ballıca da bizim üçün darıxmışdı (kövrəlir, gözləri dolur – M.R.). Çox dəyişib buralar. Qalib xalqın qalib övladı kimi doğma yurduma döndüyüm üçün çox qürurluyam. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Allah Prezidentimizi qorusun!

**Hamlet Nəsibov:**

– Birinci Qarabağ müharibəsinin ağrı-acılarını görmüş, uzun illər boyu Vətən həsrəti çəkmiş biri üçün bugünkü sevinci sözlə ifadə etmək asan deyil. Biz hər zaman cənab Prezidentimizə inanmışıq. İnanmışıq ki, müzəffər Ali Baş Komandanımız bizi öz torpaqlarımıza qaytaracaq. O gün gəldi! Bu gündən etibarən doğma yurdun havası ilə nəfəs alacağıq, dağlarımızın buz bulaqlarının suyunu içəcəyik. Bu xoşbəxt günləri yaşamağımızda zəhməti olan hər kəsə minnətdaram! Allaha şükürlər olsun!

Qeyd edək ki, dördüncü dəfədir yeni sakinlərinə qucaq açan Ballıca kəndində fərdi yaşayış evləri bərpa edilib. Burada keçmiş məcburi köçkünlərin rahat yaşamaları üçün hər cür şərait yaradılıb. Kənd fasiləsiz elektirik enerjisi, təbii qaz, içməli



su və yüksəksürətli internet xətti ilə təmin olunub, kəndarası yolların təmiri və asfaltlanması işləri davam etdirilir. Ballıcada daha əvvəl məskunlaşmış sakinlər dövlətin qayğısı ilə əhatə olunublar, onların məşğulluq məsələsi də mərhələ-mərhələ həll edilir. Bir sözlə, yenidən sakinlərinə, əsl sahiblərinə qovuşan Ballıca öz xoşbəxt günlərinə geri dönür.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

Köşə

# Cənubi azərbaycanlılar Qərbi Azərbaycanda

*Biz qədim türk yurduna tankın üstündə yox, mahnı qanadlarında getdik*

**Sosial şəbəkələrdə on illər boyu arzusunda olduğumuz bir fakta şahidlik etdik. Təbrizli gənclər İrəvanın mərkəzi meydanında Azərbaycanın Xalq artisti Arif Babayevin repertuarında silinməz yeri olan "Qarabağ" mahnısını oxuyurdular. Həm də xorla. Xatırladım ki, 40-45 il əvvəl ərsəyə gəlmiş həmin mahnı Bakıda heç zaman xorla ifa edilməmişdi. Mən bilən həmin mahnını işğaldan azad edilmiş Şuşada keçirilən tədbirlərin birində, fəqət, hansısa xorun ifasında yox, bütün iştirakçıların birlikdə səsləndirdiyini eşitmişdik. İndi isə İrəvanda eşitdik. Allaha şükür. Həmin lentə baxanda yadıma düşən ilk sima ulu şairimiz Məhəmməd Füzulinin qəmli və nurlu üzü oldu. Böyük şair demişdi: "Bu vüsal yuxu əhvalı demək mümkün idi..." Amma YOX! Bu vüsal yuxu, vaqiə və ya xəyal deyildi. Həqiqətən otuz beş ildən çox həsrətində olduğumuz Ata Yurdumuza qayıtmışdıq.**



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Elə "Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək!" – qətiyyətinin müəllifi də Mövlanə Məhəmməd Füzuli idi. Nə yaxşı ki, biz həm şəhid olduq, həm intiqam aldıq, həm də cənublu qardaşlarımızın addımlarıyla İrəvana qayıtdıq.

Mən Facebookdakı məlum videonu görəndə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin üç il qabaq – 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə səsləndirdiyi fikirləri xatırladım: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə "isterika" başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq". Elə bilirəm ki, təbrizli gənclər İrəvanda həmin möhtəşəm qayıdışın "Üvertürasını" səsləndirdilər.

*

Zamanın olduqca acı bir ironiyasıdır. Biz 44 günlük İkinci Qarabağ müharibəsindən əvvəl də, həmin ay yarımda da, Ermənistanın məğlubiyyət sənədini imzalamasından sonra da Qarabağda iranlı gəncləri görürdük. Onlar üstünə farsca fərqlənmə nişanları vurulmuş ağır tonnajlı yük maşınları ilə "Artsax" quldurlarına, işğalçı və terrorçulara yanacaq adıyla nələri gətirirdilərsə dəqiq bilmirəm. Amma onu dəqiq bilirəm ki, iranlı gənclər – bizim soydaşımız olan Təbriz millətsevərləri İrəvana yanacaq, silah yox, sadəcə qeyrət, milli təəssübkeşlik yükü aparmışdılar.

*

Haqqında söz açdığımız videonu görən "Baqramyan 26" imzalı Teleqram istifadəçisi yazır ki, həyəcanlanmağa əsas yoxdur: "Mahnını oxuyanların ləhcəsindən aydın olur ki, onlar İran azərbaycanlılarıdır. Onlar Bakıda oxunan mahnıların əksəriyyətini əzbər bilirlər. Bu işlə hüquq-mühafizə orqanları məşğul olmalıdır". Fikrimizcə, Ermənistan hələ çox faktlarla heyrətlənməli olacaq. Çünki Ermənistan rəhbərliyi səhvin birinin mürəkkəbi qurumamış o birini ortaya qoyur. Rəsmi İrəvanın ən böyük səhvi isə İran rəhbərliyini dəhşətli dərəcədə hörmətsiz, urvatsız eləməsidir. Azərbaycanda İsrail səfirliyinin fəaliyyət göstərməsinə görə on illər boyu bizə irad tutan, ittihamlar səsləndirən İran indi onun Ermənistanla sərhədlərinə düzüləcək ABŞ əsgərlərinin ayaq səslərini hər gün eşidəcək. Belə olanda növbəti "Qorxulu Tehran" əsərləri yazılacaq.

Yeri gəlmişkən, "Baqramyan" bu fakta münasibət bildirərkən ənənəvi erməni riyakarlığından doğan xislətini də ortaya qoyur. O, "İran azərbaycanlıları" ifadəsiylə bizim aramıza rəxnə salmaq arzusunu dilinə gətirir. Guya Təbriz azərbaycanlıları ilə Bakı azərbaycanlıları arasında hansısa fərq var. Bu sətirlər rəsmi qəzetdə verilməsəydi ona deyərdim ki, "Ay sən öləsən!"

İranist Artyom Tonoyan adlı Facebook istifadəçisi isə həmin gəncləri "Təbrizin küçə müğənniləri" adlandırır: " Onlar əvvəllər bizim üçün həm Ermənistan – İran dostluğuna, həm də "Artsax"a həsr olunmuş mahnılar oxuyublar". Əlavə edir ki, bu, təsadüfi addım sayılmamalıdır. Şərəfsizliyin dərəcəsinə bax ki, bir andaca həmin təbrizli gəncləri bizim gözümüzdən salmaq istəyir. Daha bir ənənəvi "Ay sən öləsən!" – deyiminin yeridir.

İstənilən halda bu fakt İrəvanı çalxalayıb və şəksizdir ki, belə çalxalanmalar hələ çox olacaq. Onlar cəmiyyətdəki "tektonik" hallardan qaçmaq istəyirlərsə Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılmasına nail olmalı, sülh sənədini imzalamalıdırlar.

Hər halda biz onların daxili işlərinə qarışmırıq. Özləri bilərlər. Təbii ki, Fransa imkan versə.

# Ermənipərəst və qərəzli siyasət Fransanı Azərbaycandan uzaqlaşdırır

**Yanvarın 31-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə "Fransa və Ermənistan-Azərbaycan münaqişəsi" mövzusunda beynəlxalq konfrans keçirilib.**




Konfransda çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Fransa ilə hazırda faktiki olaraq böhran yaşandığını bildirib. O, münasibətlərin gərginləşməsində Fransadakı erməni amilinin böyük rol oynadığını vurğulayıb və bunun təşəbbüskarının Azərbaycan olmadığını diqqətə çatdırıb.

"Fransanın Ermənistan–Azərbaycan münaqişəsi ilə tarixi əlaqəsi" mövzusunda keçirilən panel müzakirənin Mərkəzinin İdarə Heyətinin üzvü, deputat Gülşən Paşayeva bu münaqişənin tarixi barədə danışıb. Kot d'Azur Universitetinin ictimai hüquq üzrə professoru Kristian Vallar Fransanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu qeyd edib. Professorun sözlərinə görə, əvvəlki Fransa prezidentləri Nikola Sarkozi, Jak Şirak Azərbaycanla əlaqələrə üstünlük verirdilər. Amma hazırda Parislə Bakı arasındakı vəziyyət bir qədər dəyişib. Bu böhranın da səbəbi 2018-ci ildə Emmanuel Makronun Ermənistana səfər etməsi və Azərbaycana gəlməməsi ilə bağlıdır. Milli Məclisin deputatı Tural Gəncəliyev deyib ki, 2003-cü ildən etibarən Azərbaycanın xarici siyasətdə daha güclü strategiya yürütməsi Fransada ölkəmizə qarşı münasibəti dəyişib. Emmanuel Makron hakimiyyətə gəldikdən sonra ikitərəfli münasibətlər daha da gərginləşib. "Conflicts" jurnalının direktoru Gil Mihaeli deyib ki, Sovet İttifaqının dağılması ilə Fransadakı erməni diasporu fəaliyyətini genişləndirərək, Qarabağ məsələsini beynəlxalq müstəviyə çıxarmağa çalışıb. Zamanla erməni diasporu siyasi alətə çevrilərək Fransa siyasiləri ilə əlaqələrini daha da gücləndirib.

Konfransın "Fransanın 2020-ci ildən sonrakı siyasəti" mövzusuna həsr edilən növbəti panel müzakirəsinin moderatoru Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Vasif Hüseynov diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsinə qədər Fransa öz neytrallığını qurumağa çalışsa da, bu yanaşma sonradan açıq xarakter aldı.

Panel müzakirəyə onlayn formada qoşulan Kanadanın Ottavadakı Karleton Universitetinin Avropa, Rusiya və Avrasiya Araşdırmaları İnstitutunun baş elmi işçisi Robert Katler ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın Ermənistana izafi dəstəyinin onun fəaliyyətini şübhə altına qoyduğunu vurğulayıb.

Digər çıxış edənlər Azərbaycan-Fransa münasibətlərinin tarixinə nəzər salıb, mürəkkəb geosiyasi zamanda dövlətlər arasındakı əlaqələrin pisləşməsinin yaxşı presedent olmadığını diqqətə çatdırıblar. Ölkəmizin regionda yaratdığı yeni reallıqlar fonunda İkinci Qarabağ müharibəsindən sonra Parisin Azərbaycana qarşı qərəzli siyasətinin arxasında duran məqamlardan danışılıb.

*XQ*

# Media və məhkəmə prosesləri

*Azərbaycan Mətbuat Şurası jurnalistlər üçün həssaslıq meyarlarını açıqladı*

**Azərbaycan Mətbuat Şurası mediada məhkəmə proseslərinin işıqlandırılması halları ilə bağlı açıqlama yayıb. XQ-yə daxil olmuş açıqlamada bildirilib ki, Şura dəfələrlə jurnalistlərə, media orqanlarına cəmiyyət həyatında baş verən hadisə və prosesləri işıqlandırarkən həssas davranmalarını tövsiyə edib: "Son dövrlər apardığımız müşahidələr həssaslığın, xüsusilə, məhkəmə proseslərinə münasibətdə göstərilməsi zərurətini ön plana çıxarır".**




Açıqlamada eyni zamanda bildirilib ki, məhkəmə orqanları mövcud instansiyalardakı çəkişmələrin predmetlərindən və digər məqamlardan asılı olaraq, proseslərin açıq və ya qapalı keçirilməsinə qərar vermək səlahiyyətindədirlər. Hər iki halda medianın cəmiyyətə informasiya vermək hüququ var və bu zaman başlıca amil ictimailik dərəcəsinin əsas götürülməsidir: "Yəni nəzərə alınmalıdır ki, konkret məhkəmə prosesinin işıqlandırılması cəmiyyətə nə verəcək, nəyi aşılayacaq?"

Şuranın açıqlamasında "Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları"nda yayımlanmış materialların ictimai əhəmiyyət kriteriyasına cavab verdiyi halların əksini tapdığı da diqqətə çatdırılıb. Vurğulanıb ki, bunlar sağlamlıq və təhlükəsizliyin qorunması, ictimaiyyətin ağır cinayətlərdən və vəzifədən sui-istifadə hallarından müdafiə olunması, ictimaiyyətin əhəmiyyətli dərəcədə yanlış istiqamətləndirilməsi təhlükəsinin aradan qaldırılmasıdır: "Söhbət məhkəmələrdən gedirsə, mühüm tələb təqsirsizlik prezumpsiyasına əməl edilməsidir ki, bu və həmçinin dəqiqliyin və qərəzsizliyin gözlənilməsinin vacibliyi də qaydalarda əksini tapıb".

Açıqlamada o da təəssüflə bildirilib ki, medianın məhkəmə proseslərinin işıqlandırılmasına yanaşmasında həssaslıq parametrlərinin zəif nəzərə alındığı, bəzən isə heç nəzərə alınmadığı görünür. Xarakterik hallardan biri də ittiham aktlarındakı ayrı-ayrı məqamların kontekstdən çıxarılaraq sərlövhələrə daşınmasıdır. Bəzən başlıqlara diqqət yetirəndə media materialının çıxarılmış konkret hökm olması təəssüratı yaranır. Halbuki, yekunda veriləcək məhkəmə qərarının ittiham aktında göstərilənlərlə uyğun olması ehtimalları var.

"Digər tərəfdən, hesab edirik ki, jurnalistlərin məhkəmə proseslərinin işıqlandırılması ilə bağlı həssaslığı baxımından başlıca tələb ədalət instansiyasında müzakirəsi aparılan işin özünün spesifikasının nəzərə alınmasıdır. Bu tələb gözlənilmədikdə hansısa həssas məsələ ətrafında onsuz da mövcud olan gərgin durum yeni xoşagəlməz ab-havanın formalaşmasına, fərqli interpretasiyaların dövriyyəyə girməsinə, nəticədə ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxarır", – deyə açıqlamada vurğulanıb.

Mətbuat Şurasının açıqlamasında jurnalistikanın və medianın heç bir halda cəmiyyətdə gərginliyin yaranmasına və artmasına, ayrı-ayrı fərdlər arasında münaqişələrin alovlanmasına xidmət etməməli, tam qərəzsiz davranmalı, fəaliyyəti ilə qərəzli olduğuna dair azacıq şübhələrin belə olmasına yol verməməli olduğu diqqətə çatdırılıb. Əksinə, media problemli situasiyaların aradan qaldırılması naminə çalışmalı, bir sözlə, mütərəqqi missiya yerinə yetirməlidir: "Ona görə də məhkəmə prosesləri ilə bağlı təqdimatlarda bütün təfərrüatlar və incəliklər, hətta region və bölgənin xüsusiyyətləri, insanların emosional-psixoloji durumları ciddi şəkildə nəzərə alınmalıdır. Ən böyük peşəkarlıq budur və jurnalistlərimizi ümumən bütün məsələlərə yanaşmada, o cümlədən, məhkəmə proseslərinin işıqlandırılmasında peşəkarlığa çağırırıq. Peşəkarlıqla demokratik cəmiyyət quruculuğuna töhfə verək ki, insanlarda haqq və ədalət gözləntiləri sarsılmasın, onlar həyatdan küsməsinlər".

***R.AMİN***

## Tarix ittiham edir

**Prezident İlham Əliyev yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədəki çıxışında bir sıra digər məsələlərlə yanaşı, xalqımıza qarşı tarixən yol verilən ədalətsizliklərdən də bəhs etdi. Dövlətimizin başçısı bildirdi ki, Qərbi Zəngəzuru sovet hakimiyyəti bizim əlimizdən 1920-ci ilin noyabrında alıb və Azərbaycan xalqına qarşı cinayət törədib. Bu, birinci və sonuncu cinayət deyildi. Əgər ardıcıllıqla getsək, ondan sonrakı cinayət qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan ərazisində yaradılması idi. Ondan əvvəlki cinayət ermənilərin çar Rusiyası tərəfindən Azərbaycan ərazisinə köçürülməsi, bir qədər öncəki cinayət isə Qarabağ xanı İbrahimxəlil xanın öldürülməsi idi. Halbuki ona öz rəhbərliyini Qarabağda icra edəcəyinə zəmanət verilmişdi.**




# Qarabağ xanı ailəsinin qətli xəyanətkar cinayət idi

## *Kimin yardım etməsindən asılı olmayaraq, haylar heç zaman uğur qazanmayıblar*

Prezident qeyd etdi ki, XX əsrin digər cinayətləri də göz önündədir. Xocalı soyqırımını, 20 Yanvar faciəsini və torpaqlarımızın 1990-cı illərin əvvəllərində işğalını Azərbaycan xalqı unutmayıb. Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq. Dövlətimizin başçısının çıxışında qaldırdığı məsələlərlə bağlı tarix elmləri doktoru, professor, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərova müraciət etdik.

**– Anar müəllim, Qərbi Zəngəzurun Azərbaycandan qoparılması və qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması prosesi necə baş vermişdir?**

– 1920-ci ilin aprelində XI sovet ordusu Azərbaycanı işğal etdi. Beləliklə, 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı. Cümhuriyyətin bu müddətdə Azərbaycan xalqının taleyi və tarixi ilə bağlı qəbul etdiyi hər şey ləğv edildi, qadağalar qoyuldu. O cümlədən bu gün qürur mənbəyimiz olan üçrəngli bayrağımız da Azərbaycan tarixindən çıxarıldı, sovet maraqlarına xidmət edən yeni bayraq peyda oldu. Sovet Rusiyası 1920-ci ilin noyabrında Azərbaycan torpaqları, o cümlədən Zəngəzurla bağlı erməni iddialarına təbii ki, bəraət qazandırdı və Ermənistanı bolşevikləşdirmək üçün Zəngəzurun Ermənistana verilməsi məsələsini Rusiya Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsini Qafqaz regionunda təmsil edən Qafqaz Bürosunun iclasına çıxardı. Beləliklə, 1920-ci il noyabrın sonlarında Qafqaz Bürosunun qərarı ilə Zəngəzur torpaqlarının bir hissəsi Ermənistana verildi. Bundan sonra ermənilərin Qarabağa iddiaları daha da artdı. Təsadüfi deyil ki, 1921-ci il iyulun 4-də Qafqaz Bürosu növbəti cinayətə əl atdı və Qarabağın Ermənistana verilməsi ilə bağlı qərar qəbul etdi. İyulun 5-də ikinci dəfə yığışan büronun qərarı aşağıdakı qaydada verildi: Qarabağ Azərbaycanın tərkibində qalır, Şuşa bölgənin paytaxtı olur və Qarabağdakı ermənilərə muxtariyyət statusu verilir. Bundan sonra Azərbaycanda hakimiyyət dəyişikliyi oldu, Nəriman Nərimanov mərkəzə aparıldı. Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin dörd sədrindən biri, Azərbaycan xalqının düşməni olan Sergey Kirov respublikamıza rəhbər gətirildi. 1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Beləliklə, sovet rəhbərliyi qısa müddət ərzində həm Zəngəzuru ermənilərə verdi, həm də yüz il sonrakı dövr üçün Qarabağda separatçı yuvası yaradıldı ki, bu başabəla qurum Azərbaycan qanunlarını heç vaxt qəbul etmirdi. DQMV Azərbaycanın tərkibində olsa da, bütün fəaliyyətini Ermənistanla qurmağa çalışırdı. Nə vaxt Azərbaycan hakimiyyətindəki birinci şəxs güclü olurdusa, o zaman ermənilər qorxularından səslərini çıxarmırdılar. Birinci şəxs zəif olurdusa, o zaman Qarabağın Ermənistana birləşdirilməsini həm muxtar vilayətin, həm də Ermənistanın rəhbərliyi Moskvadan tələb edirdilər.

**– Bəs Qarabağ xanının öldürülməsi hansı şəraitdə baş vermişdir? Çar Rusiyası bununla nəyə nail olmaq istəyirdi? Həmin qətl hadisəsinin sonrakı proseslərə təsiri necə oldu?**

– Əlbəttə, dövlətimizin başçısının yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədəki çıxışında qeyd etdiyi kimi, 1805-ci ildə imzalanmış Kürəkçay müqaviləsindən sonra Qarabağ xanlığının hüquqları əllərindən alındı. 1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələri ilə indiki İran və Osmanlı ərazisindən yüz minlərlə erməni bu əraziyə köçürüldü. Türkmənçay müqaviləsi 16 maddədən ibarətdir. Müqavilənin 15-ci maddəsinə əsasən ermənilərin indiki İran ərazisindən rahat şəkildə Azərbaycanın Naxçıvan, Qarabağ və Zəngəzur ərazilərinə köçürülməsinə hər cür şərait yaradıldı. Buradakı azərbaycanlı əhalidən torpaqlar alınaraq ermənilərə verilirdi. Əslində, 15-ci maddə ilə on minlərlə erməni Azərbaycan torpaqlarına gəldi. Qeyd etmək lazımdır ki, Təbrizdə ermənilərin köçürülmə komitəsinə rəhbərlik edən general İvan Lazarev haylara müraciətində yazırdı: "Erməni əhalisi, sizə müraciət edirəm. Sizin üçün təzə vətən tapmışıq. Siz bu təzə vətənə getməlisiniz". Təbii ki, bu "təzə vətən" Azərbaycan torpaqları idi. O dövrün rus tarixçiləri sənədlər əsasında qeyd edirlər ki, XX əsrin əvvəlləri üçün Cənubi Qafqazdakı Azərbaycan torpaqlarında 1 milyon 300 min erməni yaşayırdı. Onların 1 milyonu gəlmə idi. Yəni, Türkmənçay müqaviləsinə görə indiki İran ərazisindən, Ədirnə müqaviləsinə görə isə Osmanlı ərazisindən yüz minlərlə erməni Azərbaycan torpaqlarına köçürüldü.

Bəli, o dövrün ən böyük cinayətlərindən biri İbrahimxəlil xanın öldürülməsi idi. 1805-ci ildə Kürəkçay müqaviləsindən bir qədər sonra erməni tərəfi çar Rusiyasının nümayəndələrini inandıra bildi ki, Qarabağ xanı İbrahimxəlil xan, guya, Rusiyaya xəyanət edib. O, Kürəkçay müqaviləsinə riayət etmək istəmir və rus mayoru Dmitri Lisaneviç 1806-cı ilin yayında İbrahimxəlil xan başda olmaqla ailənin



17 üzvünü qılıncdan keçirdi. Halbuki nə İbrahimxəlil xanın xəyanəti, nə də digər bir hal var idi. Sadəcə olaraq, ermənilər İbrahimxəlil xanı hakimiyyətdən salmaq, fiziki cəhətdən məhv etmək üçün rus qüvvələri ilə birləşib onları inandıra bildilər. Təbii ki, mayor Lisaneviç belə böyük cinayətə əl atdı. Beləliklə, çarizmin müstəqil Azərbaycan xanlıqlarını işğal etməsindən sonra bu əraziyə köçürülən ermənilərə həm də böyük səlahiyyət verildi. 1828-ci il Türkmənçay müqaviləsindən bir ay sonra – mart ayının 21-də Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının ərazisində erməni vilayəti yaradıldı. Sual olunur: əgər ermənilər bu torpaqlarda yaşayırdılarsa, nə üçün əvvəldən erməni vilayəti yox idi? Məntiq və tarixi faktlar onu göstərir ki, ermənilər bu əraziyə köçürüləndən sonra çar Rusiyası özünə dayaq yaratmaq üçün erməni vilayəti, 1849-cu ildə isə İrəvan quberniyasını yaratdı. Bununla da azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlar başladı. Erməni əhalisinin sayı artırılır, azərbaycanlı əhali isə hüquqsuz insanlar kimi bu torpaqlardan çıxarılırdı.

**– Aydındır ki, çar Rusiyası Azərbaycan torpaqlarının işğalı ilə yeni ərazilər əldə etmək, mühüm coğrafi regionda möhkəmlənmək istəyirdi. Başqa niyyətləri nə idi?**

– Onlar erməniləri bu ərazilərə yerləşdirmək və yerli müsəlman əhalini buradan çıxarmaq istəyirdilər. Məlumdur ki, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Bununla bağlı kifayət qədər sənədlər var. Bu sənədlərin müəllifləri də, təbii ki, azərbaycanlılar yox, rus müəllifləridir. O da məlumdur ki, 1905-1906-cı illərdə ilk erməni-müsəlman qırğını baş verərkən ən çox zərər çəkən Qərbi Azərbaycan ərazisi oldu. Silahlı erməni dəstələri azərbaycanlı əhaliyə qarşı hər cür qətliamlar törətdilər. Bununla da Qərbi Azərbaycanda azərbaycanlı əhalinin birinci köçü başladı. Yəni, soydaşlarımızın ilk qaçqın və məcburi köçkün həyatı 1905-1906-cı illərə aiddir. Təbii ki, 1918-1920-ci illərdə yenidən Qərbi Azərbaycan torpaqlarında türk-müsəlman əhalisinə qarşı ermənilərin növbəti qırğını baş verdi və on minlərlə həmvətənimiz öz torpaqlarını tərk etməyə məcbur edildilər. Onların böyük hissəsi soyqırımına məruz qaldı. Bu da Qərbi azərbaycanlı əhalinin ikinci qaçqın və köçkün həyatı oldu. Üçüncü köçkün həyatı 1948-1953-cü illərə aiddir. Həmin illərdə azərbaycanlı əhali Ermənistan SSR-dən, yəni Qərbi Azərbaycan torpaqlarından çıxarıldılar. Guya, Yaxın Şərq ölkələrində yaşayan ermənilər "ana vətən"ləri ilə qovuşmaq, Ermənistana gəlmək istəyirdilər. Onlar üçün ev və torpağı isə yerli azərbaycanlı əhalini buradan çıxarmaqla əldə etmək mümkündür. Doğrudan da, azərbaycanlı əhali zorla o torpaqlardan çıxarıldı. Əslində, ermənilər heç ora gəlmədilər. Məqsəd azərbaycanlı əhalini çıxarmaq idi və buna da nail olundu. Ən nəhayət, azərbaycanlıların Qərbi Azərbaycandan dördüncü qaçqın həyatı 1988-ci ildən başladı. Qərbi Azərbaycan ərazisi birdəfəlik olaraq ermənilərin əllərinə keçdi. Azərbaycanlı əhali dördüncü dəfə didərgin həyatı yaşamağa məcbur edildi.

**– Bir tarixçi kimi necə hesab edirsiniz, bu hadisələr bizə nəyi göstərir?**

– Əslində, tarix bizə onu göstərir ki, həm çar Rusiyası, həm də sovet Rusiyası həmişə erməniləri və Ermənistanı müdafiə edib. Azərbaycan torpaqlarının alınıb ermənilərə verilməsində müstəsna rol oynayıb. 1920-1929-cu illərdə Naxçıvanın 9 kəndinin Azərbaycandan alınıb Ermənistana verilməsi ilə muxtar respublika ilə ölkəmizin qərb rayonları arasında quru əlaqəsi kəsildi. Naxçıvan Azərbaycandan ayrı salındı. Bu, sovet dövlətinin siyasəti idi. Həmin siyasət ermənilərə xidmət edirdi. Amma tarix göstərdi ki, ermənilərə kimin yardım etməsindən asılı olmayaraq, haylar heç zaman uğur qazana bilməyiblər. 30 il ərzində torpaqlarımızı işğal altında saxladılar, 1 milyona yaxın azərbaycanlını qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur etdilər. Amma 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistan darmadağın edildi. Azərbaycan tarixi torpaqlarını düşməndən azad etdi, orada üçrəngli bayrağımız yenidən dalğalanmağa başladı. 2023-cü ilin sentyabrında isə separatçılıq, fitnə-fəsad yuvası olan, əsası 1923-cü ildə qoyulmuş qondarma qurum tarixin arxivinə göndərildi. Bu gün Azərbaycan suveren dövlətdir. Onun ərazisində heç bir "boz zona" – separatçı qüvvə yoxdur. Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərini uğurla davam etdirir.

***Səxavət HƏMİD***
***XQ***

# Paris "jandarm diplomatiyası"ndan əl çəkməlidir

**(əvvəli 1-ci səhifədə)**

XİN rəsmisi Parisin nəzərinə çatdırıb ki, Bakı Təşəbbüs Qrupu bir QHT kimi Fransanın müstəmləkə siyasətini və dənizaşırı ərazilərdəki problemlərini ictimaiyyətə çatdırmağı hədəfləyir: "Bu cür qrupların işini gözdən salmaq cəhdləri dekolonizasiya prosesini sarsıdır. Ona görə də indi diqqətimizi Fransa diplomatiyasının rəhbərinin son çıxışına yönəldəcəyik".

*

Bəli, Cənubi Qafqaza ən təxribatçı, separatçı və ədalətsiz müdaxilələri ilə ad çıxarmış Fransanın Azərbaycanı uzaq okeaniyadakı xalqlara haqq işlərində dəstək verməkdə ittiham etməsi gülüncdür. Baronun Fransa Senatının tribunasından etdiyi vodevil üslubunda çıxışları hazırlıqlı oxucuda məhz bu cür assiosiasiya doğurur. Onun Bakı Təşəbbüs Qrupunun ünvanına dediyi şikayətnaməyə diqqət yetirin: "Bu qrup bizim ictimai müzakirəmizə müdaxilə etmək və millətin əsas maraqlarına, yəni ərazi bütövlüyümüzə və ictimai təhlükəsizliyimizə zərər vermək niyyətini açıq şəkildə nümayiş etdirir".



Yəni Fransa hakimiyyəti siyasi cəhətdən o qədərmi səbatsızlığa uğrayıb ki, Azərbaycanın sıradan bir QHT-sinin şəffaf fəaliyyətini özünün "ərazi bütövlüyünə və ictimai təhlükəsizliyinə" təhdid hesab edir? Bu qorxunun dərəcəsi Jan Noel Baronun çıxışının davamında açıq-aydın hiss olunur: "Ona görə də biz buna imkan verməyəcəyik. 2024-cü il noyabrın 19-da mən Azərbaycanın Parisdəki səfirini bu hərəkətləri qəti şəkildə pislədiyimizi bildirmək və onun hökumətindən bu hərəkətləri dayandırmağı tələb etmək üçün çağırdım".

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev** "Fransa və Ermənis-




tan–Azərbaycan münaqişəsi" mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışında bu mövzuya toxunaraq bildirib ki, hazırda Fransa ilə Azərbaycan arasında münasibətlər gərginlik dövrünü yaşamaqdadır. Onun sözlərinə görə, hansı tərəfdən yanaşılmasından asılı olmayaraq, bu böhrana səbəb Fransanın özüdür: "Azərbaycanın bir sıra Avropa ölkələri ilə çox konstruktiv əlaqələri var. Amma hazırda Fransa ilə münasibətlərdə böhran yaşanır. Buna baxmayaraq, iki ölkə arasında iqtisadi və enerji sahələrində əməkdaşlıq davam edir. Azərbaycan daim BMT Təhlükəsizlik Şurasının üzvü olan Fransa ilə əlaqələr qurmağa çalışır. Ölkəmiz bu əməkdaşlığın daha da genişləndirilməsində maraqlıdır". BMTM sədri münasibətlərin gərginləşməsində Fransadakı erməni amilinin böyük rol oynadığını vurğulayıb və bunun təşəbbüskarının Azərbaycan olmadığını diqqətə çatdırıb. Bununla yanaşı, F.Şəfiyev qeyd edib ki, Azərbaycanda Fransanın mədəniyyəti və dilinə qarşı normal münasibət mövcuddur: "Son vaxtlar Fransa səfirliyi Azərbaycandan viza müraciətlərinin artdığını açıqlayıb. Bu da normal haldır. Çünki Azərbaycan Fransa mədəniyyətinə qarşı mübarizə aparmır və vətəndaşlarımızın bu ölkəni ziyarət etmək, onun zəngin mədəniyyət nümunələrini görmək istəyi düzgün qarşılanmalıdır".

*

QHT-ni hökumətlə səhv salan Fransa xarici işlər nazirinin məntiqindən bu nəticə hasil olur ki, dünyanın qınaq dolu nəzərləri Fransaya yönəlməmişdən əvvəl Azərbaycanda təcəssüm edib. Baro bunu belə təsvir edir: "Məhz buna görə də dekabr ayında xarici rəqəmsal müdaxiləni aşkar edən Viginum xidməti bu manevrlərin miqyasını, onların həqiqi olmadığını və məqsədlərinə çata bilmədiyini nümayiş etdirən ətraflı hesabat dərc etdi". Beləliklə, Fransanın tanınmış rəqəmsal elm adamları Yelisey sarayına "düşmən" üzərində qələbə haqqında məruzə ediblər. Bundan sonra vedovil məzhəkə xarakteri alır: "Əgər sizin dediyiniz müdaxilə videokonfrans formatında baş veribsə, bu ona görədir ki, biz bu qrupun təşkil etdiyi forumda Azərbaycan hakimiyyətinin iştirakına sanksiyalar vasitəsilə mane olmuşuq". Bunları oxuyanda məşhur fransız aktyoru Lui de Funesin baş rolda çəkildiyi jandarmlar haqqında komediyanı xatırladıq. Həmin filmdə səhlənkar və yöndəmsiz jandarmlar özlərindən heç də geri qalmayan komissara hesabat verirlər. Amma hər dəfə yanlış hərəkət edən bütün komanda başqa bir xəcalətlə üzləşməli olur. Bu dəfə oxşar biabırçılığı jandarm rəisi deyil, Fransanın baş diplomatı nümayiş etdirib: "Xarici ərazilər üzrə nazirlə birlikdə biz sizi – Yeni Kaledoniya xalqını dəstəkləyirik. Onları qurulmuş tələyə düşməməyə çağırırıq. Özünü biabır edən, gözdən salan, sanksiyalara məruz qalacaq Azərbaycana səslənirik...".

Bu məqamda müsyö Baronun açıqlamasına müdaxiləyə ehtiyac yaranır. Əgər Paris sanksiyaların köməyi ilə istədiyi nəticəni əldə edəcəyinə əmindirsə, onda niyə Azərbaycandan heç nə etməməyi tələb edir? Məsələnin maraqlı tərəflərindən biri də odur ki, Azərbaycan özünü necə, hansı formada biabır edir? Məgər xalqların müstəmləkəçiliyə qarşı mübarizəsini dəstəkləmək rüsvayçılıq sayılır? Doğrudur, bu fəaliyyət günahkarda səbəbkar ölkəyə qarşı qıcıq, hətta nifrət yarada bilər. Amma ədalətli ölkə bundan heç vaxt utanmaz və xəcalət hissi keçirməz.

*

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu mövzu ilə bağlı XQ-yə** açıqlamasında



bildirdi ki, əgər Fransa Azərbaycanın onun daxili işlərinə qarışmasından bu qədər narahatlıq keçirirsə, onda düşünsün ki, bəs niyə onlar vaxtilə Qarabağ separatçılarına o dəstəyi verirdilər: "Biz Fransa prezidentliyinə namizədlərin Qarabağa səfərlərini, qeyri-qanuni "dqr" rejiminin nümayəndələri ilə görüşlərini unutmamışıq. Onda rəsmi Paris dolayısı ilə deyil, birbaşa Azərbaycanın daxili işlərinə qarışır, ölkəmizin ərazi bütövlüyünü pozurdu. Azərbaycanın heç bir rəsmisi Yeni Kaledoniyaya səfərə getməyib, orada müstəqillik uğrunda mitinq keçirənlərə dəstəyini ifadə etməyib. Onlar öz problemlərini Bakıda keçirilən beynəlxalq konfranslarda qaldırırlar. Amma yenə deyirəm, hansı dövlət məmurumuz Numeaya gedib, aranı qarışdırıb? Ortada belə bir fakt yoxdur. İntəhası, torpaqlarımız işğal altında olanda Fransa rəsmiləri, diplomatları qanunsuz olaraq dəfələrlə Qarabağa gəlirdilər, Xankəndidə separatçıların liderləri ilə görüşürdülər. Bunlar danılmaz faktlardır. Təəssüflər olsun ki, Fransada Azərbaycan barədə danışanda heç bir məmur, qanunverici orqanın təmsilçisi çıxıb demir ki, biz Cənubi Qafqazda yanlış xarici siyasətimiz ucbatından indiki vəziyyətlə üzləşmişik. Gəlin, bu bölgə ilə, Azərbaycana yönəlik siyasətimizə korrektələr edək. Doğrudan da Azərbaycanın Yeni Kaledoniya məsələsində tutduğu mövqeyindən narahatsınızsa, bunu edin. Bu istiqamətdə Yelisey sarayından heç bir açıqlama eşitməmişik. Bakı Parislə münasibətləri gərginləşdirməkdə maraqlı deyil. Fəqət, Fransa davamlı olaraq anti–Azərbaycan bəyanatları ilə çıxış etdiyinə görə ikitərəfli münasibətlərin yaxın gələcəkdə normallaşmasından danışmağa dəyməz".

Ümumiyyətlə, Fransa xarici işlər nazirinin məlum çıxışlarında ümidsizlik notlarını sezməmək mümkün deyil. Bu amilin özü Parisi Bakı ilə fikir ayrılıqlarını danışıqlar masası arxasında müzakirə etməyə çağırmalıdır. Amma əvvəlcə çirkin anti-Azərbaycan isterikasından əl çəkməli, ölkəmiz adına diplomatik etiketdən kənar ritorikaya son qoymalıdır. Ən azı, ona görə ki, özünün tarixi torpaqları üzərində suverenliyini bərpa etmiş Azərbaycandan fərqli olaraq Fransa XIX və XX əsrlərdə vəhşicəsinə zəbt və istismar etdiyi, hələ də neokolonialist siyasətini davam etdirdiyi dənizaşırı ərazilərə münasibətini dəyişməyə məhkumdur.

Sözün qısası, Paris müstəmləkəçilik siyasətini dayandırmalı, Cənubi Qafqazda sabitliyi pozmağa yönəlik hərəkətlərdən əl çəkməli, Bakıya doğru saf niyyətli addım atmalıdır. Bu halda qarşılığını artıqlaması ilə görəcəyinə əmin olsun.

***İmran BƏDİRXANLI***
***XQ***

**Konstitusiya və Suverenlik İli**

# Azərbaycan Respublikasının Konstitusiyası və Suverenliyi

*Fərhad ABDULLAYEV,*
*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri*




**(əvvəli 1-ci səhifədə)**

Bu sərəncam dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan sərəncam ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması üçün bir fürsət kimi dəyərləndirilə bilər.

"Konstitusiya və Suverenlik İli" dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır.

İstənilən xalq üçün müstəqil, suveren dövlətini yaratmaq və onu inkişaf etdirmək ən böyük nailiyyətdir. Ərazi, əhali və siyasi hakimiyyət kimi əsas atributları özündə ehtiva edən hər hansı siyasi varlığın dövlət olması üçün suverenlik, müstəqillik xüsusiyyətinə malik olması vacib şərtdir. Suverenlik istənilən dövlətin mövcudluğunun və davamlı inkişafının ilkin və əsas şərti qismində çıxış edir.

Dövlətin suverenliyi üçün ilk növbədə hüquqi-siyasi, sosial-iqtisadi fundament formalaşdırılmalıdır. Azərbaycana münasibətdə qeyd edilməlidir ki, 1969-cu ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkənin intibah dövrünə qədəm qoyması belə fundament rolunu oynadı. Belə ki, tarixi inkişafın sonrakı gedişatı bir daha sübut etdi ki, Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə müstəqil dövlətimizi qurmağa başlamışdı. Ötən əsrin 60-cı illərinin sonunda Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkənin gələcək müstəqilliyinə etibarlı bünövrə formalaşdırmağa başladı. Məhz həmin dövrdə yaradılmış iqtisadi potensial müstəqillik illərində Azərbaycan üçün çox mühüm rol oynadı. Dahi şəxsiyyət Heydər Əliyevin həyata keçirdiyi düşünülmüş daxili siyasət sayəsində ölkəmizdə milli özünüdərk, vətənpərvərliyin gücləndirilməsi istiqamətində də vacib addımlar atıldı. O dövrdə müxtəlif sahələrdə yerli kadrların yetişdirilməsi, həmçinin milli şüurun inkişaf etdirilməsi, milli ruhun yüksəldilməsi sahəsində bir çox mühüm işlər həyata keçirildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli Sərəncamında bununla bağlı qeyd edilmişdir: "Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir".

Məlum olduğu kimi, 1990-cı illərin əvvəllərindən hərbi təcavüz ilə üzləşən ölkəmiz beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərinin iyirmi faizinin işğal edilməsi ilə qarşı-qarşıya qaldı. Ermənistanda və işğal olunmuş torpaqlarımızda azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə və hərbi cinayətlər törədilmiş, təbii resurslar talan edilmiş, şəhər və kəndlərimiz viran edilmişdir. Lakin bu ərazilər otuz ilə yaxın müddət ərzində işğal altında qalsa da, hər zaman suveren Azərbaycan əraziləri olaraq tanınırdı.

Bu dövrdə Azərbaycanın daxilində cərəyan edən mürəkkəb proseslər, vətəndaş qarşıdurmasının güclənməsi, anarxiya mühitinin dərinləşməsi, ən əsası isə ölkənin müstəqilliyi üçün təhdidlərin meydana çıxması onu göstərdi ki, ölkəni yaranmış ağır vəziyyətdən yalnız Ulu öndər Heydər Əliyev kimi güclü, prinsipial və iradəli lider xilas edə bilər. Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyev Azərbaycanın fəlakətlərlə üz-üzə qaldığı bir dövrdə xalqımızın tarixinə milli dövlətçiliyin xilaskarı kimi daxil oldu.

Xalqımız və dövlətimiz üçün belə bir ağır zamanda Ulu öndər Heydər Əliyev doğma Azərbaycanı xilas etmək naminə misilsiz fədakarlıq göstərmiş, ölkəmizi ictimai-siyasi pərakəndəlik və anarxiyadan xilas etmişdir. Bununla da, ictimai və siyasi həyatın bir çox sahələrində müşahidə olunan dərin tənəzzülün qarşısı alınmış, dövlətin dayanıqlı və davamlı inkişaf yolu müəyyən edilmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində milli dövlətçilik ideyası realizə olundu, müasir müstəqil Azərbaycan dövləti möhkəmləndi. Dövlətimiz dahi liderinin rəhbərliyi altında tamamilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Dövlət və cəmiyyət həyatının bir çox sahələrini əhatə edən irimiqyaslı islahatların həyata keçirilməsinə başlandı. Ümummilli lider Heydər Əliyev ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində prioritetlərin müəyyən edilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının yenidən hazırlanması və digər bir sıra mühüm vəzifələrin öhdəsindən məharətlə gəldi.

Qeyd edilməlidir ki, istənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyə-



tinin təşkilinə dair əsas konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir. Belə ki, hər bir hüquqi dövlətin Konstitusiyası bu təməl prinsipləri müəyyən edərək, insan hüquqları və azadlıqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü və digər bir sıra mühüm hüquqi başlanğıcları özündə ehtiva edir.

1990-cı illərin əvvəllərində SSRİ-dən miras qalmış hüquq sistemi və qanunvericilik bazası hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiəsinə lazımi təminat vermirdi. Bu nöqteyi-nəzərdən Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra hüquqi dövlət quruculuğu ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi və ilk növbədə ölkənin yeni Konstitusiyasının qəbul edilməsi artıq mütləq idi. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə mövcud olan xaos və ziddiyyətli proseslər, siyasi qeyri-sabitlik, eyni zamanda vahid siyasi iradənin olmaması, dövlət müstəqilliyi üçün təhdidlərin mövcud olması bu mühüm vəzifənin həyata keçirilməsini qeyri-mümkün etmişdir. Yalnız Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Konstitusiyanın qəbulu mümkün oldu.

Beləliklə, Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 2 may tarixli 1048 saylı qərarı və Ulu öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 34 nəfər üzvdən ibarət tərkibi təsdiq olundu. Bu Konstitusiya Komissiyasının tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi və elm xadimləri, görkəmli hüquqşünaslar, tarixçilər, dilçilər daxil edilmişdi. Ümummilli lider Heydər Əliyev Konstitusiya Komissiyasının fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini vermiş, Konstitusiyanın müddəalarını şəxsən nəzərdən keçirmiş, bu ali sənədin layihəsinin açıq müzakirələrini təşkil etməklə onun ən yetkin formada qəbul edilməsini təmin etmək üçün gərgin əmək sərf etmişdir.

1995-ci il iyunun 5-də yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası keçirilmişdir. Həmin iclasda geniş nitq ilə çıxış edən Ulu öndər Heydər Əliyev dövlətimizin konstitusiya quruculuğu tarixinə geniş şəkildə toxunmuş və qeyd etmişdir ki, müstəqil dövlətimizin ilk Konstitusiya layihəsinin hazırlanması tarixi nöqteyi-nəzərdən olduqca böyük və mühüm bir hadisədir. Həmin çıxışında Ümummilli lider qeyd etmişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Ona görə də mən dedim ki, üzərimizə düşən vəzifə həm şərəflidir, həm də çox məsuliyyətlidir".

Eyni zamanda, həmin çıxışında Ulu Öndər Heydər Əliyev qəbul ediləcək yeni Konstitusiyanın məqsədləri, qaynaqları və mahiyyətinə aydınlıq gətirərək ölkə Konstitusiyası barədə belə söyləmişdir: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

Konstitusiya layihəsini hazırlayan Komissiyanın 1995-ci il oktyabrın 3-də keçirilən iclasında Komissiyanın sədri Heydər Əliyev qeyd etmişdir: "Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir".

Ulu öndər Heydər Əliyevin çıxışlarında qeyd edilən bu vacib konseptual məqamlar mahiyyət etibarilə hüquqi dövlət quruculuğu prosesində ilkin təməl rolunu oynadı.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası preambula, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olmaqla 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-də isə qüvvəyə minmişdir.

Konstitusiyanın qəbul edilməsinin milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu öndər Heydər Əliyev tərəfindən imzalanan 1996-cı il 1 noyabr tarixli fərmana əsasən hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

1995-ci ildə ölkənin Əsas Qanununun qəbul edilməsi müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olaraq, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi baxımından çox mühüm ictimai-siyasi hadisə idi. Yeni Konstitusiyanın qəbulu eyni zamanda, ölkəmizin inkişafının tamamilə yeni mərhələyə qədəm qoymasının göstəricisi olmaqla, müstəqillik illərində əldə olunan nailiyyətlərin hüquqi əsası qismində çıxış edir.

12 noyabr - Konstitusiya Günü münasibətilə Azərbaycan xalqına təbrikində Ümummilli lider Heydər Əliyev qeyd etmişdir: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya qanunvericilik sisteminin əsasında durur, eyni zamanda ölkədə hüquqi və siyasi sabitliyin təminatı qismində çıxış edir. Həmçinin dövlət suverenliyinin əsas təminatçısı olmaqla, Konstitusiya normaları ictimai münasibətlərin inkişafında müəyyənlik amili qismində çıxış edir. Ölkə Konstitusiyası dövlət quruluşunun əsaslarını, hakimiyyətlərin bölünməsi prinsipini, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini müəyyən edir, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatı ilə bağlı mexanizmləri tənzim edir.

Əsas Qanunun Preambulasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan edilmişdir. Bu ülvi niyyətlər ümumilikdə Konstitusiyanın mütərəqqi dəyərlərini əks etdirir.

1995-ci il Konstitusiyası bir sıra təməl başlanğıcları özündə ehtiva edir: dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması; insan şəxsiyyətinə və ləyaqətinə hörmət; insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu; sosial ədalətə nail olmaq; ümumbəşəri dəyərlərə sadiqlik və digərləri.

Əsas Qanun Konstitusiya quruluşunun ən mühüm başlanğıcı kimi xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Həmçinin Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşdığını bəyan edir.

Əsas Qanun sosial-iqtisadi, ictimai-siyasi sistemlərin əsasını təşkil edir, insan və vətəndaş hüquq və azadlıqlarına əsaslı təminat yaradır. Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olaraq müəyyən edilməsi, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumağın qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi olmasının nəzərdə tutulması vacib əhəmiyyət kəsb edir. Bu, insana, onun hüquqları və azadlıqlarına dövlət tərəfindən verilən dəyərin bariz göstəricisidir.

Xüsusilə vurğulanmalıdır ki, Əsas Qanunda insan və vətəndaş hüquq və azadlıqları, onların reallaşdırılmasının ümumi mexanizmləri olduqca geniş şəkildə öz əksini tapıb. Konstitusiyada bu hüquq və azadlıqlar xüsusi imtiyaz olaraq deyil, məhz hər kəsin doğulduğu andan malik olduğu toxunulmaz, pozulmaz və ayrılmaz ali dəyərlər kimi ifadə edilir.

İnsan hüquqlarına etibarlı və davamlı təminat yaradan Konstitusiyanın ən böyük fəslində hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquq və azadlıqlar, onların həyata keçirilməsi mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq, qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi, konstitusiyaların hüquqi əlamətlərindən biri onların stabilliyidir. Konstitusiyanın stabilliyi ölkədə qanunçuluğun, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin, şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindən biridir. Konstitusiya uzunmüddətli fəaliyyət üçün nəzərdə tutulan normativ hüquqi aktdır. Bununla belə, konstitusiyaların qəbulu zamanı onların tənzimetmə predmetini təşkil edən ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişir, cəmiyyət elmin və texnologiyaların inkişafı baxımından keyfiyyətcə yeni dövrə qədəm qoyur.

Bu cür zərurətdən irəli gələrək 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərində keçirilmiş referendumlar nəticəsində ölkə Konstitusiyasına bir sıra mühüm əlavələr və dəyişikliklər edilmişdir. Dövrün çağırışlarını özündə ehtiva edən bu islahatlar hüquqi dövlət dəyərlərinin daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı və səmərəli müdafiəsi məqsədlərinə xidmət edib.

İlk dəfə 2002-ci ildə konstitusiya dəyişikliklərinə yaranan ehtiyac bir çox sahələrdə nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilən referendumun nəticəsi kimi Konstitusiyaya dövrün obyektiv reallıqlarından irəli gələn bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilib. Əsas Qanunun mətninə 2002-ci il 24 avqust tarixli referendumla edilmiş əlavə və dəyişikliklər ölkənin hüquq sisteminin təkmilləşdirilməsinə xidmət etmiş, eyni zamanda bu ali sənədin mühüm əhəmiyyətə malik yeni müddəalarla zənginləşməsi ilə nəticələnmişdir.

2002-ci ildən keçən yeddi il ərzində cəmiyyət həyatının bir çox sahələrində əldə edilən yeni nailiyyətlər, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının inkişafı, beynəlxalq inteqrasiyanın genişlənməsi və digər bir sıra mühüm yeniliklər Konstitusiyada da bir sıra əlavə və dəyişikliklərin edilməsi məsələsini gündəmə gətirdi. 2009-cu il martın 18-də keçirilən ümumxalq səsverməsi nəticəsində edilən əlavə və dəyişikliklər mahiyyətcə Əsas Qanunun daha da təkmilləşməsinə, xüsusilə insan hüquq və azadlıqları ilə bağlı əhəmiyyətli müddəaların Əsas Qanunda daha dolğun şəkildə ehtiva edilməsinə xidmət edib.

2009-cu il 18 mart referendumundan ötən illər ərzində ölkə iqtisadiyyatının dinamik inkişafı və digər bir sıra vacib amillər ölkənin siyasi idarəetmə sisteminin daha da müasirləşdirilməsini, həmçinin vətəndaşların hüquqlarının və azadlıqlarının daha səmərəli şəkildə müdafiə olunmasını, bunlar isə öz növbəsində konstitusiya islahatlarının həyata keçirilməsini şərtləndirmişdir. Bununla da, 2016-cı il sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilmiş ümumxalq səsverməsi - referendum yolu ilə Əsas Qanuna mühüm əlavələr və dəyişikliklər edilmişdir.

Əminliklə bildirmək olar ki, ölkə Konstitusiyasına edilmiş bu əlavə və dəyişikliklər hüquqi dövlət prinsip və dəyərlərinin bərqərar olmasının, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatına ən yüksək səviyyədə göstərilən diqqətin bariz təzahürüdür.

Məlum olduğu kimi, 1995-ci ildə qəbul olunan Konstitusiyanın "Keçid müddəaları"nın 11-ci bəndində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin yaradılmalı olması nəzərdə tutulmuşdur. Bu müddəaya əsasən ilk dəfə 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 1998-ci il iyulun 14-də Azərbaycan Respublikasında konstitusiya nəzarətini həyata keçirən orqan kimi Konstitusiya Məhkəməsi rəsmi fəaliyyətə başlamışdır.

Ölkəmizdə Konstitusiya Məhkəməsi simasında ali konstitusiya ədalət mühakiməsi orqanının fəaliyyətə başlaması və ümumilikdə konstitusionalizm ideyalarının inkişaf etdirilməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır.

Konstitusiya ədalət mühakiməsi hüququn aliliyinin təmin olunmasının mühüm və səmərəli mexanizmlərindən biri olmaqla, eyni zamanda hüquqi dövlətin ayrılmaz atributlarından biri olaraq qəbul edilir.

Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir. Fəaliyyətə başladığı ilk gündən Azərbaycan Respublikasının Konstitusiyası və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu Konstitusiya Məhkəməsinin fəaliyyəti üçün davamlı normativ fundament yaradaraq, konstitusiya ədalət mühakiməsinin səmərəli şəkildə həyata keçirilməsi üçün etibarlı təməl olmuşlar.

Dövlət başçısı cənab İlham Əliyevin Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına, həmçinin Konstitusiya Məhkəməsinin hakimləri və əməkdaşlarına müraciətində qeyd edilmişdir: "Ötən illər ərzində Konstitusiya Məhkəməsi səmərəli fəaliyyəti ilə və qəbul etdiyi qərarlarla Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsinə, milli qanunvericiliyin, dinamik dəyişən ictimai münasibətlərə uyğun olaraq, Konstitusiyanın müddəaları nəzərə alınmaqla təkmilləşdirilməsinə, cəmiyyətdə hüquq mədəniyyətinin və müxtəlif sahələrdə hüququn tətbiqi təcrübəsinin daha da inkişaf etməsinə dəyərli töhfə vermişdir.

**(ardı var)**

# Erməni siyasi şüurunun “Paşinyan sindromu”

## I MƏQALƏ

***“Məhz ermənilər hər şeyə görə qışqırmağa meyllidirlər”.***

***V.Veliçko***

### Siyasi şüur anlayışı

Siyasi şüur haqqında müxtəlif təriflər mövcuddur. Ümumi halda siyasi şüur subyektin siyasi sferanı dərk etməsini ifadə edir. Subyekt kimi fərdlər, qruplar, millətlər çıxış edə bilərlər. Bunlara uyğun olaraq fərdi, qrupvari və kütləvi siyasi şüur formalarından danışmaq olar.

Kütləvi siyasi şüur cəmiyyətə xas olan ümumi siyasi davranışı, əhval-ruhiyyəni, dəyərləri, siyasi-mental xüsusiyyətləri ifadə edir.

Qrupvari siyasi şüur konkret qrupa aid siyasi şüur özəlliklərinə aiddir.

Fərdi siyasi şüur isə konkret insana aid olan siyasi qavram, baxış və siyasi-mental faktorlarla bağlıdır.

Deməli, siyasi şüurun səviyyələri həm də məzmunda öz əksini tapa bilər. Fərdi şüur bu baxımdan bir sıra xüsusiyyətləri ilə fərqlənir, lakin eyni zamanda kütləvi şüurun tərkib hissəsi kimi ümumi siyasi-mental özəllikləri əks etdirir. Bu fərqliliklə ümumiliyin nisbəti siyasi şüurun bütün funksiyalarında müəyyən nisbətdə ola bilər. Bura siyasi şüurun reallığı dərketmə xüsusiyyəti (koqnitiv aspekt), ünsiyyət aspekti (kommunikativ tərəf), ideoloji aspekt (baş verənlərin kollektiv qiymətləndirilməsi), proqnostik aspekt (aparılan siyasətin perspektivinin qiymətləndirilməsi) və tərbiyəvi aspekt (qarşıya qoyulan məqsədlərə uyğun cəmiyyətdə siyasi davranışlara təsir) daxildir.

Bir nəzəri məqamı da vurğulayaq. Tibbdə və klinik psixologiyada “sindrom” anlayışı mövcuddur. Bu, simptomların vahid patogenezdə (normalardan kənara çıxmalar) birləşməsidir. “Simptom” müəyyən xəstəliyin, patoloji vəziyyətin tez-tez təzahür etməsidir. Yunancada mənası “bədbəxt təsadüf” kimi verilir. Nəhayət, sindrom bir-biri ilə əlaqəli olan simptomlar qrupudur.

Sindrom və simptom haqqında bu ümumi anlayışları siyasi şüur məsələsinə reduksiya etmək praktikası mövcuddurmu? Müxtəlif politoloqların ritorikalarına görə, belə bir praktika vardır. “Siyasi simptom” və “siyasi sindrom” terminləri konkret cəmiyyətlərə siyasi şüurda təzahür edən elə faktorları ifadə edirlər ki, onlar bütövlükdə müsbət qiymətləndirilən və universal qəbul edilən siyasi normalardan kənara çıxırlar. Yəni siyasi simptom və siyasi sindrom yalnız mənfi anlamda işlədilir. Onlar beynəlxalq hüquq standartlarına, siyasi fəaliyyətin etik normalarına, bütövlükdə cəmiyyət və bəşəriyyət üçün müsbət nəticə verməyən durumlar yaranmasına aparıb çıxara bilərlər. Siyasi simptom və sindromlar konkret cəmiyyət üçün standart sayılan, lakin mahiyyətcə mənfi funksiya yerinə yetirən siyasi, psixoloji, diplomatik, sosial, mədəni və digər şərtlərin daha mənfi istiqamətdə dəyişməsini də ifadə edir. Buradan ümumilikdə siyasi şüurun cəmiyyətin etik, mədəni, dəyər, önqaydalar, oriyentasiyalar, stereotiplər və s. amillərlə bağlılığın başlıca politoloji əlamətini müəyyən etmək olar.

### Siyasi şüur və dəyərlər

Bu kontekstdə əsas məqam ondan ibarətdir ki, özlüyündə cəmiyyətin dəyərləri, önqaydaları, mədəni, etik, sosial və s. amilləri birbaşa siyasi şüuru müəyyən etmirlər. Burada həmişə konkret subyektin (fərd, qrup və millət) həmin dəyərlərə, faktorlara, amillərə münasibəti həlledici rol oynayır.

Bu o deməkdir ki, cəmiyyətdə ümumi masştabda siyasi şüurda müəyyən standartlar mövcud olur, lakin hər bir konkret halda fərdi və qrup miqyasında siyasi şüurlarda fərqli məqamlar özünü göstərə bilər. Bu da özlüyündə bəşəri siyasi dəyərlərə uyğun olmayan siyasi şüur mühitinə malik cəmiyyətdə əlavə sindromlar əmələ gətirə bilər. Yəni həmin cəmiyyətin kütləvi siyasi şüuru mahiyyətcə sindrom xarakterli olsa da, yeni səviyyədə sindromlar yaradan dinamika ala bilər. Bu dinamikanın daşıyıcıları isə fərdi və qrupvari siyasi şüur sahibləri, yəni subyektlər ola bilərlər.

Tarixi təcrübə göstərir ki, bu tərifə uyğun olan konkret nümunələr vardır. Həmin prizmada müasir mərhələdə erməni siyasi şüurunun sindromları probleminə politoloji nəzər salaq.

### Erməni siyasi şüurunun “bədbəxt təsadüfləri”

Bir neçə əsrdir ki, Cənubi Qafqaz regionu ilə yanaşı, bütövlükdə dünya da bu əcayib bədbəxtçiliyə şahidlik edir. Təəssüf ki, bu anlamsız mövcudluğu himayə edən və onu hətta əsrdən əsrə yeni dona, məzmuna və məqsədə salan güclü dairələr vardır. Erməni xalqının kütləvi siyasi şüurunu kənar dairələrin xeyrinə manipulyasiya edərək, ondan külli miqdarda maddi, mənəvi, ideoloji, iqtisadi, amillərdən dividend götürənlər hələ də qalırlar. Daha geniş miqyasda bu dividendlər geosiyasi və hərbi dividendlərə çevrilirlər. Yəni artıq erməni siyasi şüurunun patologiyaları üzərində sistemli dividend gətirən proses yaratmışlar. O, indi də davam edir. Bu prosesin bir neçə əlaməti mövcuddur.



Nəzəriyyədən məlumdur ki, siyasi şüura sosial ideyalar təsir edir. Məsələn, həmin keyfiyyətdə azadlıq ideyası, ədalətlilik ideyası, demokratik ideya, vətənpərvərlik ideyası, Tanrıya xidmət ideyası, milli birlik ideyası, milli müstəsnalıq və ya üstünlük ideyası və s. həmin sosial ideyalar kateqoriyasına daxildir.

Bu ideyalardan amerikanlar üçün Amerikanın müstəsnalığı dünyaya məlumdur. Əsrlərdir ki, ABŞ siyasi şüurunda bu məqam dominant yer tutur. Bir neçə Avropa ölkəsində katolisizmin müstəsnalığı hələ də siyasi şüura möhkəm təsir edir. Rus siyasi şüurunda da dini motiv üzərində müstəsnalıq qalmaqdadır.

Bunlardan fərqli olaraq azərbaycanlılarda milli birlik ideyası bəşəriliklə qarşılıqlı əlaqədə siyasi şüurda əsas yeri tutur. Bu zaman azərbaycanlı siyasi şüurunda ədalətlilik və humanitarlıq ciddi rol oynayır. Həmin keyfiyyətlər kompleks halda Azərbaycan cəmiyyətində kütləvi siyasi şüurda barış, sülh və qonşu ilə “yaxşı yola getmək” kimi bəşəri keyfiyyətlər formalaşdırmışdır.

Erməni siyasi şüurunda isə vəziyyət tam fərqlidir. Ermənilərin uzun müddət öz dövlətlərinin olmaması onları kənar təsirlərə daha açıq və aciz etmişdir. Bir neçə əsrdir ki, ermənilərin bu zəif cəhətindən istifadə edərək bir sıra kənar böyük güclər onların şüuruna özünəinamsızlıq və himayədara sığınmaq kimi anormal əlamət formalaşdırmışdır. Xüsusilə, son yüz ildə ermənilərin siyasi şüurunda tamamilə kənar güclərdən asılılıq özünü göstərir. Burada anqlo saks və rus təsiri xüsusi seçilir. Eyni zamanda, İranın spekulyativ addımları erməni siyasi şüurunu reallıqdan uzaqlaşdırmağa xidmət edir.

Digər məqam, erməni siyasi şüurunda “millilik”, “millətləşmək” və “dövlətləşmək” proseslərinə xüsusi qərəzlə yanaşma özünü göstərir. Bunun kökündə isə erməni müstəsnalığı, xalq olaraq başqalarından daha üstün olmaq kimi neqativ psixoloji vəziyyət dayanır. Yəni ermənilər də milli üstünlük kimi xülyanın əsiridirlər. Bunu onlar süni mədəni, tarixi, siyasi, dövlətçi faktorlar əsasında sübut etməyə çalışırlar. Nəticədə heç bir əsas olmadan erməni siyasi şüurunda başqa dəyərlərə, əraziyə, mədəniyyətə, kimliyə iddialar baş qaldırır.

Bu məqamlar bir tərəfdən erməni siyasi şüurunu radikallaşdırır, ona terrorçuluq meylini aşılayır, digər tərəfdən isə silah vasitəsi ilə dövlət qurmağın ucuz formaları axtarışını gücləndirir. Çünki ermənilər təbiətən hərbə zəifdirlər, savaşmaq potensialları aşağıdır və onlar haqsız olduqlarını təhtəlşüurda hiss edirlər. Bu səbəbdən, dəfələrlə fürsətdən istifadə edib, başqalarının mədəniyyətinə, ərazisinə, milli kimliyinə təcavüz etsələr də sonunda məğlub olurlar. Bir sıra müasir erməni tarixçinin etirafına görə, hələ də sözün həqiqi mənasında müstəqil erməni dövləti formalaşmamışdır.

Bu gedişatı ümumi halda erməni siyasi şüurunun “bədbəxt təsadüfləri” və ya sindromları adlandıra bilərik. Lakin son illərin prosesləri göstərir ki, erməni siyasi şüurunun politoloji xarakteristikası bu təsnifdən də kənara çıxmaqdadır. İndi onların siyasi şüurunu iki qrupa ayırmaq olar.

Birincisi, ənənəvi, klassik “bədbəxt təsadüfləri” olan siyasi şüurdur, ikincisi, yeniləşməyə çalışmaq istiqamətində yeni sindromlara yuvarlanan erməni siyasi şüurudur. Onu deyək ki, yeni mərhələ XXI əsrə aiddir – ermənilər sözdə müstəqillik əldə etdikdən sonra siyasi şüurlarında klassik “bədbəxt təsadüflər” əsas yeri tutmaqda idi.

Bu baxımdan L.Ter-Petrosyan, S.Sarkisyan, R.Koçaryan erməni siyasi şüurunun yeni sindromlarını təmsil etmirlər. Çünki onların heç biri bu məsələdə yeni mərhələyə can atmamışlar – əvvəlki erməni müstəsnalığı və “soyqırıma məruz qalan ən qədim xalq” xülyasında qalmışlar. Bunların fonunda Nikol Paşinyan fərqli “bədbəxt təsadüflər”in təmsilçisidir!

Bu xarakteristika N.Paşinyanın indi üzdə olan siyasi qiymətləndirilməsinə uyğun olmaya bilər. Lakin məsələyə bir də vurğuladığımız prizmadan baxsaq, hansı mənzərə (yəni siyasətçinin politoloji obrazı) alınar? Bu suala cavab vermək üçün öncə N.Paşinyana qədər erməni siyasi şüurunda özünü göstərən bir sıra xüsusiyyətlərə baxaq.

### Mental paradoks: erməni müstəsnalığı

Ermənilər uzun müddətdir ki, mifləşdirdikləri siyasi təsəvvürlərin əyaniləşdirilməsi ilə məşğul olurlar. Bunu onlar əsasən bir neçə istiqamətdə edirlər.

Birincisi, xalqın tarixinin digərlərindən fərqli olaraq çox qədimlərə getdiyini aşılayırlar.

İkincisi, müxtəlif ölkələrin ərazilərində qondarma “tarixi faktlar” olduğuna dünyanı inandırmağa çalışırlar. Bunun üçün süni tarixi dəlil və sübutlar təqdim edirlər.

Üçüncüsü, müasir mərhələdə dünyanın tərəqqipərvər, sivil, mədəni və güclü dövlətçilik ənənəsi olan toplumları sırasında olduqlarını təşviq edirlər.

Dördüncüsü, sonuncu cəfəngiyyatı bir qayda olaraq qonşularını pisləmək fonunda etməyə çalışırlar ki, kənar güclərin təsiri ilə müəyyən praktiki divident əldə edə bilsinlər.

Bu əsassız siyasi-psixoloji faktorlar özlüyündə XX əsrin sonlarında erməni dövlətçiliyinin identikliyini eqoist identiklik növünə sürüklədi və bu da özünü qonşulara qarşı hədsiz aqressivliyə, amansızlığa, qəddarlığa və terrora gətirib çıxardı. Keçən əsrin 90-cı illərindən bu yana Ermənistanın dövlət kimi fəaliyyətində aqressiya və ona haqq qazandırmaq cəhdlərindən başqa hansı fərqliliyi vardır? Ermənistanın dövlət kimi identikliyinin müsbət anlamda hansı əlamətləri mövcuddur?

Faktdır ki, rəsmi İrəvan özündən güclülərə iradlar bildirməkdən, qonşularına isə ittihamlardan başqa bir davranışda bulunmamışdır. Özü də bunu II Qarabağ müharibəsinə qədər özünün regionda ən güclü hərbi qüvvəyə malik olduğu təbliğini aparmaqla, azərbaycanlılara qarşı dünyada görünməmiş vəhşiliklər törətməklə paralel etmişlər. Bir tərəfdən, konkret olaraq qonşusuna qarşı olmazın zalımlıq edib, onları öz yurdlarından deportasiya etməklə yanaşı, görünməmiş vəhşiliklərə imza atan erməni siyasi şüuru, digər tərəfdən də özünü dünyanın ən qədim sivil xalqı, dövlətçilik və demokratiya ənənəsi, dini təmizliyi olan qövm olaraq təqdim etməyə çalışmışlar.

Bu, açıq-aşkar mental paradoksun siyasi və ideoloji müstəviyə proyeksiyasıdır. Qəribəsi odur ki, dünyanın bir sıra böyük gücləri həmin paradoksu nəinki görməzlikdən gəlmişdir, hətta ona ciddi dəstək vermişlər. Nəticədə onlar da erməni siyasi şüurunda “bədbəxt təsadüflər”in möhkəmlənməsinə yardımçı olmuşlar. Bununla müasir mərhələdə ermənilər ikiqat sindrom tələsinə düşmüşlər. Nikol Paşinyan siyasi şüur hadisəsi kimi oradan peyda olmuşdur!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# “Böyük manipulyator”

**Mark ENDEVELD**

***(əvvəli qəzetin ötən saylarında)***

Prezident olmağa can atan gənc namizəd elə öz ölçüsündə, öz çəkisində olan başqa bir problemə də çarə tapmalıdır: məsələ burasındadır ki, banklar onun cəmisi doqquz ay əvvəl tələm-tələsik, necə deyərlər, iki daşın arasında yaratdığı "Hərəkətdə!" hərəkatına qəti etibar eləmirlər. Niyə? Ona görə ki, bu qrupun kifayət qədər vəsaiti yoxdur! “Böyük bankların sahibləri Makron üçün heç bir şey eləmədilər. Onlar üçün birinci planda sağçılar partiyasından prezidentliyə namizəd Fransua Fiyyon idi...”, – deyə kampaniyanın keçmiş bir əməkdaşı qeyd edir. Bir şeyi də nəzərdən qaçırmayaq ki, BPCE qrupuna daxil olan Bred bankı əvvəllər bir müddət Rotşild bankında çalışan Fransua Perol tərəfindən idarə olunur. O ki qaldı Crédit Mutuel CIC bankı, o da çox nüfuzlu Rotşild bankında çalışan, özü də Makronun əsas dəstəkçilərdən biri Fransua Henronun müştərilərindən biridir. Əslində, bankdan kredit ala bilməməyin səbəbini Makronun eləmir. Ona görə də aprelin 12-dən başlayaraq, Kristian Darnyat iki başqa bankla kontakta girir ki, prezident seçkilərinin ikinci turunu hazırlamaq üçün yenidən 2 700 000 avro məbləğində kredit götürsün. Xoşbəxtlikdən, bu dəfə birinci turdan qalib çıxan namizədin kampaniyasına bu kreditlər asanlıqla verilir. Nəhayət, Makronun maliyyə komandası bir az rahat nəfəs ala bilir. Onu da qeyd etmək lazımdır ki, 2017-ci ilin yanvarındakı proqnozların əksinə olaraq, namizədin üstünə yanvar ayı ilə mart ayı arasında xeyli ianə yağışı yağır! Belə ki, seçki kampaniyası cəmisi üç ay ərzində 5 000 000 avro əldə edir – halbuki 2016-ci ildə eyni məbləği toplamaq üçün düz doqquz ay lazım olmuşdu. Bu gözlənilməz ianələr vaxt itirmədən kampaniyanın kassalarına daxil olur. Təbii ki, belə bir məqamda bankdan alınacaq kreditlərə heç fikir verən də yoxdur. Bu, sözün əsl mənasında, möcüzədir!.. Ancaq Kristian Darnyat, Sedrik O. və Emmanuel Miqelin üstlərinə götürdükləri öhdəliklər hələ bitməyib. Onlar ekspertlərin köməyi ilə kampaniyaya keçirilən məbləğləri Kampaniyaların Hesabat




kampaniyasındakı bəzi adamların diqqətsizliyi və onların işə ciddi yanaşmamaları ilə izah etmək olar. Hiss olunur ki, onlar banklarla danışıqlar aparmağı əvvəlcədən planlaşdırmamışdılar. Hamı elə bilirdi ki, bu iş çox asan başa gələcək. Başqa cür necə ola bilərdi ki? Onların qəhrəmanı hər gün həm Fransız mətbuatı tərəfindən, həm də beynəlxalq mətbuat tərəfindən təriflənib göylərə qaldırılırdı. Ancaq onu da nəzərdən qaçırmaq lazım deyil ki, Kristian Darnyat Crédit Mutuel bankına çox tez müraciət eləmişdi: 2016-cı ilin noyabrında – hələ Makron prezident seçkilərinə namizədliyini rəsmi elan etməmişdən əvvəl!.. Amma çox keçmədi ki, bir sıra praktiki suallar ortaya çıxdı. Kredit üçün müraciət olunan banklar tələb etdilər ki, Makron krediti şəxsən öz adına götürsün. Bundan başqa, sözügedən kreditlər üzrə sığorta məsələsi də ortaya qoyuldu...

### Sanballı adamların sığorta müqavilələrinə dəstəkləri

Elə bu vaxt bir sıra sanballı adamların dəstəyi sayəsində Makronun komandası düşdüyü çətin vəziyyətdən çıxış yolu tapır. Makronlar ailəsinin yaxın dostu, advokat Jan-Mişel Darruas gələcək müqavilələr üçün onlara hüquqi nöqteyi-nəzərdən tayı-bərabəri olmayan məsləhətlər verir. Başqa bir yardım da komanda üçün həlledici rol oynayır: Siaci Saint Onore sığorta broker şirkətinin sədri Pier Donnersberqin sayəsində Emmanuel Makron “Allianz” sığorta şirkəti ilə 200 000 avro məbləğində şəxsi kontrakt bağlamağa müvəffəq olur. 1947-ci ildə Əlcəzairin Oran şəhərində anadan olan Donnersberq bir müddət jurnalist kimi fəaliyyət göstərəndən sonra Edmond dö Rotşild qrupunun dəstəyi ilə sığorta brokerinə çevrilib və bu sahədə xeyli var-dövlət əldə edib. Bu adam 2016-2017-ci illərdə Fransanın Baş naziri olan Bernard Qazanövün yanında dövlət katibi olan Jan-Mari Lö Qüen ilə dostluq edir. Bu sonuncu da, əvvəl Sosialist Partiyasında (PS) Manuel Vallsın prezidentliyə namizədliyini dəstəkləsə də, sonradan Makron tərəfə keçib. Bu strateji qrup 2015-ci ildən özəl kapitalda dünya liderlərindən biridir və Avropada, Şimali Amerikada və Asiyada 82 milyard dollar dövriyyəsi olan Ardian şirkətinə daxildir. Maliyyə sahəsində ağır çəkili qruplardan biri olan Ardian şirkəti, “Forbes” biznes jurnalı tərəfindən dünyanın ən nüfuzlu qadınlarından biri kimi təqdim edilən Dominik Seneqiye tərəfindən idarə olunur. Bu qadının çox geniş, qollu-budaqlı şəbəkəsi var. O, bir vaxtlar EDF (Fransanın Elektriki) şirkətinin prezidenti, eləcə də Milli Polisin baş direktoru Pier Joksun kabinet direktoru olmuş Fransua Russeli ilə də yaxındır. 2007-ci ildə Dominik Seneqiye, tərkibində olduğu Att ali komissiyasının iclaslarının birində Emmanuel Makronla tanış olub. Söhbət əsnasında məlum olub ki, onların ümumi tanışları çoxdur. Məsələn, keçmiş diplomat, 2017-ci ilin fevralında Makronun Əlcəzairə səfərinin təşkilində mühüm rol oynayan Fransua-Ayssa Tuazi. O da Ardian qrupunun yüksək səviyyəli rəhbərlərindən biridir, üstəlik, Yaxın Şərq və Asiya zonalarını idarə edir. Bundan başqa, Makrona qoşulmazdan əvvəl Emmanuel Miqel də əvvəllər Ardian şirkətində menecer kimi fəaliyyət göstərib. Necə deyərlər, dardır cahan, hamı hamını tanıyır.

Bu çoxsaylı yardımlar sayəsində namizəd Makron, nəhayət, aprel ayının əvvəlində Bred bankından 4 000 000 avro məbləğində kredit götürür. Sonra bir o qədər də (4 000 000 avro) Crédit Mutuel bankından kredit alır. Ancaq bu 8 000 000 avro kifayət Komissiyasına təqdim etməlidirlər ki, dövlətdən qismən kompensasiya ala bilsinlər. Bəzi müəmmalı görünən ianələrə baxmayaraq, (bu gün həmin o müəmmalı görünən ianələr haqqında dövlət prokurorluğu hələ də əlavə araşdırmalar aparır) Makronun maliyyə komandasının hazırladığı hesabat, qəribə görünsə də, Kampaniyaların Hesabat Komissiyası tərəfindən təsdiqlənir.

Bəs, görəsən, Emmanuel Makron prezident seçiləndən sonra kampaniyanın daxilində ona bu qədər sadiq olan, ona bu qədər kömək göstərən adamlar necə mükafatlandırılacaqlar? Kampaniya xərclərinə cavabdeh olan Sedrik O. və maliyyə qrupunda strateji mövqe tutan olan Emmanuel Miqel Yelisey sarayında biznes və ixrac üzrə müşavir təyin olunacaqlar. Onların bəxti gətirir, çünki Makron prezident seçiləndən sonra onlarla çiyin-çiyinə çalışan Kristian Darnyatı yaddan çıxarır. (?) Ancaq sonradan bu adam LREM (Respublika Hərəkətdə) partiyasının (keçmiş "Hərəkətdə!" hərəkatı) icra komitəsinə sadəcə üzv kimi qəbul olunur. Baxmayaraq ki, BNP Paribas bankının bu yüksək səviyyəli professional kadrı, namizəd Makrondan ötəri hər şeydən imtina edib onun kampaniyasına qoşulmuşdu ki, bu cavan oğlanı prezident eləsin, amma Makron dövlət başçısı seçiləndən sonra ona heç bir vəzifə təklif etmədi. Makronu namizəd olanda dəstəkləyən adamların heç biri prezidentin bu alçaq hərəkətini başa düşə bilmirlər. Darnyat, doğrudan da, onun üçün çox şey eləmişdi. İndi o, Siyasi Elmlər İnstitutda “geoiqtisadiyyat” müəllimidir. Makronun prezident kampaniyasında işləyənlər içərisində onun istifadə edib, sonra da cındır bir əski kimi kənara atdığı tək adam Kristian Darnyat deyil. Ondan başqa da prezident tərəfi ndən “unudulan” xeyli adamlar var. Prezident Makron hamıya eyni mesajı atır: məni sevən arxamca addımlamalıdır. Daha doğrusu, ya arxamca addımla, ya da gəbər..

### Ya arxamca addımla, ya da gəbər

Başqa cür necə ola bilərdi ki? Makron özü də etiraf etdi ki, o, prezidentliyi “oğurladı”. 2016-cı ilin noyabrında prezidentliyə namizədliyini elan edəndə, əhali arasındakı rəsmi sorğulardan məlum olmuşdu ki, bu adam, ən yaxşı halda, yalnız 9 faiz səs toplaya biləcək... Buna baxmayaraq, bu adam dövlət başçısı seçildi – nəyin və kimin hesabına? Etiraf etmək lazımdır ki, Makron sağçılar partiyasının, eləcə də solçular partiyasının xeyli görkəmli şəxsiyyətlərini özünə tərəf çəkə bildi. Etiraf etmək lazımdır ki, Makron metodik şəkildə siyasi düşmənlərinin çevrələrindən və şəbəkələrindən istifadə edə bildi. Etiraf etmək lazımdır ki, Sosialist Partiyasından prezidentliyə namizədin bütün klanlarını, bütün şəbəkələrini ustalıqla ələ keçirib onu məhv elədi. Makron bu əməllərində çoxuna yaxşı təsir bağışlayan, çoxuna xoş gələn orijinal bir strategiyadan da istifadə etdi – prezident Fransua Hollanda olan nifrətindən! Düz beş il – Fransua Holland hakimiyyətə gəldiyi gündən hakimiyyətdən gedənə qədər – Makron ona kin-küdurət bəslədi və seçkilər zamanı, o, prezidentə olan nifrətini və kin-küdurətini oyuna qoyub onun müqabilində xeyli səs qazandı.

2016-cı ilin iyun ayında "Hərəkətdə!" hərəkatının yaranmasından bir neçə həftə sonra Emmanuel Makron Fransua Hollandın rəsmi məsləhət çilərindən biri olan Jülien Draya müraciətlə demişdi ki: “Fransua prezidentliyə ikinci dəfə namizəd olmayacaq, sən vaxtını boş yerə sərf edirsən...”.

**(ardı var)**

# Azərbaycanda dövlət nəqliyyat siyasətinin növbəti hədəfləri

**(əvvəli 1-ci səhifədə)**

Sənəddə mobillik sahəsində müşahidə olunan qlobal trendlər hərtərəfli araşdırılıb, onların Bakı şəhərində və ətraf ərazilərdə mövcud vəziyyətinə təsiri simulyasiya üsulu ilə təhlil edilib. Proqramda uzunmüddətli dövr üçün strateji baxış və hədəf göstəriciləri, müvafiq tədbirlər, onların həyata keçirilməsi üzrə icra müddətləri, əsas və digər icraçılar müəyyənləşdirilib, eləcə də icra mexanizmləri təsbit olunub.

davamlı nəqliyyat həllərinin tətbiqi nəqliyyat sistemində yeni çağırışlar yaradıb, bununla belə, fərdi nəqliyyat vasitələrindən ictimai nəqliyyata və fərdi mobil nəqliyyat vasitələrinə keçid infrastrukturun inkişafını zəruri edib. İnfrastrukturun təkmilləşdirilməsi məqsədilə 100 kilometrdən çox velosiped zolaqlarının inşası, sərnişinlərin ictimai nəqliyyat və digər nəqliyyat vasitələrindən istifadə təcrübəsinin tam rəqəmsallaşdırılması nəzərdə tutulub.

liyyat axınlarının idarə edilməsi, şəhərətrafı ərazilərdə yerləşən yaşayış məntəqələri arasındakı yola sərfolunan vaxtın mümkün səviyyədə qısaldılması, nəqliyyat qovşaqlarının yaradılması məsələlərinin həll edilməsi hədəfləri Dövlət Proqramında nəzərə alınıb. Baş Planda vahid (ictimai nəqliyyat xidmətləri, fərdi minik avtomobilləri və piyada gəzintisi imkanları) mobillik yanaşmasının tətbiqi prinsiplərinə də mühüm önəm verilib.



Dövlət Proqramının icrası qarşıdakı dövrdə Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsini, şəhərdaxili sıxlığın azaldılmasını və geniş nəqliyyat şəbəkəsinin qurulmasını gerçəkləşdirməklə yanaşı, ictimai nəqliyyatdan istifadənin səmərəliliyini artıracaq, özəl sektorun innovativ həllərlə proseslərə töhfə verməsini təşviq edəcək və iqtisadi rifahın artmasına şərait yaradacaq.

Ümumiyyətlə, paytaxtda, o cümlədən ətraf yaşayış sahələrində sürətli urbanizasiya və əhali artımı nəqliyyat və mobillik sahəsində islahatları zəruri edir. Mövcud vəziyyətdə şəhərin nəqliyyat sisteminin səmərəliliyini artırmaq və urbanizasiya nəticəsində yaranan çətinliklərin qarşısını almaq üçün strateji tədbirlərə ehtiyac var. Bakı şəhərinin və ətraf ərazilərin əsas nəqliyyat infrastrukturu, hərəkət axınları və iqtisadi fəaliyyət mərkəzdə cəmləşdiyindən şəhərdən kənar istiqamətə doğru hərəkətlər məhdudlaşır ki, bu da paytaxtın monosentrikliyini ön plana çıxarır.

Xatırladaq ki, son 20 ildə ölkə üzrə əhalinin orta illik artım tempi 1 faiz təşkil etdiyi halda, Bakı şəhərində və ətraf ərazilərdə bu göstərici 1,3 faiz olub. Həmin dövr üzrə paytaxtda hər 1000 nəfərə düşən avtomobillərin sayı 132-dən 320-dək artıb. Əhali sayının sürətli artımı isə şəhərin infrastrukturuna və xidmət sahələrinə, xüsusilə nəqliyyat sektoruna əlavə təzyiq göstərib.

İctimai nəqliyyatın genişləndirilməsi, tıxacların azaldılması və ekoloji cəhətdən

"Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nda bildirilir ki, ölkədə nəqliyyat infrastrukturuna investisiya qoyulmasına və müxtəlif nəqliyyat növləri üzrə ayrı-ayrı layihələrin icra olunmasına baxmayaraq, nəqliyyat növlərinin koordinasiyalı fəaliyyəti ilə bağlı çatışmazlıqlar hələ də aradan qaldırılmayıb. Bu problemi həll etmək, koordinasiyalı fəaliyyəti reallaşdırmaq məqsədilə Azərbaycan Prezidentinin 2023-cü il 19 aprel tarixli sərəncamı ilə Nəqliyyatı Əlaqələndirmə Şurası və 2024-cü il 7 noyabr tarixli fərmanı ilə "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi" (AZCON) publik hüquq şəxsi yaradılıb.

Dövlət Proqramı hazırlanarkən küçə-yol şəbəkəsinin, metro və dəmir yolu xətlərinin, fərdi mobil nəqliyyat vasitələri infrastrukturunun və piyada zonalarının inkişafı ilə bağlı irəli sürülən layihələrin Bakı şəhərinin Baş Planı ilə uzlaşdırılması təmin olunub və şəhərin perspektiv inkişaf dövrünü əhatə edən nəqliyyat planlaşdırma həlləri nəzərə alınıb.

Bakı şəhərinin 2040-cı ilədək nəzərdə tutulan Baş Planında nəqliyyat sisteminin inkişaf konsepsiyasına uyğun olaraq, Böyük Bakı Regionunun nəqliyyat infrastrukturunun inkişafı üzrə vahid konsepsiyanın hazırlanması, şəhərin əsas yollarındakı nəqliyyat yüklənməsinin aradan qaldırılması, şəhərətrafı ərazilərdən nəq-

Ölkədə son illər ərzində yol-nəqliyyat infrastrukturu sahəsində əhəmiyyətli islahatlar həyata keçirilib. Şəhər ərazisindəki yol şəbəkəsinin təkmilləşdirilməsi, yeni yol kəsişmələrinin və körpülərin tikilməsi, həmçinin tıxacların azaldılması məqsədilə müxtəlif layihələr reallaşdırılıb. Bakıdakı əsas magistrallarda təmir və bərpa işləri, habelə yol infrastrukturunun müasirləşdirilməsi yollarda nəqliyyat vasitələrinin artan sayına paralel olaraq aparılıb.

Son 20 ildə Azərbaycan Respublikasında yol infrastrukturunun inkişafı sahəsində əsas nailiyyətlərdən biri, ümumilikdə, 20,8 min kilometr uzunluğunda (o cümlədən 6,6 min kilometr respublika əhəmiyyətli, 11,6 min kilometr yerli əhəmiyyətli və 2,6 min kilometr isə Bakı şəhərində) yeni yolların tikilməsi, yenidən qurulması və təmir olunmasıdır. Bundan əlavə, ümumi istifadədə və Bakı şəhərində olan avtomobil yollarında, ümumilikdə, 335 ədəd körpü və yol ötürücüsü inşa olunub, 56 ədədi təmir edilib, 163 ədəd yeraltı və yerüstü piyada keçidi və 45 ədəd tunel tikilib.

Bakı şəhərində və ətraf ərazilərdə mobilliyin artırılması və nəqliyyat axınının daha səmərəli idarə olunması məqsədilə 4 parklanma zonası üzrə 18 min parklanma yeri yaradılıb. Görülmüş işlər nəqliyyat vasitələrinin nizamlı şəkildə parklanmasını reallaşdırmaqla, yollarda nəqliyyat sıxlığının azalmasına, eyni zamanda, piyadalar üçün daha təhlükəsiz və rahat mühitin formalaşmasına xidmət edib.




# BMT-nin ölkəmizlə dayanıqlı inkişaf üzrə əməkdaşlığı

*50-dən çox sənəd beynəlxalq hədəflərə uyğunlaşdırılıb*

**Dünən Bakıda BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (2026-2030-cu illər) üzrə "Yüksək Səviyyəli Strateji Prioritetləşdirmə" mövzusunda seminar keçirilib. Toplantıda ölkəmizin dayanıqlı inkişaf üzrə qarşıdakı 5 ilin prioritetləri təqdim olunub, BMT və Azərbaycan arasında dayanıqlı inkişaf məsələləri üzrə əməkdaşlıq (2026-2030) haqqında Çərçivə sənədinin yekun qiymətləndirilməsi üzrə əsas nəticələr və tövsiyələr müzakirə edilib.**

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli çıxışında bildirib ki, son illərdə Azərbaycan BMT ilə birlikdə 142 milyon ABŞ dolları həcmində layihələr icra edib. Azərbaycanın dayanıqlı inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən etdiyini xatırladan nazir müavini deyib ki, ölkəmiz BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) qəbul edərək onları dövlət strategiyalarına inteqrasiya edib. Qeyd olunub ki, ötən müddətdə 50-dən çox dövlət proqramı və strategiya DİM-lərlə uyğunlaşdırılıb, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Bu yaxınlarda icrası başa çatan 2021-2025-ci illər üçün Çərçivə Sənədinin inklüziv artım, güclü institutlar, ətraf mühitin qorunması və gender bərabərliyi kimi 4 əsas prioriteti əhatə etdiyini xatırladan S.Bəşirli bildirib ki, Azəbaycan BMT ilə Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair yeni sənəddə 5 əsas istiqaməti təklif edib: "COP29 zamanı elan edilən iqlim təşəbbüslərinin həyata keçirilməsi, işğaldan azad olunmuş ərazilərin reinteqrasiyası üçün dayanıqlı inkişaf layihələri, 18-ci DİM-in sənədə daxil edilməsi və mina təhlükəsizliyinin gücləndirilməsi, iqtisadi diversifikasiya, ixracın artırılması və innovasiya təşəbbüslərinin genişləndirilməsi və dördüncü sənaye inqilabı və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlığın gücləndirilməsini təklif edirik".

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev çıxış edərək bildirib ki, Azərbaycan qarşıdakı illər üçün müəyyənləşdiriləcək hədəflərin uğurla həyata keçirilməsində tərəfdaşlarla əməkdaşlığı dərinləşdirməyə və hərtərəfli dəstək göstərməyə hazırdır. O, yeni çərçivə sənədinin həm mövcud reallıqları, həm son 5 il ərzində Azərbaycanın əldə etdiyi inkişaf göstəricilərini, onun hazırkı beynəlxalq mövqeyini, həm də dövlətin və hökumətin gözləntilərini əhatə edəcək şəkildə hazırlanacağına ümidvar olduğunu bildirib. Nazir müavini BMT-nin Azərbaycanda "yaşıl iqtisadiyyat"ın genişləndirilməsi və sosial inklüzivliyin təmin edilməsi istiqamətində konkret nəticələrə nail olmağı hədəflədiyini bildirib.

BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Vladanka Andreyeva çıxış edərək bildirib ki, Azərbaycan humanitar və inkişaf yardımını, o cümlədən BMT-nin İnkişaf Proqramı vasitəsilə digər ölkələrə göstərdiyi dəstəyi getdikcə artırır. O, Azərbaycanın çoxtərəfli əməkdaşlığa güclü sadiqliyini vurğulayaraq deyib: "Son illər ərzində biz Azərbaycanın təkcə milli deyil, həm də regional və qlobal səviyyədə liderlik rolunu gücləndirdiyinin şahidi olmuşuq. Ölkə COP29 konfransının sədri kimi iqlim böhranının həlli də daxil olmaqla, bir sıra çoxtərəfli məsələlərdə mühüm təşəbbüslər irəli sürür".

Azərbaycan və BMT arasındakı tərəfdaşlığın son üç onillikdə inkişaf etdiyini və gələcəkdə də dəyişməyə davam edəcəyini vurğulayan BMT rəsmisinin sözlərinə görə, hazırda bu əməkdaşlıq zəif tərəflərin azaldılması və dayanıqlılığın artırılması, daha güclü institutların qurulması, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə, qadınların səlahiyyətlərinin artırılması ilə inklüziv inkişafın təşviqi kimi dörd əsas istiqamətə fokuslanır.

Seminar çərçivəsində 2030-cu ilə doğru: Növbəti 5 il üçün Azərbaycanın Dayanıqlı İnkişaf Prioritetləri, COP29 Prezidentliyi tərəfindən irəli sürülmüş təşəbbüslərə və BMT-nin Ümumi Ölkə Təhlilindən irəli gələn əsas çağırışlara dair təqdimatlar edilib.

Seminar öz işini qrup təqdimatlar və plenar müzakirələrlə davam etdirib.

# Tranzit yüklərin Zirə limanından dəmir yolu ilə daşınmasına başlandı



**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (ADY) ilk dəfə Zirə Limanından dəmir yolu ilə tranzit yüklərin daşınmasına başlayıb.**

Səhmdar Cəmiyyətindən XQ-yə verilən məlumata görə, 2023–2024-cü illərdə dəmir yollarında həyata keçirilən infrastruktur quruculuğu çərçivəsində 21 kilometrlik Dübəndi–Zirə–Gürgən–Zirə Dəniz Limanı dəmiryol xətti yenidən qurulub. Bununla yanaşı, Gürgən və Zirə limanı arasında 9 kilometr uzunluğunda yeni dəmiryol xətti çəkilib. Bu da limandan ilk dəfə olaraq dəmir yolu ilə tranzit yüklərin daşınmasına imkan yaradıb.

"İlkin mərhələdə 13 min tona yaxın yükün daşınmasına başlanılıb. Mərkəzi Asiyadan göndərilmiş kükürd yükü qatarla Avropa istiqamətinə yola salınacaq. Ümumilikdə, Zirə limanından dəmir yolu ilə ay ərzində 60 min ton yük daşınması planlaşdırılır. Növbəti mərhələdə yüklərin çeşidinin artırılması, o cümlədən karbamid yükünün daşınması nəzərdə tutulur", – deyə məlumatda bildirilib.

Qeyd edək ki, Zirə limanından dəmir yolu ilə tranzit yüklərin daşınması sayəsində Orta Dəhlizlə yük axınlarının daha sürətli təşkili və əməliyyatların səmərəliliyi təmin olunacaq. "Azərbaycan Dəmir Yolları" QSC tranzit daşımaları effektiv təşkil etməklə yanaşı, ölkə ərazisindən keçən dəhlizlərin inkişafı, rəqabətliliyinin və cəlbediciliyinin artırılması istiqamətində fəal iş aparır. Şərqdən Qərbə və əks istiqamətdə yüklərin daşındığı Orta Dəhliz Azərbaycan üçün strateji əhəmiyyət daşıyan marşrutdur. Ölkəmiz bu dəhlizin şaxələndirilməsi və alternativ qollarının formalaşdırılması üzrə əsas təşəbbüskar tərəfdir.

# Cənubi Qafqazın ilk alüminium içki qabları zavodu

**Azərbaycan İnvestisiya Şirkəti Macarıstanın "HELL Energy" şirkəti ilə birlikdə həyata keçirilən "Quality Pack Caspian" layihəsi üzərində işləyir. Bu, Cənubi Qafqazda alüminium içki qutuları istehsal edən ilk müəssisə olacaq.**



İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, Ələt Azad İqtisadi Zonasının ərazisində inşa ediləcək zavodda il ərzində 700 milyon ədəd alüminium qutu istehsal olunacaq. Yeni müəssisə yerli bazarın tələbatını tam ödəməklə yanaşı, ölkəmizin ixrac potensialının artırılmasına da imkan yaradacaq.

# Cənub Qaz Dəhlizi Məşvərət Şurası 11-ci iclasa hazırlaşır

**Bakıda keçiriləcək ənənəvi Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci toplantısı və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasının vaxtı müəyyənləşib. Etibarlı mənbədən verilən məlumata görə, sözügedən görüşlər bu il aprelin 4-də keçiriləcək.**



Xatırladaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 10-cu Nazirlər Toplantısı və Yaşıl Enerji Məşvərət Şurasının 2-ci Nazirlər Toplantısı 2024-cü il martın 1-də Bakıda keçirilib. Məşvərət Şurası çərçivəsində nazirlərin görüşləri 2015-ci ildən etibarən hər il fevralda keçirilsə də, ötən il ilk dəfə bu görüş mart ayında baş tutdu.

Avropa İttifaqının rəsmi nümayəndəsinin məlumatına görə, Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Dan Yorgensen 2025-ci il aprelin 4-də keçirilməsi planlaşdırılan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci iclasında və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasında iştirak edəcək. Bu məqsədlə o, apreldə Azərbaycana səfər etməyi planlaşdırır.

Yeri gəlmişkən, Cənub Qaz Dəhlizi layihəsinə "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhləsi, Bakı – Gürcüstan – Türkiyə sərhədi boyunca uzanan Cənubi Qafqaz boru kəməri magistralının genişləndirilməsi, Türkiyənin şərq sərhədindən qərb sərhədinə qədər məsafə qət edən Trans-Anadolu Qaz Kəmərinin, eləcə də Yunanıstan, Albaniya və İtaliyanın cənubunu birləşdirən Trans-Adriatik Qaz Kəmərinin tikintisi daxildir. Layihənin ümumi dəyəri 33 milyard ABŞ dolları təşkil edir.

Qeyd edək ki, Azərbaycan qazının Avropaya ixracına 2020-ci il dekabrın 31-də başlanılıb. 2021-ci ildə Avropaya ixrac 8,1 milyard kubmetr, 2022-ci ildə 11,4 milyard kubmetr, 2023-cü ildə, təxminən, 12 milyard kubmetr, 2024-cü ildə isə 12,9 milyard kubmetr təşkil edib. Hazırda Azərbaycan qazı "köhnə qitə"nin 12 ölkəsinə ixrac olunur.



# İnvestisiya Şirkətinin "yaşıl" layihələri

*Enerji quruculuğuna 44,8 milyon manat vəsait yatırılıb*

**Azərbaycan İnvestisiya Şirkəti işğaldan azad edilmiş ərazilərdə "yaşıl" enerji layihələrin həyata keçirilməsinə fəal dəstək verir. İqtisadiyyat Nazirliyinin bu barədə məlumatına görə, qurum Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən 4 layihənin inkişaf etdirilməsinə və yaşayış sahələrinin dirçəldilməsinə 44,8 milyon manat investisiya yatırır.**

Bildirilib ki, AİŞ Türkiyənin "Demirören Holding"i ilə birgə reallaşdırdığı 5 kiçik su elektrik stansiyasının (SES) bərpası layihəsinə də xüsusi diqqət yetirir. Bu layihə SES-lərin regionu bərpa olunan enerji ilə təmin edərək ənənəvi enerji təchizatı mənbələrindən asılılığı azaltması ilə şirkətin davamlı inkişafa sadiqliyini əks etdirir.

AİŞ-in, bundan əlavə, Cəbrayıl rayonunda 240 MVt gücündə "Şəfəq" günəş elektrik stansiyasının tikintisi layihəsində iştirakı enerji infrastrukturunun inkişafı məqsədilə atılan mühüm addımdır. "SOCAR- Green" və BP şirkətləri ilə birgə həyata keçirilən layihə işğaldan azad edilmiş ərazilərdə ən böyük "yaşıl" enerji layihələrindən biri olacaq.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***



# Heydər Əliyevin ekoloji strategiyası

**Naxçıvandakı Heydər Əliyev Muzeyi müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin sağlığında onun həyat və fəaliyyəti ilə bağlı ölkəmizdə yaradılan ilk muzeydir. Ulu öndər 1999-cu il fevralında fəaliyyətə başlayan bu mədəniyyət ocağı ilə həmin il oktyabrın 13-də muxtar respublikaya səfəri zamanı tanış olmuşdu.**

Görkəmli dövlət xadiminin həyat və fəaliyyətinin müxtəlif dövrlərini özündə əks etdirən muzeydə ulu öndərin muzeyi ziyarəti zamanı çəkilmiş tarixi fotolar da bu gün fəxrlə ekspozisiyada nümayiş etdirilir. Bu yaxınlarda muzeydə "Heydər Əliyev və Azərbaycanın yeni enerji strategiyası" bölməsi də yaradılıb.

Heydər Əliyev Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev bildirdi ki, yeni bölmənin açılışı ölkəmizdə "yaşıl" texnologiyalara geniş meydan açıldığı bir dövrdə ekoloji önəm daşıyan hadisədir. Belə bir bölmənin açılmasının digər əhəmiyyəti ondan ibarətdir ki, müstəqil dövlətimizin qurucusunun fəaliyyətində Azərbaycanın yeni enerji strategiyasının yaradılması mühüm yer tuturdu. Dahi şəxsiyyətin bu siyasətin müəllifi kimi gördüyü işlər misilsizdir və Azərbaycanın bugünkü inkişafının təməlini təşkil edir.

Ən yeni tariximizi əhatə edən bu fəaliyyət haqqında muzey ziyarətçilərini məlumatlandırmaq, düşünürəm ki, ən əhəmiyyətli addımlardan biridir. Bundan əlavə, nəzərə alaq ki, Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi həm də mühüm tədqiqat mərkəzidir. Burada ümummilli liderin həyatı və ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərinə dair nümayiş olunan materiallar, tarixi sənədlər, nadir fotolar, ulu öndərə məxsus şəxsi əşyalar tədqiqatçılar, elm və təhsil müəssisələrinin kollektivləri tərəfindən hər zaman böyük maraqla qarşılanır.

"Heydər Əliyev və Azərbaycanın yeni enerji strategiyası" bölməsində sərgilənən materiallar da artıq ziyarətçilərin böyük marağına səbəb olub. **Ramil Orucəliyev bu barədə açıqlamasında dedi:**

– Muzeyin yeni bölməsində ulu öndər Heydər Əliyevin yeni neft strategiyasının icrasını, dahi şəxsiyyətin neft-qaz sənayemizin inkişafına, neftçilərə yüksək diqqətini əks etdirən nadir fotolar yer alıb. Məsələn, bölmədəki stenddə birinci fotoşəkil 1971-ci il martın 28-də Azərbaycanda milyardıncı ton neftin çıxarılmasına həsr olunub. Həmin il aprelin 2-də Moskvada Kommunist Partiyasının XXIV qurultayında çıxış edərkən ümummilli lider Heydər Əliyev respublika neftçilərinin bu nailiyyəti barədə xəbəri dünyaya çatdırır. 1971-ci il aprelin 21-də isə neftçilərin əmək qəhrəmanlığının bir daha yüksək səviyyədə qeyd olunması üçün Bakıda respublika ictimaiyyəti nümayəndələrinin təntənəli yığıncağı keçirilir.

Digər fotoşəkillərdə isə 1980-ci ildə Ulu öndər Heydər Əliyevin Sosialist Əməyi Qəhrəmanı, qazma ustası İsrafil Hüseynovla görüşü, 1981-ci ildə Bakı Neft Emalı Zavodunda ELOU-AVT qurğusuna baxışı, 1984-cü ildə Bakı Dərin Özüllər Zavodunda STB-1 barjasının istismara verilməsi mərasimində çəkilən fotoşəkilləri əks olunub.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması, 1996-cı ilin 24-27 aprel tarixlərində ulu öndərin Norveçin Stavanger şəhərindən 240 kilometr məsafədə - Şimal dənizində yerləşən neft platformasında çəkilən fotoşəkillər, 1997-ci ildə Vaşinqtonda neft sazişlərinin imzalanması mərasimində, həmin il noyabrın 12-də "Çıraq-1" platformasında ilk neftin hasil olunması, 1999-cu ildə "Bakı-Supsa" neft kəmərinin açılış mərasimində çəkilən fotoşəkillər nümayiş etdirilir. Bunlarla bərabər, 2002-ci il sentyabrın 18-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməlqoyma mərasimi zamanı çəkilmiş fotoşəkillər də stenddə əks olunub.

Yeri gəlmişkən, muzeydə 7 ölkənin 11 ən məşhur neft şirkəti ilə imzalanmış və təxminən, 400 səhifə həcmində və 4 dildə tərtib olunmuş "Əsrin müqaviləsi"nin surəti də nümayiş etdirilir. Bölmədə yer alan maraqlı eksponatlar sırasında ümummilli liderin adını daşıyan 6-cı nəsil yarımdalma qazma qurğusunun, "Prezident Heydər Əliyev" tankerinin maketləri də var ki, bunlar da muzeyi ziyarət edən tamaşaçılar tərəfindən maraqla qarşılanır.

Ramil Orucəliyev sonda qeyd etdi ki, 420 eksponatla fəaliyyətə başlayan muzeydə dahi rəhbərin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından ibarət, ümumilikdə, 5466 eksponat toplanıb. Yeni bölmənin yaradılması isə muzey fondunun daha da zənginləşdirilməsinə önəmli töhfədir.

Heydər Əliyev Muzeyi bu gün Naxçıvana gələn qonaqların ilk üz tutduğu məkanlardan biridir, eyni zamanda muxtar respublikada ən çox ziyarət edilən muzeylərdəndir. Təsadüfi deyil ki, təkcə ötən il muzey 20 mindən çox insan tərəfindən ziyarət olunub. 25 ildir fəaliyyət göstərən muzey Heydər Əliyev irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı uğurla həyata keçirir.

# "Gənclər həftəsi" davam edir

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin 2 Fevral Gənclər Günü ilə bağlı təşkil etdiyi gənclik həftəsi rəngarəng tədbirlərlə davam edir.**



Həftə çərçivəsində film nümayişi, intellekt və idman yarışları təşkil olunur. "Hər şey səninlə başlar" mövzusundakı təqdimat gənclərdə özgüvən formalaşdırılması, motivasiya və nizam-intizamlı həyat tərzinə sövq məqsədinə xidmət edib. Dünən keçirilən mükafatlandırma mərasimində isə nazirlik müxtəlif sahələrdə fərqlənən gəncləri təltif edib.

Gənclər və idman nazirinin müavini, nazir səlahiyyətlərini icra edən Məcid Seyidov ümummilli lider Heydər Əliyev tərəfindən təsis edilmiş Gənclər Gününün önəmindən bəhs edib, dahi rəhbərin Azərbaycan gəncliyinə verdiyi mühüm töhfələrdən danışıb. Prezident İlham Əliyevin liderliyində uğurla davam etdirilən dövlət gənclər siyasətinin nəticəsi kimi qazanılmış uğurlardan, gənc nəsil nümayəndələrinə göstərilən qayğıdan, gələcək perspektivlər barədə danışan Məcid Seyidov əlavə edib ki, Naxçıvan gəncləri də bu siyasətdən faydalanır və dövlət dəstəyi ilə yeni-yeni uğurlar əldə edirlər.

Nazir müavini ötən il gənclərlə iş sahəsində görülən işlər və qazanılan uğurlardan da bəhs edib. Qeyd olunub ki, nazirlik tərəfindən muxtariyyətin 100-cü ildönümü, COP29, "Yaşıl dünya naminə həmrəylik ili", gənclərin şəxsi və intellektual inkişafı, yaradıcılıq potensialının yüksəldilməsi, vətənpərvərlik tərbiyəsi və digər aidiyyəti istiqamətlərlə bağlı 196 tədbir təşkil olunub. Bir çox Naxçıvan gənci ölkə üzrə qrant müsabiqələrinin qalibi olmaqla muxtar respublikada uğurlu layihələr icra etdilər, nazirliyin dəstəyi ilə könüllülər ölkəmizdə təşkil olunan düşərgələrdə, eləcə də xaricdə keçirilən mübadilə proqramlarında iştirak etməklə yeni təcrübələr qazanmış oldular. Naxçıvan idmançıları dünya, Avropa, ölkə və beynəlxalq səviyyəli yarışlarda 72-si qızıl, 71-i gümüş, 58-i bürünc medal olmaqla, ümumilikdə, 201 medal qazandılar.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əməkdaşı Anar Babayev, Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov dövlət başçısının öz üstün xüsusiyyətləri ilə ölkə gəncliyinə ötürdüyü mənəvi gücdən, onlara göstərdiyi inamdan, dəstəkdən bəhs ediblər. Gənclik sahəsinin inkişafı istiqamətində atılan mühüm addımlardan, geniş islahatlardan, dövlət proqramlarının uğurlu icrasından danışılıb. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə formalaşan gənclərin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasına gətirən tarixi zəfərlərimizdə böyük rolu olduğu vurğulanıb, Vətənimizin gələcək uğur yolunda gənclərin mütərəqqi və innovativ ideyalarının vacib əhəmiyyət daşıdığı diqqətə çatdırılıb. Çıxış edənlər gəncləri təbrik edib, onlara uğurlar arzulayıblar.



Fəal gənc Ceyran Talıbova gənclik mühiti, eyni zamanda bu sahəyə göstərilən dəstək barədə fikirlərini bölüşüb, gənclərə göstərilən dövlət qayğısına görə minnətdarlığını ifadə edib.

Mərasimdə muxtar respublika gənclərinin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Muxtar respublikada uğurlu fəaliyyəti ilə fərqlənən bir qrup gənc müxtəlif nominasiyalar üzrə təltif olunub. Tədbir Naxçıvan Dövlət Filarmoniyasının Estrada orkestrinin təqdimatında konsert proqramı ilə yekunlaşıb.

# Qədim diyarın sənətkarlıq şöhrəti

**Qədim Naxçıvan mədəni irs zənginliyi ilə tariximizdə önəmli yer tutur. Bu torpaq sənətkarlığın inkişafı, yaradılmış nadir və nəfis nümunələrlə yaxın-uzaqlarda şöhrət qazanmışdır.**

Əlverişli iqlim, münbit torpaqlar, su mənbələri burada əkinçiliklə yanaşı, heyvandarlığın, o cümlədən xalçaçılıq, ipəkçilik, çəkməçilik, boyaqçılıq, papaqçılıq və adlarını sadalamadığımız onlarla digər sənət sahələrinin yayılmasına və inkişafına imkan verib. Böyük İpək Yolu üzərində yerləşən qədim Nuh diyarında mühüm inkişaf yolu keçmiş sənət sahələrindən biri də bölgədə gön-dəri məmulatı istehsalı olub.

Tarixə nəzər salsaq görərik ki, tədqiqatçılar bu sənətin yaranma tarixinin ibtidai icma quruluşu dövründən başlandığını bildirirlər. Çünki arxeoloji tədqiqatlar da göstərir ki, qədim insanlar hələ Paleolit dövrünün müxtəlif mərhələlərində ovladıqları vəhşi heyvanların dərilərini daş və sümükdən hazırlanmış kəsici, qaşıyıcı, deşici, hamarlayıcı əmək alətlərinin köməyi ilə emal edərək onlardan sadə geyim və yataq ləvazimatları hazırlayıblar.

Gön-dəri məmulatlarının qədim insanların məişətində xüsusi yer tutması Tunc dövründən başlayaraq bu məşğuliyyətin müstəqil sənət sahəsinə çevrilməsinə, daha doğrusu, dabbağlıq sənətinin meydana gəlməsinə gətirib çıxarıb. Naxçıvanın da qədim zamanlardan insanların yaşayış məskəni kimi cəlbediciliyi tarixən burada müxtəlif sənət sahələrinin, o cümlədən dabbaqlığın inkişafına böyük təsir göstərib. İndiyədək bölgədə aparılan arxeoloji qazıntılar da bu faktın mövcudluğunu ortaya çıxar

Lakin qədim sənətkarlıq sahələrindən hesab olunan dabbağlığın əsl inkişaf dövrü XVII əsrdən sonrakı dövrə – XVIII-XX-əsrin əvvəllərinə təsadüf edir. Tarixi mənbələrə görə, Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da dabbağlar xammal kimi iri və xırdabuynuzlu mal-qaranın gön və dərilərindən istifadə edirdilər. Birinci Dünya müharibəsi ərəfəsində Naxçıvanda saxlanılan iribuynuzlu heyvanların sayı 48-49 min, xırdabuynuzlu heyvanların sayı isə 172-173 min başa çatırdı.

Qeyd edək ki, dabbağxanalar digər sənət sahələrindən fərqli olaraq, adətən, şəhər kənarında salınmış su hövzələrinə yaxın küçələrdə yerləşirdi. Bu da həmin emalatxanalarda suya tələbatın böyük olması və emal prosesində pis qoxuların yaranması ilə bağlı idi. Tədqiqatçı E.Qarayevə görə, Ordubad şəhəri bu sahədə istisnalıq təşkil edirdi. Belə ki, burada hələ xanlıqlar dövründən fəaliyyət göstərən 12 dabbağ emalatxanası şəhərin mərkəzi küçələrindən birində yerləşirdi. XIX əsrin 30-cu illərində tərtib edilmiş arxiv sənədlərindən birində göstərilir ki, "hökumətin bağışlanmaz səhvi ucbatından zavodlar (dabbağxanalar) şəhərin ortasında, düz çayın kənarında tikilmiş ki, bunun da nəticəsində bağlara axan su pis keyfiyyətli olub sağlamlıq üçün zərərlidir".

Aparılmış tədqiqatlara görə, dabbağlığın bölgədə ən mühüm mərkəzləri Naxçıvan və Ordubad şəhərləri idi. XIX əsrin əvvəllərində Naxçıvan şəhərində 22 dabbağ fəaliyyət göstərirdi. Artıq 1865-ci ildə burada çalışan dabbağların sayı 33 nəfərə çatmışdı. Naxçıvan şəhərində bu sənətin geniş yayılması "Naxçıvan əyalətinin statistik təsviri"ndə də öz əksini tapıb. Buradakı məlumatlarda göstərilir ki, xanlıqlar dövründə dabbağlıq sənəti ilə məşğul olanlardan toplanan vergilər xəzinənin əsas gəlir mənbələrindən birini təşkil edirdi. Belə ki, həmin dövrdə həm gön-dəri istehsalına, həm də satışına görə xüsusi vergilər müəyyənləşdirilmiş və onların toplanmasını ayrı-ayrı şəxslərə iltizama verilmişdir.

1823-cü ildə şahzadə Abbas Mirzənin əmri ilə hazırlanmış iltizam maddələri haqqında qaydalara görə, dabbağ istehsal edib satışa çıxardığı bir ədəd camış dərisinə görə gümüş pulla 70, öküz dərisinə görə 35, qoyun dərisinə görə isə 10 qəpik həcmində vergi ödəməli idi. Oxşar vəziyyət Ordubad dairəsində də müşahidə edilirdi. Burada iltizamçı hər camış dərisinə görə gümüş pulla 60, hər öküz dərisinə görə isə 30 qəpik həcmində vergi toplayırdı.




Təsadüfi deyil ki, Naxçıvan və Ordubad şəhərləri başmaq və çəkmə istehsalı üzrə də mühüm mərkəzlərdən sayılırdı. Xanlıqlar dövrünün sonlarına doğru arxiv sənədlərinə görə, XIX əsrin 20-30-cu illərində Naxçıvan dairəsində 46, Ordubad dairəsində isə 44 nəfər başmaqçı və çəkməçi fəaliyyət göstərirdi. 1865-ci ildə Naxçıvan bazarında çalışan başmaqçıların sayı isə 98 nəfərə çatmışdı.

Maraqlı məlumatlardan biri də odur ki, XIX əsrdə Cənubi Qafqazda sənətkarlıq təşkilatlarının tarixini tədqiq etmiş S.A.Yegizarovun yazdığına görə, dərzi, toxucu və çəkməçi kimi sənətlərə şagird qəbulu 9 yaşından başlanır və şagirdin valideyni ilə usta arasında müqavilə əsasında tənzimlənirdi.

Çəkməçilik sənətini öyrənmək üçün şagirdlik müddəti 3 il müəyyənləşdirilirdi. Bu müddət ərzində heç bir əməkhaqqı almayan şagird ustanın bütün tapşırıqlarını yerinə yetirir və onun nəzarəti altında sənətin sirlərinə yiyələnirdi. Bu mərhələni başa çatdıran şagird usta köməkçisi – kargər adı qazanır və gördüyü işin müqabilində müəyyən əməkhaqqı alırdı.

Kargər statusu ilə fəaliyyətə başlayan şəxs gördüyü işə görə ustadan "hər il iki cüt ayaqqabı, bir cüt corab, bir papaq, iki dəst dəyişək və 60 manat pul" alırdı. Bu vəziyyət Azərbaycanın digər şəhərləri kimi, Naxçıvan və Ordubad üçün də xarakterik idi.

XVII əsrdə Naxçıvana səyahət etmiş türk səyyahı Övliya Çələbi yazırdı ki, Naxçıvan sakinləri daha çox əlvan rəngli ayaqqabılar, yaşıl, sarı, narıncı rənglərə boyanmış, tumacdan tikilən "papuşlar" geyirlər. Onun sözlərinə görə, qadınlar da elə bu materialdan hazırlanmış rəngli çəkmələrə üstünlük verirlər.

Dabbağlığın inkişafı Naxçıvanda və Ordubadda papaqçılığın da inkişafına şərait yaradırdı. Hər iki şəhərin bazarlarında xeyli papaqçı dükanları vardı. Papaq onu gəzdirəcək kişilərin yaşı ilə yanaşı, cəmiyyətdəki mövqeyi də nəzərə alınmaqla 3 formada – "şiş papaq", "şələ papaq" və "çalma papaq" formasında tikilirdi. Yaşlı insanlar "züllə papaq", uşaqlar "yapağı papaq", cavan oğlanlar isə "şikarı papaq" qoyardılar.

Bundan əlavə, gön-dəri istehsalının genişlənməsi Naxçıvanda yəhərqayırma – sərraclıq sahəsinin də inkişafına səbəb olmuşdu. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da əsrlər boyu "müsəlman yəhəri" adlanan ağır qaltaqlı yəhərlərdən istifadə olunmuşdu. Azərbaycanın Rusiya tərəfindən işğalından sonra isə əvvəlcə "kazak yəhəri", XX əsrin əvvəllərindən isə "ingilis yəhəri" geniş yayılmışdı. Ancaq bu sənət sahəsi ilə məşğul olanlar digərlərinə nisbətən az idi. Bu da, əsasən, atçılığın digər bölgələrlə müqayisədə az yayılması ilə bağlı idi.

Ümumilikdə, gön-dəri istehsalının Naxçıvan diyarında geniş şəkildə inkişaf etməsi bir çox mənbələrdə öz əksini tapıb. K.Xatisov bu sənət sahəsini "Cənubi Qafqazın ən qədim sənət sahələrindən biri" adlandırırdı. Təkcə o faktı göstərmək kifayətdir ki, XIX əsrin 30-cu illərində Azərbaycanın 5 şəhərində – Şamaxı, Ordubad, Naxçıvan, Nuxa və Şəki şəhərlərində fəaliyyət göstərən 136 dabbağın 50-si, başqa sözlə desək, üçdə bir hissəsindən çoxu Naxçıvan və Ordubad şəhərlərinin payına düşürdü.

Bütün bunlar Naxçıvanın, həqiqətən, regionda mühüm ticarət və sənətkarlıq mərkəzi kimi özünü təsdiq etməsinin göstəricisidir.

*Səhifəni hazırladı: Səbuhi HƏSƏNOV,*
*XQ-nin Naxçıvan müxbiri*

Fuad Əliyev – 75

# “Akademik olmaq asandır...”

**Uzun illər tanıdığın, hətta yaxından dostluq etdiyin, yeri gələndə dərdləşdiyin, sevincini, kədərini bölüşdüyün insan haqqında yazmaq necə çətin imiş! Özü də belə bir vaxtda, ömrünün müdrik çağında, yubileyində yazı hazırlamaq, keçdiyi həyat yolundan müfəssəl danışmaq, iki kəlmə xoş söz demək, nələrisə yaddan çıxarmamaq ağır bir işdir. Amma hər halda çox qısaca da olsa xatirələrimi vərəqləyə bildim...**

Gəncə (Kirovabad) Şəhər Pariya Komitəsinin Nizami rayonunda təbliğat və təşviqat şöbəsinin müdiri kimi üç-dörd ay idi ki, işə başlamışdım və humanitar sahənin – elm, təhsil, səhiyyə, mədəniyyət, idman müəssisələrinin bir növ kuratoru idim. Təbii ki, Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Qərb bölgəsində yenicə yaradılmış Gəncə Elm Mərkəzinin direktoru vəzifəsi də bizim nomenklaturaya daxil idi. Bilirdim ki, AMEA şəhər rəhbərliyi ilə razılaşdırdıqdan sonra bu vəzifəyə əslən Gəncədən olan Fuad Əliyev adlı bir nəfəri məsləhət bilib.

...Qapı ehmalca aralandı. “Olar?” deyib səliqə ilə geyinmiş, 30–32 yaşlarında şümal, ağbəniz, xoşsifətli bir gənc içəri daxil oldu və şəstlə əl uzadıb “Fuad Əliyev” dedi.

Onunla sonralar dostluğa çevrilmiş ilk tanışlığımız, bax belə başladı.

İndi o görüşdən nə az, nə çox, düz 42 il vaxt keçib...



1950-ci il fevralın 1-də Gəncədə ziyalı ailəsində anadan olan Fuad Yusif oğlu Əliyev doğma şəhərində işə başlayana kimi 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmişdi, sonra zabit rütbəsində ordu sıralarında xidmət etmişdi, 1974-cü ildən AMEA Aşqarlar Kimyası İnstitutunda laborant, mühəndis vəzifələrində çalışmışdı, 1976-cı ildə aspiranturaya daxil olmuş, 1981-ci ildə aspiranturanı müvəffəqiyyətlə başa vuraraq kimya elmləri namizədi elmi dərəcəsini almışdı. Elə həmin ildə də Rəyasət Heyətinin qərarı ilə Aşqarlar Kimyası İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunmuşdu.Yəni gənc alimin artıq çox maraqlı bir həyat yolu başlanmışdı. 1983-cü ildən bu günə kimi isə bütün həyat və fəaliyyəti Gəncə Regional Elmi Mərkəzi ilə bağlıdır. Qeyd edək ki, Fuad Əliyev 1992-ci ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsini almış, 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü (akademik) seçilmişdir.

F.Əliyevin bilavasitə çalışdığı sahə yeni kükürd-üzvi birləşmələrinin sintezi və onlardan aşqarlar kimi istifadə etməklə müxtəlif xassələrə malik sürtkü yağlarının alınmasında istifadə olunmasıdır. Müxtəlif quruluşa malik birləşmələrin sintez olunmasında məqsəd onların quruluşunda və tərkibində olan funksional qrupların, hetroatomların yeni alınmış maddələrin xassələrinə təsirinin, bunların isə öz növbəsində sürtkü yağlarının keyfiyyətinə göstərə biləcəyi xassələrinin öyrənilməsidir.

Belə bir maraqlı məqamı da qeyd etmək lazımdır ki, akademik Fuad Əliyevin araşdırmalarının növbəti nəticələrindən biri kimi əldə olunmuş sintez birləşmələr bu gün bir çox dərman preparatlarının tərkibinə də daxildir. Belə ki, həmin sintez edilmiş maddələrin bir çoxunun antimikrob xassəyə malik olması müəyyən edilmişdir. Bu isə müasir dövrümüz üçün son dərəcə aktual bir məsələdir.

Akademik Fuad Əliyevin fəaliyyəti Azərbaycan dövləti və bilavasitə ölkə Prezidenti tərəfindən həmişə yüksək qiymətləndirilib. Belə ki, Fuad Əliyev 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə “Tərəqqi” medalına, 2006-cı ildə “Əməkdar Elm xadimi” adına layiq görülüb. 2020-ci ildə isə Azərbaycanda elmin inkişafında xidmətlərinə görə “Şöhrət” ordeni ilə təltif edilib.

Qeyd edək ki, 140 elmi əsərin, 17 elmi ixtiranın və 8 monoqrafiyanın müəllifi olan Fuad Əliyev 1996-cı ildən Gəncə şəhər Ziyalılar Cəmiyyətinin sədri, Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının sədr müavinidir.

Gəlin razılaşaq ki, belə bir dolğun, xalqına, dövlətinə faydalı ömür yaşamaq xoşbəxtliyi heç də hər kəsə nəsib olmur.

Fuad müəllim bütün varlığı ilə, özünün də dediyi kimi, canından artıq sevdiyi Gəncəyə bağlıdır. O, qədim şəhərin tarixini, dünənini əzbər bilir. Tarixi şəxsiyyətlər haqqında bölmə tərəfindən nəşr olunan kitabların sayı-hesabı yoxdur.

Akademik deyir ki, “Şərqin tarixən milli mədəniyyət və elm mərkəzlərindən biri kimi şöhrət qazanmış Gəncə şəhərinin elmi mühitində minilliklər boyu xalqımızın bir çox alimləri, mütəfəkkirləri, memarları öz yaratdıqları əsərləri ilə dünya elmində xüsusi yer tutmuş, xalqımıza böyük şöhrət gətirmişlər. Biz onları bütün dünyaya tanıtmalıyıq”

Ötən illər ərzində mərkəzin elmi və ictimai fəaliyyəti daha da genişlənmiş, elmi-tədqiqatların istiqamətləri müxtəlif sahələri əhatə etmişdir. Təsadüfi deyil ki, Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin səyyar iclasları bəzən Gəncə şəhərində də keçirilir və Qərb bölgəsində elmi-tədqiqat işlərinin koordinasiya olunması, kadr hazırlığı, elm-təhsil-istehsalat problemlərinin həlli yolları müzakirə edilir, proqramlar hazırlanır.

AMEA-nın Gəncə Bölməsinin elmi fəaliyyəti respublikamızın hüdudlarından kənarda da yayılmaqdadır və bölmə beynəlxalq elmi əlaqələrini inkişaf etdirir. Yarandığı ilk illərdən Gəncə Bölməsinin elmi-tədqiqat işlərinin nəticələrinin istehsalata tətbiq edilməsi, müxtəlif nazirliklər arasında əlaqələrin yaranması ümumi işin inkişafına dəstək göstərir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən, Gəncə Bölməsi tərəfindən “Nizami Gəncəvinin 870, 875 və 880”, “Məhsəti Gəncəvi yaradıcılığının 900 illik yubileyi”, “Mirzə Şəfi Vazehin 220 illik yubileyi” yüksək səviyyədə həyata keçirilmişdir. Nizami Gəncəvi və onun ölməz yaradıcılığı ilə bağlı akademiyanın nəşr etdiyi əsərlər onlarladır və bu gün də davam edir.Tədbirlərin isə sayı yox, hesabı yox.

Fuad Əliyev Gəncənin ictimai-siyasi həyatında çox yaxından iştirak edir. Elə doğma şəhərinə gəldiyi ilk günlərdən fəallığı ilə seçilib.

**Yadigar Bədəlov, Gəncə Şəhər İcra hakimiyyətinin şöbə müdiri:**

– Hörmətli akademikin Gəncənin elə bir sahəsi yoxdur ki, izi görünməsin. Fuad müəllim, sözün əsl mənasında, böyük ziyalı, öz sözü, fikri olan, maraqlı və faydalı təklifləri ilə daim diqqəti cəlb edən bir təşkilatın rəhbəridir. Bölmənin tədbirlərində tez-tez iştirak edirəm və hər dəfə də sonsuz məmnunluq hissi ilə geri dönürəm. Elmi müzakirələr, uzun müddət yaddaşlarda qalan çıxışlar, faydalı təkliflər son illər bölmənin necə böyük və səmərəli bir yol keçdiyini bir daha sübut edir. Fuad müəllimə bundan sonra da uzun ömür, elmi fəaliyyətində uğurlar arzulayıram.

Fuad Əliyevi nəinki Gəncədə, eləcə də respublikada, hətta onun hüdudlarından kənarda çox sevirlər. Dostlarının sayı-hesabı yoxdur. Bilrsiniz, bu, nədən irəli gəlir? Sadəliyindən. Ona görə də ətrafındakı adamlar ən sadə müxtəlif peşə sahibləridir. Heç yadımdan çıxmır, bir dəfə dostlarımızdan biri yarızarafat, yarıciddi dedi ki, sən akademik adamsan, bəziləri ilə tez-tez ünsiyyətdə olmağın sənə yaraşmır, kənardan baxan nə deyər? Çox əsəbiləşdi. Dedi ki, “mən heç bilməzdim ki, dostlarım arasında insanları, sənin kimi rütbəsinə, vəzifəsinə görə seçənlər də varmış”. Sonra da qayıtdı ki, “yadında saxla, akademik olmaq asandır, insan olmaq çətin”.

Fuad Əliyev təbiətən laqeyd adam deyil. Nəzərindən heç nə qaçmır. Şəhərdə demək olar ki, xeyirdə-şərdə daim iştirak edir, rəhbərlik etdiyi kollektivin hər bir üzvünün problemləri ilə maraqlanır, köməklik göstərir.

**Sara Əzizova, AMEA-nın Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, kimya üzrə fəlsəfə doktoru:**

– Fuad müəllimin necə bir nüfuza sahib olduğunu bilmək üçün keçdiyi şərəfli həyat yoluna və elmi-təşkilati fəaliyyətinə nəzər yetirmək kifayətdir. Ömrünün böyük bir dönəmini AMEA-nın Gəncə Bölməsinə həsr edib və bunu həyatının mənası sayıb. Bölmə sədri vəzifəsinədək keçirdiyi şərəfli həyat yolu istedadlı, zəhmətsevər ziyalılar və gələcək nəsillər üçün bir örnəkdir. Təşkilatçılıq və rəhbərlik bacarığı hörmətli akademikin müsbət keyfiyyətlərindən biridir. Öz işini səmimi münasibətlər, ədalət, bərabərlik, qarşılıqlı hörmət və digər bu kimi müsbət etik tələblər çərçivəsində qurub. Rəhbərlik etdiyi AMEA-nın Gəncə Bölməsində elmi mühit və ilk növbədə, işgüzar münasibətlər diqqəti cəlb edir. Fuad müəllim böyük elmin ön sıralarında gedən, zəhmətə və axtarışlara üstünlük verən ziyalılardandır. Çoxillik səmərəli elmi-ictimai fəaliyyəti, əldə etdiyi bilik və təcrübə bundan sonra da cəmiyyətimizə fayda verəcək. O, elmi maraq dairəsinin genişliyi və məhsuldar işləmək bacarığı, həssaslığı və xeyirxahlığı, anlamaq və yardımçı olmaq kimi gözəl insani keyfiyyətləri ilə Gəncə Bölməsi əməkdaşlarının və ölkənin geniş elmi ictimaiyyətinin rəğbətini qazanmışdır.

**Həsən Məmmədov, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Gəncə–Daşkəsən regional bölməsinin müdiri:**

– Gəncənin xalqımızın tarixində, mədəniyyətində çox önəmli yeri var. Milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz hər zaman qayğı ilə qorunur. Gəncənin digər özəlliyi isə dini dəyərlərimizə bağlılığıdır. Fuad müəllim Gəncə ziyalısı kimi daim dini icmaların fəaliyyəti, onların dini xurafatdan uzaq təbliği istiqamətində nəinki rəsmi tədbirlərdə, həmçinin yas mərasimlərində də ətraflı söhbətlər edir. Onun Səbzikar qəbiristanlığının tarix - memarlıq abidəsi kimi təmir olunaraq qorunub saxlanılması istiqamətində şəhər sakinlərinə müraciəti əsasında ərazinin memarlıq üslubunda hasarlanması, ehsan bulağının inşası Fuad müəllimi gəncəlilərin gözündə daha da ucaltdı.

...Axşamdır. Fuad müəllimlə çox sevdiyi Xan bağında uca çinarların arası ilə astaca addımlayırıq. Nə o danışır, nə mən. Sükutu telefon zəngi pozur. Danışanın kim olduğunu dərhal hiss edirəm. Oğlu Kənandır. Deyir, elə olur gündə bir neçə dəfə zəng edir, hal-əhval tutur. Bilir ki, səhhətimə qarşı bir qədər laqeyidəm. Sonra da payızdan ağacın budağında ilişib qalan və indi-indi fırlanaraq yerə düşən saralmış tənha yarpağı göstərərək tezcə də mövzunu dəyişir və “deyəsən Gəncədə bu il düz-əməlli qış olmayacaq” deyir...

***Həmlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

# “Erməni soyqırımı”na niyə ehtiyac yoxdur?

**(əvvəli 1-ci səhifədə)**

Tədbirdə Azərbaycan və Türkiyə əleyhinə açıq və qapalı ittihamlar, subliminal mesajlar səslənmişdi. Sözügedən toplantı elə təəssürat formalaşdırmışdı ki, Ermənistanın hakim komandası dildə bir şey deyir, əməldə başqa cür davranır. Əslində isə, onun sözülə əməli eynidir. Torosyanın fikirləri erməni hakim komandanın mövqeyini ortaya qoyur. Ona görə də diqqət yetirək görək deputat nədən danışır və bu adamın revanşist və şovinistlərdən, digər xəstə təfəkkür sahiblərindən fərqi nədir?

Beləliklə, A.Torosyan “erməni soyqırımı”nın dünya miqyasında tanınmasının hər bir dövlətin ümumbəşəri vəzifəsi olduğunu vurğulayıb. Əvvəldə haqqında söz açdığımız həyasızlıq elə budur. Deməli, dünyanın işi-gücü qurtarıb, qondarma iddianın tanınmasını özü üçün ümumbəşəri vəzifə elan edəcək?! Sən demə, məsələ o qədər böyük əhəmiyyətli imiş ki, onu Ermənistanın xarici siyasət gündəminə yerləşdirmək mümkünsüzdür. Yəni, “erməni soyqırımı” bir ölkənin sərhədlərini aşır. Belə sərsəm düşüncəyə heyrətlənməyə bilmirsən. Fikrimizcə, heç baş nazir Nikol Paşinyan özü də bu cür “formul” düşünüb tapa bilməzdi ki, onu Torosyan müəyyənləşdirdi.

Amma əvvəldə də vurğuladığımız kimi, deputatın dediklərində revanşist-şovinist kəsiminin hiddət və qəzəbini doğuracaq motivlər var. Axı o kəsim Rusiyadan qidalanır. Məsələn, Torosyan bildirir ki, “erməni soyqırımı” ətrafında yersiz hay-küy qaldırmaqla, Ermənistan öz çəkisini aşağı salır: “Nə vaxtadək belə boş ümidlərlə yaşamaq olar? Nə vaxtadək ümid bəsləmək olar ki, günlərin birində Türkiyə “erməni soyqırımı”nı tanıyacaq və reparasiyaya razılıq verəcək?” Əgər biz Ermənistanda bunun üçün yaşayırıqsa, o zaman məni bağışlayın, amma razılaşmayacam. Ermənistan Respublikası rifah, çiçəklənmə, təhlükəsizlik və vətəndaşları üçün digər vacib məsələlərin həlli naminə mövcuddur, başqa şeylərə görə yox. Əgər biz Ermənistan qarşısında başqa məqsədlər müəyyənləşdirsək, onda qeyd etdiyim vacib məqamları şübhə altına alacağıq”.



İstər-istəməz yada erməni əsilli məşhur fransız musiqiçi Şarl Aznavurun vaxtilə “erməni soyqırımı” ilə bağlı bildirdikləri düşür. Ermənistanın İsveçrədəki səfiri kimi də fəaliyyət göstərmiş Aznavur “soyqırımı” söhbətinə tüpürmək istədiyini dilə gətirmişdi. Hesab etmirik ki, A.Torosyan eyni hərəkəti gerçəkləşdirməyə çalışır. Onun bildirdikləri tülkü hiyləgərliyindən başqa bir şey deyil. Ancaq hər halda deputatın mövqeyinə müəyyən pozitiv pəncərədən baxaq. Əlbəttə, bunda müsbət nə isə varsa.

İndi isə yada baş nazir N.Paşinyan düşür. O, ötən ay Davos İqtisadi Forumu çərçivəsində İsveçrədə olarkən, ölkənin erməni diasporunun təmsilçiləri ilə görüşündə “erməni soyqırımı”nı şübhələndirən fikirlər söyləmişdi. Nikolun sözlərindən belə çıxmışdı ki, XX əsrin 30-cu illərində gündəmdə olmayan qondarma iddianın həmin əsrin 50-ci illərində yenidən gündəmə gəlməsi sabiq SSRİ-nin anti-Türkiyə fəaliyyətinin nəticəsi idi. Yəni, Türkiyə NATO-ya üzv oldu və bundan sonra Sovetlər Birliyinin başbilənləri “erməni soyqırımı”nı törədən və sovet Ermənistanı ilə həmsərhəd olan ölkənin Şimali Atlantika Alyansında iştirakını qabartmağa kökləndilər. Beləliklə, Türkiyəyə qarşı haylarda onsuz da mövcud olmuş qəzəbi qəsdən körüklədilər.

Bəli, N.Paşinyanın bildirdikləri beynəlxalq dairələrin “erməni soyqırımı”nı alətə çevirməsi reallığının sübutu idi. Yəni, SSRİ-yə lazım olmuşdu, qondarma iddia ilə bağlı “iş” aparmışdı. Nəzərə alaq ki, Sovetlər Birliyi formalaşmayanadək də saxta soyqırımı iddiası siyasiləşdirilmişdi. Özü də XIX əsrin sonu – XX əsrin əvvəlində. N.Paşinyan isə “erməni soyqırımı”nın rus təqdimatından uzaq durur. Bu, o deməkdir ki, qondarma təqdimatın Qərb seqmenti qeyri-aktivdir. Çünki Türkiyənin dünyada oynadığı rol bəllidir. İndiki məqamda Qərbə “erməni soyqırımı”ndan Ankaraya qarşı təzyiq vasitəsi kimi yararlanmaq lazım deyil. Torosyan isə onun tanınmasını ümumbəşəri vəzifə kimi elan etməklə çox sadə mesaj verir: “Soyqırımı” kartından istifadəni kim istəyirsə, buyursun. Hər halda, onun hakim komandanın deputatı olduğunu bir daha vurğulayaq. O komandanın ki, Qərbpərəstdir. O komanda ki, anti-Rusiya meyillidir. Deməli, Ermənistan Rusiyanın uydurduğu soyqırımı musiqisinin zəngulələrinə “ağlamayacaq”, Qərbdə isə sözügedən musiqini eşitmək istəyənlər yoxdur. Yəni, hələlik yoxdur. Güman edirik, əlavə şərhə də ehtiyac qalmır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

## Sosial xəbərlər



### BVF missiyası sosial islahatlarla tanış olub

***Beynəlxalq Valyuta Fondunun Azərbaycan missiyası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində olub. Anna Bordonun başçılıq etdiyi heyət ilə görüşdə nazir Sahil Babayev ölkəmizdə əmək, məşğulluq, sosial müdafiə sahəsində həyata keçirilən islahatlar barədə məlumat verib.***

Missiyaya əməkhaqlarında mütəmadi artımların təmin edildiyi, 2018-ci ildən ötən dövrdə minimum əməkhaqqında 3,1 dəfə artım olduğu bildirilib. Əmək müqavilələrinin sayında ildən-ilə davam edən artım dinamikası vurğulanıb. Fəal məşğulluq layihələrinin əhatə dairəsinin genişləndirilməsi istiqamətində əldə olunan nailiyyətlər, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən məşğulluq proqramları diqqətə çatdırılıb. İşçi qüvvəsinin əmək bazarının tələblərinə uyğun olaraq bacarıqlarının, rəqabət qabiliyyətinin artırılması, peşə və ixtisas standartlarının hazırlanaraq təsdiqlənməsi sahələrində atılan addımlardan da bəhs olunub. Söhbət zamanı mühüm innovativ uğurlardan olan və beynəlxalq səviyyədə də yüksək qiymətləndirilən “Əmək və Məşğulluq” altsisteminin üstünlükləri qeyd edilib. Qonaqlara pensiya artımları, pensiya təminatının əhatə dairəsinin genişləndirilməsi istiqamətində atılan addımlar, fevralın 1-dən ölkəmizdə minimum pensiyanın növbəti dəfə artırılacağı diqqətə çatdırılıb.

Görüşdə əmək, məşğulluq və sosial müdafiə sahəsində həyata keçirilən islahatlara dair fikir mübadiləsi aparılıb.

### Azərbaycan Qlobal Əmək Bazarı Konfransında

***Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyadda keçirilən II Beynəlxalq Əmək Bazarı Konfransında Azərbaycanı Əmək və əhalinin sosial müdafiəsi nazirin müavini Vüsal Nəsirlinin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.***

“Əmək bazarının gələcəyi” şüarı altında təşkil olunan konfrans qlobal əmək bazarlarında mövcud problemlər və çağırışların, insan kapitalının inkişafı məsələlərinin və sürətlə dəyişən mühitə uyğunlaşma yollarının müzakirəsinə həsr olunub.



Konfransda nazirliyin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın idarə heyətinin sədri Elnur Səfərli Azərbaycanda əmək münasibətləri sahəsində aparılan islahatlar, yaşlı işçilərlə bağlı proqramlara dair məruzə ilə çıxış edib, tədbir iştirakçılarının mövzu ilə bağlı suallarını cavablandırıb. O, Səudiyyə Ərəbistanı Krallığının İnsan Resurslarının İnkişafı Fondunun tabeliyində Əmək Bazarı üzrə Milli Observatoriyanın rəhbər şəxsləri ilə görüşüb, qlobal əmək bazarlarındakı problemlərlə bağlı fikirlərini bildirib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Qərbi Azərbaycan – mənəvi irsimiz

# Könül nəğmələrində yaşayan Dərələyəz

**Qərbi Azərbaycanın qədim türk yurdlarından olmuş Paşalı qəzasının Gomur obasından 1988-ci ildə ellikcə və vəhşicəsinə qovulduqdan sonra Tofiq Məmmədov ailəsi ilə birlikdə Ordubadın Parağa kəndinə pənah gətirib. O vaxtdan burada müəllimlik fəaliyyətini davam etdirən soydaşımız 37 ildir ki, yurd həsrətini doğma obasının mənəvi dünyasını qəlbində yaşatmaqla, Dərələyəzin mədəni irsinin incilərini ipə-sapa düzməklə ovudur. Bu yaddaş boxçasını qoruyub saxlamaq ailənin doğma yurda qayıtmaq ümidlərinə qol-qanad taxıb.**



Tofiq müəllim 1959-cu ildə Əzizbəyov rayonunun ( keçmiş Söylan rayonu) Gomur kəndində dünyaya göz açıb. Naxçıvanda ali pedaqoji təhsil aldıqdan sonra doğma kəndində fizika müəllimi işləyib, dərs hissə müdiri olub. Həyat yoldaşı Güləndam xanım isə həmin məktəbdə kitabxanaçı işləyib. Ailə gecəli-gündüzlü çalışıb, halallıqla özünə ev-eşik tikib. Lakin ermənilərin məkrli düşmənçiliyi onların öz yurdunda rahat yaşamaq arzusuna qənim kəsilib.



Dərələyəzdən qovulan bir çox tale ortaqları kimi onlar da Ordubadda məskunlaşıblar. Uzun illər Parağa kənd məktəbində müəllimlik edən Tofiq müəllim bu təhsil ocağının direktoru vəzifəsini də icra edib. Həyat yoldaşı Güləndam xanımla yurd həsrətinin acısını əritməkdə bir-birinə arxa-dayaq olan bu ziyalı soydaşımız dopdolu qoyub gəldiyi evini, çal-çağırlı obasını, perik düşmüş doğmalarını-dostlarını bir an da unutmayıb, geri dönəcəkləri günü ümidlə gözləyib.

Yurdsevər ziyalı ailəsi ilə – Tofiq müəllim və Güləndam xanımla söhbətimiz onları yenidən Gomurlu günlərə geri qaytardı. Vətəndən zorla köçürüldükləri günləri Tofiq müəllim belə xatırlayır: "Cul kəndindən silahlı ermənilər hədə-qorxu ilə camaatın dincliyini pozdular. Gomurun qeyrətli oğlanları sırasında atam Qafar, qohumlarımız kəndi xeyli qorudular. Lakin Qərbi Azərbaycanda erməni dövləti qurmuş kommunist hakimiyyəti, Moskva rəhbərliyi düşmənləri yerində oturtmadı. Azərbaycanın da əli bizə yetmədi. Bir gündə gözlərini qan örtmüş quldurlar kəndə doluşub evləri atəşə tutdular. Camaat qırğından xilas olmaq üçün kəndi tərk etməli oldu".

O zaman beşinci övladının dünyaya gələcəyini gözləyən Güləndam xanım da o dəhşətli günləri unuda bilmir: "Kənddən qovulduğumuz gün olduqca dəhşətli idi. Camaat, elə bil, cəhənnəmdən baş götürüb qaçırdı. Mən isə baxırdım, çünki ayağı ağır bir qadın necə qaça bilərdi?! Axına qoşulub bir təhər kənddən çıxdıq".

Azərbaycan türklərinin bu torpaqlarda ulu tarixinin, zəngin adət-ənənəsinin varlığına son qoyan ermənilər mənəvi irsimizin yadigarlarını, izlərini yer üzündən silmək üçün misilsiz vandalizm törədiblər. Lakin bu xinənin mənəvi aləmi yaddaşlarda yaşadılır, xilas edilən nümunələr sevgi ilə qorunub saxlanır.

Vətəni qorumağı qeyrət borcu bilən ulularımız da bu yolda canlarını fəda etməyi şərəf biliblər. Vətənin ağrısını çəkmək onun sevgisi qədər qiymətli olub. Qonağı olduğumuz ailədə də bu ağrı və sevgi hüdudsuzdur. Güləndam xanım ötənlərlə bağlı kövrək duyğularını belə dilə gətirir: "Ordubad, Parağa da öz vətənimizdir. Öz xalqımızın arasında olsaq da, heç nə dünyaya göz açıb böyüdüyümüz yerlərin əvəzini vermir. İndi o yerlərlə bağlı bayatılar çağırmaqla təsəlli tapırıq:

*Əzizim, binə tikdim,*
*Yönünü günə tikdim.*
*İçində oturmadım,*
*Bilmədim, kimə tikdim?!*

Bayramlarda yığışardıq böyük bir evə, qədir tutardıq, "haxışta, ay gülüm" deyərdik. Biz haxıştanı, ay gülümü toylarda, xınayaxdıda yox, ilaxır çərşənbədə deyərdik:

*O tay bı tay bir olsun, haxışta,*
*Ortasında gül olsun, haxışta*
*O tayın qızları, haxışta,*
*Bu taya sürgün olsun, haxışta.*

Əlavə edək ki, ilaxır çərşənbə Qərbi Azərbaycanda böyük şövqlə keçirilib. Ermənilər də digər kəndlərdən də bu mərasimi seyr etməyə gələrmişlər. Mərasimin ən gözəl hissəsi ilin axır çərşənbəsinə keçən gecəni səhərədək yatmayıb ayin-inancların keçirildiyi məqam olub. Buna o yerlərdə "qədir tutmaq" deyirdilər.

Tofiq müəllim Dərələyəzdə keçirilən ilaxır – qədir tutmaq mərasimi haqqında xatirələrini belə ifadə etdi:

– İlaxırın birində 2 dəstədən ibarət qızların deyişməsinə təsadüf etdim. Sanki qızlar sözlə savaşırdılar:

*Ay qız, haran yaxşıdı?*
*Dağdan aran yaxşıdı.*
*Qaşlar ütük, burun tütük,*
*Sənin haran yaxşıdı?*

Qarşı tərəf isə cavab verdi:

*İstol üstə kəkotu,*
*İstol qoyum gəl otu.*
*Hər yerim sənin olsun*
*Çimdiykləmə, düz otu.*

İlaxır mərasimin səhnələri çox olurdu. Təkcə qız-gəlinlərin qədir tutmağı ilə kifayətlənmirdik. Qol-qola tuturduq, yallı gedirdik. Qız-gəlinlər isə haxışta deyərək yallı gedirdilər. Biz çəkişirdik, "Çəkuzatma" oynuyurduq.

Doğma elinin-obasının əsrarəngiz guşələri Tofiq müəllimi və onun xanımı Güləndamı hər zaman öz ağuşuna səsləyir. Bu səsi onlar yuxularında da ceşidirlər. Doğma yurdun hər guşəsi insan üçün ən şirin nemətdir. Buz bulaqları, yaşıl meşələri, yazda rəngarəng xalıya bürünən, hər zaman başı qarlı dağları bu ailənin hər an gözlərinin önündədir: "Bizim kəndin çoxlu bulaqları var idi – Novlu bulağı, Pəri bulağı, Meşə bulağı, Armudlu bulağı, Qoro bulağı, Cım-cım bulağı... Deyirdilər, Qaçaq Nəbi də buralara gəlib, hətta Yacı yaylağından da keçib. Bizdə Nəbiyatan təpə var idi. Deyirdilər, Nəbi gəlib bırdan keçirmiş. Onun tivililərlə dostluğu olub.

Kövrək duyğulara qərq olan Tofiq müəllim doğma yerlərlə həsrətini səhrada suya həsrət adam kimi çəkir:

*Başı bəlgəli dağlar,*
*Dibi kölgəli dağlar.*
*Qəribəm, yol gözlərəm,*
*Nə vaxt el gəli, dağlar.*

*Qarşıda qazan ağlar.*
*Od yanar, qazan ağlar,*
*Qəriblikdə ölənin*
*Qəbrini qazan ağlar.*

Qərbi Azərbaycan mahallarını aşıqsız, dastansız təsəvvür etmək mümkün deyil. Hər toy-düyününü aşıqla başlayıb aşıqla sona çatdıran bu ellərdə hamı aşığa və bu sənətə vurğundur. Tofiq müəllim də aşıq sənətinə aşiq olan dərələyəzlidir: "Aşıqları çox sevərik. Qarakilsənin Şəki kəndindən Aşıq Alman kəndimizə çox gələrdi. Bizdə aşığa sevgi böyük idi. Mən də sazlı-sözlü ailədə böyümüşəm. Doğma əmim Aşıq Hacı da öz sənətilə elində-obasında şöhrət qazanmışdı. Mahalımızda çox sevilən Aşıq Sərxan da həm yaradıcı, həm də ifaçı aşıqlardan idi".

Vətənli günlərin xatirəsi ilə yaşayan Güləndam xanım nənəsinin, anasının ona və bacı-qardaşlarına söylədiyi əzizləmələri, nazlamaları, laylaları indi öz nəvələrinə deyir:

*Qızım, qızım naz qızım,*
*Ördək qızım, qaz qızım,*
*Gəl xəstələnmə, ay balam,*
*Gələcəykdi, yaz, qızım.*

Güləndam xanım bu bayatıları həm də torpaqlarımız uğrunda şəhid olan oğullarımıza çəkir, ağladıqca qərib könlünün yarasına – vətən həsrətinə də ağı deyir:

*Aşıq vətənə sarı,*
*Köynəyk kətənə sarı.*
*Çıxaydım qəlbi dağa*
*Baxaydım vətənə sarı...*

Sözünün əvvəli, sonu Vətən olan bu ailənin ən böyük arzusu Vətənə də dönməkdir. O ərazilərin qədim yurd yerləri olduğunun sübutu təkcə oralardakı maddi mədəniyyət abidələri deyil, həm də özləri ilə yaddaşlarında yaşadaraq qoruduqları mənəvi xəzinə – mərasim, adət-ənənə, qədimdən-qədim əxlaqi dəyərlərdir.

*Aytən CƏFƏROVA,*
*AMEA Naxçıvan bölməsinin əməkdaşı, dosent*

Vera Şirye – 110

# Azərbaycan sevdalı rus aktrisa

**Səməd Vurğunun adını daşıyan Dövlət Rus Dram Teatrının aktrisası, "Xalqlar dostluğu" və "İstiqlal" ordenli Xalq artisti Vera Şirye oynadığı bütün rollara öz möhürünü vurmuş sənətkarlardan olub.**

O, 31 yanvar 1915-ci ildə Bakı şəhərində anadan olub. Onun atası Karl Petroviç Şirye milliyətcə latviyalı idi, Birinci Dünya Müharibəsində həyatını itirmiş, qızını heç görməmişdi. Vera onu əziz balası kimi sevən ögey atası Mirzə Səttarovun ailəsində böyüyüb. Sonra onun Leyla adlı bir bacısı da olub (Əməkdar həkim, respublikada ilk qadın-Ali Sovet deputatı Leyla Tağızadə).



Vera Karlovna tez-tez etiraf edirdi ki, onun teatra gedən yolunu atalığı çəkib, çünki həvəskar teatrda oynayıb-oxuyurdu və həmişə onu məşqlərə özü ilə aparırdı. Vera Şirye səhnə fəaliyyətinə 18 yaşında Bakı İşçi Teatrı (sonrakı Azərbaycan Dövlət Rus Dram Teatrı) nəzdindəki studiyada başlayıb və bir neçə ildən sonra həmin teatrın aktrisası olub. İkinci Dünya müharibəsi zamanı cəbhələrdə əsgərlərin qarşısında dəfələrlə çıxış edib və buna görə 1945-ci ildə "Qırmızı Ulduz" ordeninə layiq görülüb. Hətta bir dəfə əfsanəvi İosip Broz Tito (Yuqoslaviyann prezidenti) onu əsgərlər qarşısında çıxış edərkən görüb və aktrisaya Yuqoslaviyada qalıb Belqraddakı "Zabitlər evi"nə rəhbərlik etməyi təklif edib. O isə dogma Bakıdan ayrı qala bilmədiyini deyərək, təklifi qəbul etməyib.

Vera Karlovnaya Moskvada qələbə bayramında çıxış etmək xoşbəxtliyi də nəsib olub. Ancaq həmin çıxış vaxtı, göz yaşları ilə sevinc onun çöhrəsində bir-birinə qarışıb, çünki o ərəfədə Vera sevgilisi Petyanın qara kağızını alıbmış. Qələbəsini yaşadığı müharibə onu ən sevimli adamından edibmiş.

Sonra heç kəsə qəlbini verməyən aktrisa uzun səhnə həyatı boyu Vera Şirye 200-ə yaxın rol oynayıb. Mirandolina ("Mehmanxana sahibəsi", K.Qoldoni), Maşa ("Canlı meyit", L.Tolstoy), Melanya ("Günəşin övladları", M.Qorki), Anna İliniçna ("Ailə", İ.Popov), Qızyetər ("Xanlar", S.Vurğun), Nataşa ("Şərqin səhəri", Ə.Məmmədxanlı), Ledi Hef ("Oğruların şənliyi", J.Anuy), Tereza ("Terezanın ad günü", G.Mdivani), Pori xala ("Sən no üçün yaşayırsan?", İ.Qasımov və H.Seyidbəyli), Elizaveta ("Mariya Stüart", F.Şiller), Kuraj ana ("Kuraj ana və uşaqları", B.Brext) və sair rolları canlandırıb. "Mahnı belə yaranır", Mən səni xatırlayıram, müəllim", "Muğam" kimi filmlərdə də çəkilib.

Biz onu həm də gözəl bədii qiraət ustası kimi də tanıyırıq. Onun oynadığı heç bir rola baxmayanlar belə, Xalq şairi Süleyman Rüstəmin "Ana və poçtalyon" şeirini televiziyada Vera Şiryenin ifasında, özü də Azərbaycan dilinin bütün koloriti ilə maraqla dinləyərək əsl istedad sahibi kimi tanıyıb, pərəstişkarına çevriliblər. Çünki şeirdə olduğu kimi, səslənməsində də yalançı patetika, oxuculara zorla sırınan ritorika və saxta pafos yox idi. Ana intizarı rəsmlənirdi.

**Dörd ay vardı, ananın**
**gözləri yol çəkirdi,**
**Başqa bir dərdi yoxdu,**
**oğul dərdiydi dərdi.**
**Sorurdu: – "Balam hanı?" –**
**hər cəbhədən gələndən,**
**Ondan xəbər gəlməyir,**
**xəbər gəlir öləndən…**

Vera Şiryenin 80–90-cı illərdə də tez-tez oxuduğu bu şeiri, bəlkə də Süleyman Rüstəm məhz onun üçün yazıbmış. Bu da deyilir ki, təkcə cəbhə bölgələrində çıxışlarla kifayətlənməyən aktrisa özü də bir növ poçtalyonluq edir, azərbaycanlı əsgərlərin yazıb evlərinə çatdırmaq üçün ona verdikləri məktubları Bakıya qayıdan kimi ünvanına çatdırırmış.

Xalq artisti həm sovet vaxtı, həm də ittifaq dağıldıqdan sonra Moskvadan və başqa teatrlardan dəvətlər alsa da, özünü doğma bakılı və azərbaycanlı hesab etdiyi üçün heç yerə getməyib. Bakıda yaşamağa davam edib.

Ümummilli lider Heydər Əliyev ona böyük sənətkar kimi daim layiq olduğu dəyəri verib, ilklər sırasında Prezidentin fərdi təqaüdünə layiq görüb. Vera Şiryenin 85 yaşı tamam olanda Ulu öndər ona zəng vuraraq bütün dövrlərin ən böyük aktrisası adlandırıb və təbrik edib. Sonra teatr sənətinin inkişafındakı xidmətlərinə görə "İstiqlal" ordeni verib.

Vera Şiryenin Azərbaycan sevgisi çoxsaylı pərəstişkarlarının onu sevməsinə vəsilə olmuşdu.

*Ə.ƏLİYEV*
*XQ*

# Audiovizual Şuranın iclası

**Yanvarın 31-də Azərbaycan Respublikası Audiovizual Şurasının iclası keçirilib. İclasda bir sıra məsələlərə baxılıb.**




Əvvəlcə ümumölkə yerüstü radio yayımçısı lisenziyasının verilməsi üçün elan edilmiş 2 müsabiqəyə yekun vurulub, müsabiqəyə buraxılmış iddiaçıların sənədlərinin, texniki yayım imkanlarının, kadr və maliyyə-iqtisadi potensialının yoxlanılmasını həyata keçirmiş Müsabiqə Komissiyasının məruzəsi və rəyi dinlənilib.

Sonra Audiovizual Şuranın üzvləri iddiaçılar haqqında fikirlərini bildiriblər. Müsabiqələrə buraxılmış 5 iddiaçı arasında daha üstün texniki, kadr və iqtisadi potensiala malik olan 2 iddiaçı - "Pro Media Group" MMC (radio kanalın adı: "Planet FM") və "Broadcast Media" MMC (radio kanalın adı: "Dalğa FM") qalib elan olunub və müsabiqələr üzrə yekun qərarlar verilib. Qərarlara əsasən ilkin mərhələdə "Bakı Teleqüllə Kompleksi"ndən 88.7 MHs radiotezliyi "Pro Media Group" MMC-nin, 92.5 MHs radiotezliyi isə "Broadcast Media" MMC-nin istifadəsinə ayrılıb.

Daha sonra audiovizual media fəaliyyəti üçün lisenziya verilməsi ilə əlaqədar Audiovizual Şuraya ünvanlanmış son müraciətlər müzakirə olunub. Qəbul olunmuş müvafiq qərarlara əsasən, "İdeal TVNet" MMC-yə (operator xidmət adı: "İdealnet") sadə platforma operatoru, "Azeuronet" MMC-yə (operator xidmət adı: "Azeuronet") universal platforma operatoru, "TV1 Media" MMC-yə peyk yayımı həyata keçirməyən platforma yayımçısı (televiziya redaksiyasının adı: "TV1") lisenziyaları verilib.

İclasın sonunda lisenziya sahiblərinin müraciətləri əsasında "Beeonline" ASC-yə, "Global Technology" MMC-yə və "Qafqaznet" MMC-yə verilmiş universal platforma operatoru lisenziyalarının ləğv edilməsi ilə bağlı müvafiq qərarlar qəbul olunub.

*XQ*

# 1 fevral ABŞ-da "Milli Azadlıq Günü" kimi qeyd olunur

## *1865-ci il yanvarın sonunadək bu ökədə quldarlıq hökm sürüb*

**Beynəlxalq miqyaslı internet resurslarında "Fevralın ilk günü dünyada hansı tarixi günlərlə əlamətdardir?" sualına verilən çoxsaylı cavablardan biri belədir: "1865-ci il. ABŞ-da quldarlıq ləğv edilmişdir" (https://news.mail.ru/society/45051631/).**



Adıçəkilən sayt yazır: "1 fevral 1865-ci ildə prezident Avraam Linkoln ABŞ Konstitusiyasına 13-cü Düzəlişdə quldarlığı ləğv etmək üçün konqres qərarını imzaladı. Sənəddə yazılırdı: " Quldarlıq və ya məcburi köləlik nə Birləşmiş Ştatlarda, nə də onun səlahiyyətlərinə tabe olan hər hansı başqa yerdə (cinayət törədənin cəzası istisna olmaqla) mövcud olmamalıdır". Həmin sənəd 1865-ci il dekabrın 18-də qüvvəyə minmiş və ABŞ-da köləlik tamamilə ləğv edilmişdi. Amma…

Həmin tarixi faktla bağlı rusiyalı həmkarlarımızın hazırladığı analitik materialda isə ortaya başqa bir sual çıxarılır: "1865-ci ilin fevralında ABŞ-da köləlik ləğv edildi. Bəs bu fakt nə üçün qaradərililərə azadlıq gətirmədi?" (https://lenta.ru/articles/2022/06/19/juneteens/) . Həmin sualın cavabını "Lenta.ru"nun xüsusi müxbiri Pyotr Kamençenkonun materialında tapmağa çalışdıq. Müəllif yazır:

"Avraam Linkolnun prezidentliyi dövründə ölkədə vətəndaş müharibəsi gedirdi. Şimal ştatları bir-birinin ardınca məğlub olur və cənub əyalətlərində baş verənlərə nəzarət edə bilmirdilər. Şimallıların özlərində isə qul əməyindən istifadə edən çoxlu plantasiyalar var idi. Həmin vəziyyətdə köləliyin ləğvi haqqında qanun daha çox niyyət bəyannaməsi və İttifaqın qorunması uğrunda mübarizədə Linkolnun uğurlu siyasi addımı ola bilərdi. Linkoln belə bir addımı atdı. Ancaq Amerikada ölkənin ağ-qara bütün əhalisinin hüquqlarını de-yure bərabərləşdirmək üçün yüz il, bunu de-fakto etmək üçün isə daha yarım əsr lazım idi.

Mütəxəssislərin fikrincə, qul əməyi əsrlər boyu iqtisadi cəhətdən səmərəsiz hesab edilib. Lakin 1990-cı illərin əvvəllərində iqtisadiyyat üzrə Nobel mükafatı laureatı adını almış Robert Uilyam Fogel sübut etdi ki, XIX əsrin birinci yarısında ABŞ-da qulların əməyi muzdlu işçilərin əməyindən daha səmərəli idi. Onun tədqiqatı göstərdi ki, 1860-cı ildə qul əməyindən istifadə edən ABŞ-ın Cənub ştatlarında kənd təsərrüfatı işlərində çalışan qulların səmərəsi azad insan əməyindən istifadə edən Şimallı kənd təsərrüfatından 35 faiz daha üstün idi. Vogel həmçinin belə qənaətə gəlirdi ki, vətəndaş müharibəsinin səbəbi köləliyin iqtisadi səmərəsizliyi deyil, Şimal sənayesinin ucuz işçi qüvvəsinə artan ehtiyacıdır.

Bununla razılaşmamaq çətindir, çünki bərabərlik və irqçiliyin pislənməsi ilə bağlı bütün ritorikaya baxmayaraq, köləliyin ləğvindən sonra yüz ildən çox müddət ərzində qaradərili amerikalılar eyni iş üçün ağdərili amerikalıların yarısı qədər əməkhaqqı aldılar.

Tarixçilər yazırlar ki, Avraam Linkoln qulları azad etmək üçün həyatını fəda edən son qəhrəmandır. Xatırladaq ki, ABŞ-da 4 il davam edən vətəndaş müharibəsi 9 aprel 1865-ci ildə Konfederasiyanın kapitulyasiyası ilə başa çatdı. Müharibənin başa çatmasından 5 gün sonra – 1865-ci il aprelin 14-də Ford teatrının səhnəsində qoyulan "Mənim amerikalı əmim oğlu" tamaşası zamanı cənub tərəfdarı olan aktyor Con Uilks But prezident lojasına yaxınlaşaraq Linkolnun başına tapancadan güllə açmışdı. Güllə atandan sonra Butt səhnəyə çıxaraq latınca "Sic semper tyrannis!" ( "Tiranların taleyi belədir" ifadəsini səsləndirmişdi. Səhəri gün, saat 7:22-də Avraam Linkoln ölmüşdü.

Bəli, Linkoln həqiqətən köləliyə nifrət edirdi və onu ləğv etmək üçün çox şey etmişdi. Ancaq eyni zamanda o, hansısa romantik və ya idealist yox, məhz siyasətçi idi. 1861-ci ildə Linkolnun Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə seçilməsi 11 cənub ştatının İttifaqdan ayrılmasına gətirib çıxarmışdı. Zaman sübut etdi ki, onların buna hər cür haqqı var idi. Çünki onların məcburi qayıdışı ölkə tarixində ən qanlı müharibəyə səbəb olmuşdu (600 mindən çox ölü, 400 mindən çox yaralı və eyni sayda itkin).

Burada başqa bir maraqlı məqam da var idi. Belə ki, quldarlığa qarşı çıxış edən Linkoln eyni zamanda qaradərililərin ağdərililərlə bərabərliyini tanımırdı. Onlara seçkilərdə səsvermə hüququ vermək niyyətində deyildi və irqlərarası nikahların qatı əleyhdarı idi.

Ona görə də İttifaqın bütün ştatlarında köləlik ləğv edilsə də, keçmiş qullar üçün çoxdan gözlənilən xoşbəxtlik hələ çox uzaqda idi. Fermer və sahibkarlar prokurorluğun nəzarəti altında öz qullarını təkcə ağır işdən deyil, həm də yaşayacağı yerdən, adi həyat tərzindən də azad edirdilər. Yüz minlərlə qaradərili, yaşayış vasitələri və müstəqil yaşamaq bacarığı olmadan sözün əsl mənasında küçələrə atılırdı. Bəxti gətirənləri keçmiş sahibləri minimal ödənişlə işə götürürdülər. Bir xeylisi hər hansı bir iş axtarmaq üçün zəngin Şimal şəhərlərinə köçürdü. Qalanları isə dilənçiliklə və xırda oğurluqla dolanaraq səfilə çevrildilər və dərhal müvafiq qanunun tələbləri altına düşdülər. Qanuna əsasən daimi yaşayış yeri və işi olmayan qaradərililər ağır işlərə göndərilirdilər. Orada isə həyat şəraiti köləlikdən də pis idi. İş o yerə çatmışdı ki, linçlər – afroamerikalıların məhkəməsiz və istintaqsız qətlləri – adi bir hadisəyə çevrilirdi. ABŞ-da qeyri-qanuni edamlarla bağlı dəqiq statistika yoxdur, lakin ekspertlər edam edilən on minlərlə insandan danışır.

Məlum olduğu kimi, afrikalı amerikalılar uzun illər faktiki olaraq gücsüz qaldılar. Qaradərililərin yığcam yaşaması üçün ayrı-ayrı ərazilər gettolar ayrılırdı. Ağ və qaradərililər üçün ayrıca məktəblər, ayrı-ayrı ictimai nəqliyyat (1970-ci illərə qədər mövcud idi), otel və motellərdə ortaq yerləşdirməyə qadağalar, yalnız ağlar və "rənglilər" və qaralar üçün kafe və restoranlara bölünmə var idi. Hətta məhkəmədə and içmək üçün istifadə edilən İncil ağlar və qaralar üçün fərqli idi.

Pyotr Kamençenko yazır ki, köləliyin ləğvindən cəmi yüz il sonra, 1964-cü ildə Birləşmiş Ştatlar bütün ştatlarda dəri rənginə görə seqreqasiyanı ( latınca segregation sözündən yaranmış bu termin əhalinin bir qrupunun cəmiyytdən irqi və ya dini əlamətlərə görə zorla ayrılmasını ifadə edir) qadağan edən Vətəndaş Hüquqları Aktını qəbul etdi. Bununla belə, ABŞ-da qaradərili əhaliyə qarşı de-fakto ayrı-seçkilik hələ də mövcuddur.

P.S. Bütün bunlara baxmayaraq, sabiq Prezident Cozef Bayden və onun komandası dünyanın müxtəlif ölkələrində kiminsə hüquqlarının pozulmasından danışırdılar. Amerikalıların fikrincə, ötən ilin noyabrındakı seçkilərin nəticəsi bu ölkənin əsas problemlərinin həlli yollarını tapacaqdır.

***İ.QAÇAYEV***

# Ukraynada müharibəni qlobal maraqlar mürəkkəbləşdirib

**Bu gün fevralın 1-dir. 23 gündən sonra Rusiyanın Ukrayna ərazisinə yüzlərlə qırıcı təyyarə, minlərlə tank və zirehli maşınla hücum etməsinin 3 ili tamam olacaq. Moskvanın belə bir addım atacağını çoxları gözləmirdi. Amma Rusiya-Ukrayna müharibəsi başlandı və qanlı savaşı hələ ki, heç cür dayandırmaq mümkün olmur.**

Kreml hərbi əməliyyatın ən uzağı 1 həftə çəkəcəyini düşünürdü. Gözləntilər özünü doğrultmadı. Ukrayna xalqı ölkənin ərazi bütövlüyünün müdafiəsinə qalxdı. Tərəflər arasında əvvəlcə paytaxt Kiyev istiqamətində, sonralar isə uzun bir cəbhə boyu ağır savaşlar getdi. Zaman keçdikcə döyüşlərin miqyası genişləndi, şiddəti artdı.

Əslində, iki qonşu dövlət arasında müharibə 2014-cü ildə Krımın Rusiya tərəfindən ilhaqı ilə başlanmışdı. Bu, real olaraq qonşu, suveren dövlətin ərazisini zor gücünə işğal aktı idi. İkinci Dünya müharibəsindən sonra beynəlxalq hüquq kəskin surətdə pozulmuşdu. Təəssüf ki, o dönəmdə dünya haqqın, ədalətin yanında durmadı, sadəcə susdu. Krımın işğalı göstərdi ki, beynəlxalq hüququ müdafiə edən institutların, sadəcə adı var, heç bir real təsir gücləri yoxdur.



Rəsmi Moskva sovet imperiyasını bərpa etmək niyyətində olduğunu gizlətmirdi. Ukraynasız isə bu, mümkün deyil. Sonrakı illərdə Kremlin "dirijorluğu ilə" Donbasdakı Rusiyapərəst separatçı silahlı qüvvələr Ukraynanın suverenliyini təhdid etməyə başladılar. Qərb yenə də Rusiyaya "gözün üstə qaşın var" demədi.

Rusiyanın hərbi potensialı Ukraynadan müqayisəyəgəlməz dərəcədə çoxdur. Reallıq budur ki, Krım da daxil olmaqla, Rusiya ordusu faktiki olaraq Ukrayna ərazisinin 20 faizə qədərini işğal edib. Bu gözəl, bərəkətli torpaqlara malik olan ölkənin infrastrukturuna ciddi zərbə dəyib. Ölkə əhalisinin dörddə biri Ukraynanın sərhədlərini tərk edib.

Ən müxtəlif versiyalara görə, RF bu müharibədə azı 600 min hərbçisini itirib. Yüz minlərlə yaralı var. Təkcə Ukraynanın deyil, Rusiyanın da kiçik və böyük şəhərləri raket zərbələrinin atəşi altındadır. Ötən ilin yayından RF-nin ərazisi döyüş meydanına çevrilib. Hazırda Kursk vilayətinin bir hissəsinə Ukrayna Silahlı Qüvvələri nəzarət edir. Orada olduqca ağır döyüşlər gedir.

Müharibə səbəbindən rus və Ukrayna xalqları arasında nifrət və nifaq toxumları səpilib. Bütün bunları bir ilə, beş ilə bərpa etmək mümkünsüzdür. Lakin hər iki ölkədə bir çox sağlam düşüncəli insanlar başa düşürlər ki, iki qardaş xalq arasındakı bu müharibəni nəyin bahasına olursa-olsun dayandırmaq lazımdır.

Bir daha vurğulamaq istərdim. Ukraynanın insan və təbii resurları Rusiya illə müqayisədə qat-qat azdır. Hadisələr bu minvalla davam edərsə, Ukrayna xalqı öz dövlətçiliyini də itirə bilər. Müharibə ukraynalılara ağır mərhumiyyətlər gətirib. Milyonlarla qaçqın hazırda Avropa və Şimali Amerikanın zəngin ölkələrində ağır işlərdə çalışmalı olurlar. Onların vətəni isə göz önündə dağılıb xarabazara çevrilir.

Müharibəni kim dayandıra bilər? Əlbəttə, ağıla ilk olaraq Ağ evin hazırkı sahibi Prezident Donald Tramp gəlir. O, Amerikanın sülh təklifinə "itaət göstərməyən" tərəfi cəzalandıracağı ilə hədələyir. Üstəlik, enerji daşıyıcılarının qiymətlərini aşağı salacağını, Rusiyanı çökdürəcəyini vəd edir. Bu ssenarinin təsiri olacaqmı? Bu suala birmənalı cavab vermək çətindir.

Birləşmiş Ştatlar üçün Ukrayna böhranı əsas hədəf deyil. Axı, ən vacibi Çini zəiflətməkdir. "Səmavi dövlət" çoxdandır Amerikanı daban-dabana izləyir.. Bir də gördün ki, gəlib Amerikaya çatdı və hətta onu ötdü. Bu, dünyanın 1 nömrəli super gücü üçün əsl qorxulu yuxudur. Pentaqon öz müttəfiqləri ilə birlikdə bütün gücünü "sarı əjdaha"ya qarşı mübarizəyə yönəldib.

Hələlik, dünya Amerikanın cızdığı plan üzrə gedir. ABŞ Rusiya–Ukrayna müharibəsinin benefisarı sayılır. Amerika küreyinə ağır sanksiyalar yüklədiyi Rusiyanı Avropanın gəlirli enerji bazarından demək olar ki, məhrum edib. Belə ki, ABŞ indi Avropaya özünün maye qazını satır. Rusiya isə oyundan kənarda qalıb.

Prezident Tramp birinci prezidentlik dönəmində NATO-ya üzv dövlətlərdən hərbi büdcələrini 2 faizə qədər artırmağı tələb edirdi. Bu gün söhbət artıq 5 faizdən gedir. Dünyada ən böyük silah istehsalçısı isə ABŞ-dır. Avropa ölkələri okeanın o tayından qırıcı təyyarələr satın almaq üçün növbəyə düzülüblər. Özünüz təsəvvür edin, Rusiya–Ukrayna müharibəsindən kimlər milyardlar qazanır!

Avropanın şərqində 3 ildir davam edən savaşdan Makron Fransası da öz imperialist maraqları naminə yararlanmağa çalışır. Avropada hərbi cəhətdən ən güclü olduğunu iddia edən Paris Avropa İttifaqına üzv dövlətləri öz siyasi iradəsini tabe etməyə çalışır. Lakin hamı başa düşür ki, Paris siyasi bleflə məşğuldur, onun imkanları real gücündən qat-qat azdır.

Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən ən çox zərər çəkən ölkələrdən biri isə Almaniyadır. Rusiyanın Ukraynaya hərbi təcavüzündən əvvəl Berlin və Moskva arasında enerji sahəsində bir neçə iri layihə uğurla həyata keçirilirdi. Baltik dənizinin dibi ilə inşa edilən 1-ci və 2-ci "Şimal axını" layihələri ABŞ-ın təzyiqi ilə dayandırıldı.



Üstəlik, Almaniya Rusiya üzərindən Çinlə quru yolla böyük bir coğrafi ərazidə ticari əlaqələrini genişləndirə bilərdi. Almaniya, Rusiya və Çinin qarşısında geniş iqtisadi üfüqlər açılırdı. Bütün bunlar almanların hazırda dünya idarəçilini əllərində saxlayan anqlo-sakslara zərrə qədər sərf eləmirdi.

Xatırladaq ki, düz 5 il əvvəl, 2000-ci il yanvarın sonlarında Böyük Britaniya Aİ-ni tərk edib. Bir çox analitiklər düşünürlər ki, bunun əsas səbəbi məhz Almaniyanın iqtisadi yüksəlişinə maneçilik törətmək olub. Avropa qitəsində yazılmamış qanunlar var. Qitənin hər hansı bir dövləti "həddindən çox" güclənəndə, o biri dövlətlər birləşib onu yıxmağa cəhd edirlər. Bu məqamda göz önünə XIX əsrdə Napoleonun taleyi gəlir. XX əsrə aid də buna bənzər misallar da çəkmək olar.

Göründüyü kimi, planetimizdə böyük güclərin açıq və gizli nüfuz savaşı baş verir. Bu çətin, mürəkkəb məqamda hər bir dövlət öz milli maraqlarından çıxış edərək dünyanın siyasi xəritəsində öz layiqli yerini tutmağa çalışır. Düzgün strateji qərarların qəbul edilməsi həyati əhəmiyyət kəsb edir.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Gürcüstanda süni böhranı Qərb körükləyir

**"Rusiya Gürcüstan ərazilərini işğal edib və ölkələr arasında diplomatik münasibətlər yoxdur, sadəcə, iqtisadi əlaqələr var. Bizim əsas siyasətimiz sülhdür. İşğal olunmuş ərazilərdə abxaz və osetin qardaş və bacılarımız yaşayırlar. İşğalın müvəqqəti olduğuna inanırıq. Ümid edirik ki, Gürcüstan gələcəkdə vahid və inkişaf etmiş dövlətə çevriləcək". Bu fikri Gürcüstan prezidenti Mixael Kavelaşvili İsveçrənin "Neue Zürcher Zeitung" nəşrinə müsahibəsində bildirib.**

Dövlət başçısının qeyd etdiyi kimi, prokurorluğa seçki saxtakarlığına dair heç bir sübut təqdim edilməyib. ATƏT-in yekun hesabatında isə seçkilərin demokratik keçirildiyi bildirilib. "Vətəndaşların azad seçim hüququ var idi. Bu, reallıqdır. Heç kim deyə bilməz ki, Mixael Kavelaşvili qanunsuz seçilib", – Kavelaşvili vurğulayıb.



Siyasətçi deyib ki, o, "bütün vətəndaşlar üçün prezident" olmaq istəyir. Onun sözlərinə görə, hökumət "ağıllı davranır" və ölkədəki böhran "süni şəkildə yaradılıb". Kavelaşvili təkrar edib ki, xarici hökumətlərin nümayəndələri Gürcüstandan Rusiyaya qarşı müharibəyə qoşulmağı tələb ediblər. Rədd cavabı aldıqdan sonra isə təzyiq göstərməyə başlayıblar: "Bizdən Rusiyaya qarşı müharibəyə qoşulmağı, könüllü döyüşçülər göndərməyi və sanksiyalara dəstək verməyi tələb etdilər. Lakin bu, Gürcüstan üçün böyük təhlükə yarada bilərdi. Rədd cavabı aldıqdan sonra isə təzyiq göstərməyə başladılar".

Onun sözlərinə görə, Gürcüstanın antiqərb siyasəti yürütməsi barədə iddialar dezinformasiyadır: "Sülhün alternativi yoxdur. Bu, ABŞ-da antiqərb fəaliyyətlər həyata keçirdiyimiz barədə iddialar həqiqəti əks etdirmir... Tramp və onun dövlət katibi Marko Rubio bizim həmişə dediyimiz şeyləri deyirlər".

Kavelaşvilinin sözlərinə görə, 2024-cü il oktyabrın 26-da keçirilən parlament seçkiləri əvvəlkilərlə müqayisədə ən ədalətli seçki olub və əhalinin əksəriyyəti onun nəticələrinə təəccüblənməyib: "Mənim sələfim Salome Zurabişvili seçkilərin saxtalaşdırıldığını və bunun arxasında Rusiya kəşfiyyatının dayandığını bildirdi. Bu, dünya mediası tərəfindən geniş yayıldı. Prezidentin bu cür dezinformasiyası qəbuledilməzdir. Beynəlxalq media yalnız mənim sələfimdən müsahibələr alır və onun fikirlərini yayırdı, heç kim hökumətin mövqeyini anlamağa çalışmadı". M.Kavelaşvili hesab edir ki, bu, avropalılar üçün inandırıcı görünürdü. Amma bu, əslində Avropa vətəndaşlarının təhqir olunması deməkdir.

Dövlət başçısı qeyd edib ki, məhz buna görə də bizim vəziyyətimizdə böyük dezinformasiya və Gürcüstan hökumətini təcrid etmək cəhdləri görünür, reallıq isə fərqli aspektdən təqdim edilir: "Mən artıq doqquzuncu dəfə seçkilərdə iştirak edirəm və əvvəlki seçkilərlə müqayisədə bu seçkilər, bəlkə də, ən yaxşısı idi".

O bildirib ki, parlament seçkilərinin nəticələrinin saxtalaşdırılması ilə bağlı məsələ əvvəlcədən planlaşdırılıb. Bunu Gürcüstanın sabiq prezidenti Salome Zurabişvilinin arxivi də təsdiqləyir: "Prezident arxivi ilə tanış olduqdan sonra biz əmin olduq ki, bütün bunlar hələ seçkilərdən əvvəl planlaşdırılıb".

Normal müxalifətin olmadığını deyən Gürcüstan prezidenti bildirib ki, gürcü xalqının tələblərini ödəyən normal müxalifət olsaydı, o zaman rəqabətə davamlı olardı və "Gürcü Arzusu"-nu əvəz edə bilərdi.

Kavelaşviliyə görə, Gürcüstan Avropa İttifaqının namizəd "üçlük" ölkələri arasında (Ukrayna, Moldova, Gürcüstan) öhdəliklərini ən yaxşı yerinə yetirsə də, ilk mərhələdə status ala bilməməsi anlaşılan deyil: "Bizim Aİ-yə daxil olmağımızı istədiklərini iddia edən qüvvələr, əksinə, bu məqsədə ziyan vururlar".

Prezident Tbilisidə davam edən etirazlara da münasibət bildirib: "Bizim ağlabatan addımlarımız olmasaydı, daha pis olardı – biz müharibənin qarşısını aldıq. Brüsselə güzəştə gedə bilmədiyimiz üçün Aİ ilə danışıqları dayandırdıq. Amma konstruktiv təkliflər ortaya çıxsa, dialoqu bərpa etməyə hazırıq".

Gürcüstan iqtidarı "Xalqın gücü" adlı müstəqil qrup yaradaraq cəmiyyəti xarici təzyiqlər barədə məlumatlandırmağa çalışıb: "Bizim mövqeyimiz ölkənin xilasına yönəlmiş cəsarətli addım idi".

Gürcüstanın Baş naziri İrakli Kobaxidze də müxalifətin fəaliyyətinə toxunub və bildirib ki, onlar ölkənin maraqlarına xidmət etmir: "Müxalifətin iqtisadi fəlakətlə bağlı bəyanatlarına baxmayaraq, Gürcüstan Avropada iqtisadi artım tempinə görə liderdir. Son 4 ildə orta iqtisadi artım 9,5 faiz olub və ölkə 9 ili artımla başa vurub. Gürcüstan qabaqcıl ölkədir". Baş nazir, həmçinin müxalifəti fəlakətli iqtisadi vəziyyətlə bağlı yalan məlumatlar yaymaqda və ərəb investisiyaları ilə əlaqədar spekulyasiyalarda ittiham edib.

"Gürcü Arzusu–Demokratik Gürcüstan" Partiyasının baş katibi Kaxa Kaladzenin müxalifətlə bağlı açıqlaması daha sərt olub: "Təsəvvür edin, bu radikal qrupun nümayəndələrindən biri, hətta ölkəmizi bir oyuncağa bənzətməyə cəsarət edib. Nə edə bilərik, biz bu insanlarla birgə yaşamaq məcburiyyətindəyik. Ancaq bu radikallığa və faşizmə mütləq son qoymalıyıq".

Onun sözlərinə görə, bu, bir daha proseslərin xaricdən idarə olunduğunu göstərir. "Gürcü xainlərlə, ölkə düşmənləri ilə birlikdə Ukrayna nümayəndə heyətinin üzvləri də işləyirdi. Bu, bir daha sübut edir ki, proseslər xaricdən idarə olunur. Bu xırda radikalların ölkə daxilində himayədarları var. Onlar bu ölkəyə məxsus deyillər, Gürcüstanın maraqlarına xidmət etmirlər. Həmişə ölkəyə, vətənimizə və gürcü xalqına necə zərər vurmağı düşünürdülər. Biz onların dəfələrlə viza liberallaşdırılmasını dayandırmağa, Assosiasiya Sazişinin imzalanmasının qarşısını almağa çalışdıqlarının şahidi olmuşuq. Xainlər həmişə layiqli cavablarını alacaqlar".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 22 (30716) 1 fevral 2025-ci il, şənbə

İdman

# “Paris-2024”ün “medal” biabırçılığına BOK-da baxılacaq

**Paris Yay Olimpiya Oyunlarında iştirak edən və medal qazanan Azərbaycan idmançılardan 5 nəfərin medalları keyfiyyətini itirib. Bu idmançıların müraciəti əsasında Milli Olimpiya Komitəsində lazımi araşdırmalar aparılıb və nəticəsi ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinə rəsmi məktubla müraciət olunub.**

BOK-dan Milli Olimpiya Komitəsinə məlumat verilib ki, medal qazanan idmançılar haqqında məlumatlar və keyfiyyətini itirmiş medalların müxtəlif formalarda şəkilləri Beynəlxalq Olimpiya Komitəsinə göndərilsin. BOK müvafiq araşdırmalardan sonra medalların yenilənməsi qaydası ilə bağlı MOK-a əlavə məlumat verəcək.

Qeyd edək ki, Paris Yay Olimpiya Oyunlarında medal qazanan 7 idmançımızdan 5-nin medalında nəzərəçarpan dərəcədə dəyişiklik baş verib. Cüdo üzrə Olimpiya çempionu Hidayət Heydərov (73 kq) və sərbəst güləş üzrə bürünc mükafatçı Maqomedxan Maqomedovdan (97 kq) başqa, cüdo üzrə Olimpiya çempionu Zelim Kotsoyevin (100 kq) qızıl, taekvondoçu Qaşim Maqomedovun (58 kq), boksçu Alfonso Dominqesin (92 kq) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kq) və sərbəst güləşçi Giorgi Meşvildişvilinin (125 kq) bürünc medalları keyfiyyətini itirib.

# Stolüstü tennisçimiz gümüş medal qazanıb

**Stolüstü tennisçi Onur Quluzadə Qətərin paytaxtı Dohada keçirilən “WTT Youth Contender Doha 2025” turnirində 2-ci yeri tutub.**



U-15 kateqoriyasında mübarizə aparan Onur, qrup oyunlarında Birləşmiş Ərəb Əmirlikləri və Türkmənistan idmançılarını üstələyərək ilkin mərhələni lider kimi adlayıb. Ardınca o, Bəhreyn, Tailand və Malaziyadan olan rəqiblərinə də qalib gələrək finala yüksəlib. Gərgin mübarizə şəraitində keçən həlledici görüşdə İran təmsilçisinə 2-3 hesabı ilə uduzan stolüstü tennisçimiz yarışın gümüş mükafatına layiq görülüb.

*L.QURBANOVA*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*


8 NOYABR ZƏFƏR GÜNÜDÜR!
Xalq qəzeti
44 günlük Vətən müharibəsi 33 illik Qarabağ münaqişəsinə son qoydu
Qarabağ Zəfərinin dərsləri

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Mask “Nobel” alacaqmı?

**Amerikalı milyarder İlon Mask insanların söz azadlığına verdiyi dəstək və sülhə olan töhfələrinə görə Nobel sülh mükafatına namizəd göstərilib. Təklifi Sloveniyadan Avropa Parlamentinin deputatı Branko Qrims verib.**



Qrims "X" sosial şəbəkəsində paylaşdığı bir yazıda təklifinin Norveç Nobel İnstitutundan qəbul edildiyini bildirib. O, həmçinin Maskın namizədliyini irəli sürənlərə təşəkkür edib.

Xatırladaq ki, Mask 2024-cü ildə də Nobel sülh mükafatına namizəd olub. Həmin dövrdə bu təklifi norveçli deputat Marius Nilsen irəli sürmüşdü.

*XQ*

Futbol tariximizdən

# “Neftçi” böyük futbola Bakının mərkəzində başlamışdı

**Uzun fasilədən sonra bugünlərdə yenidən doğma “Xalq qəzeti” redaksiyasında olarkən söhbət əsnasında həmkarlarım məni Azərbaycan futbolunun tarixinə dair xeyli sorğu-suala tutdular, o cümlədən bir vaxtlar Bakının mərkəzində yerləşmiş “Dinamo” stadionu haqqında məlumat almaq istədilər.**


29 noyabr 1949-cu il

Etiraf edim ki, bəzi məqamları unutduğumdan onda verdiyim cavab özümü də tam qane etməmişdi. Evə qayıtdıqdan sonra futbola dair əlimdə olan kitab və jurnalları bir daha vərəqlədikdə çox şey xatırladım. İndi mövzu ətrafında bir qədər geniş danışmaq imkanım var.

Əvvəlcə onu deyim ki, 2011-ci ildə 100 illiyini qeyd etdiyimiz Azərbaycan futbolunun tarixi rəsmən 1911-ci ildən hesablansa da, milyonların bu sevimli oyunu respublikamızda hələ ondan xeyli əvvəl meydana çıxmışdı. Onu Azərbaycana neft Bakısının mədən və zavodlarında işləyən xarici ölkə mütəxəssisləri, eləcə də çörəkpulu qazanmaq üçün Moskva və Peterburqdan, Rusiya və Ukraynanın müxtəlif quberniyalarından gələn fəhlələr gətirmişdilər.

Bakıda ilk futbol komandaları 1911-ci ildə yaradılmışdı. Bunlar “Britaniya klubu”, “Balaxanı futbolçular dərnəyi”, “İdmanın dostları”, “Stella”, “İdmançı”, “Askold” komandaları olmuşdur. Növbəti ildə isə Azərbaycan futbolu tarixində ilk beynəlxalq şəhərlərarası görüş keçirilmişdir. Bu oyunda Bakının “Britaniya klubu” və Tbilisinin “Sokol” komandaları qarşılaşmışlar. Bakılılar 4:2 hesabı ilə qalib gəlmişlər. Bir il sonra “Sokol” futbolçuları paytaxtımıza cavab səfərinə gəlmiş və “Britaniya klubu”ndan məğlubiyyətin əvəzini çıxmışlar – 2:0.

İndi isə 1949-cu ili xatırlayaq. Həmin il SSRİ çempionatının birinci qrupuna 5 yeni komanda, o cümlədən onda hələ “Neftyanik” adlanan, 1968-ci ildən isə “Neftçi” adı daşıyan Bakı kollektivi də əlavə olunmuşdu. Təkrar edək, təmsilçimiz məhz 1949-cu ildə SSRİ çempionatının güclülər dəstəsinə daxil edilmişdi. Komandamızın əsasını hələ çox gənc – 19 yaşlı Ələkbər Məmmədov, Arif Qasımov, Viktor Anoşkin, Valentin Xlıstov, Naum Naumtsev, İsay Abramaşvili kimi futbolçular təşkil edirdilər. Finişə 34 oyunda 24 xalla çatan Bakı komandası 18 kollektiv arasında 14-cü yeri tutub, güclülər dəstəsində yerini qorumuşdur.

Komandamızın SSRİ çempionatının güclülər dəstəsində ilk dəfə çıxış etdiyi ildə onun baş məşqçisi Q. Putilin olmuşdur. Çempionatda kollektivin hücum xəttində Y. Şaqarov fərqlənmiş, 9 qolun müəllifi olmuşdur. Üç futbolçu – Ə.Məmmədov, N.Naumtsev və İ. Abramaşvili bütün 34 oyunda iştirak etmişlər.

Həmin illərdə “Neftyanik” SSRİ çempionatında ev oyunlarını şəhərin mərkəzində – indiki “Azərbaycan” otelinin yerində yerləşən “Dinamo” stadionunda keçirirdi. Yazımızı müşayiət edən foto da 1949-cu il sentyabrın 29-da bu stadionda Stalinqradın (indi Volqoqrad) “Torpedo” komandası ilə görüşdə lentə alınmışdır.

Hakim protokoluna əsasən, bakılılar bu görüşdə pərəstişkarlarını böyük hesablı qələbə ilə sevindirmişlər – 4:1. Topların ikisini Ə. Məmmədov və Y.Şaqarov, daha ikisini isə İ. Abramaşvili vurmuşlar. Oyunu kuybışevli (hazırda Samara) hakim A. Tavelski idarə etmişdir.

“Neftyanik”in iştirakı ilə keçirilmiş güclülər dəstəsində ilk SSRİ çempionatı qalibinin Moskvanın “Dinamo” komandası olduğunu da qeyd edək. Sonralar Ələkbər Məmmədov bu adlı-sanlı paytaxt klubuna dəvət olunmuş və onun heyətində Sovet İttifaqı çempionatlarında 4 qızıl medal qazanmışdır. Unudulası nailiyyət deyil! Necə fəxr etməyəsən?!

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

Hava

# Yağmursuz və dumanlı şənbə

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 1-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Şimal-şərq küləyi əsəcək. Gecə 5-7°, gündüz 8-12° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi şərq rayonlarda az çiskinli olacağı ehtimalı var.

Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 9-14° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 2-7° isti olacaq.

*Q.QASIMOV*
*XQ*


## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

*Yanğın təhlükəsizliyinin təmin edilməsi üçün mal, iş və xidmətlərin satınalınmasına dair çərçivə müqaviləsinin (saziş) tərəfinin müəyyən olunması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 13 fevral 2025-ci il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- +994 12 599 00 03 (daxili 3704).

Ünvan-AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

Cəmiyyətə məxsus “Sabir Babayev” adına gəminin tərsanə təmiri xidmətinin satın alınması üçün

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 5 mart 2025-ci il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu – (+994) 12 599 00 03 (daxili 3706).**

**Ünvan – AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.**


## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin əməkdaşı Sevinc Turabovaya anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3046
SİFARİŞ 185
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00